Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev

İctimai-siyasi, hüquq qəzeti

Qəzet 1990-cı ilin iyulundan çıxır

№ 13 (6155) 10 aprel 2026-cı il

Qiyməti 40 qəpik

## Mina problemi Qarabağda işlərin aparılmasını ləngidir



**İşğaldan azad edilmiş ərazilərdə minalar problemi mövcuddur ki, bu da bərpa və quruculuq işlərinin aparılmasını ləngidir.**

**Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidenti İlham Əliyev Litvanın Baş naziri İnqa Ruqinieneni qəbul edərkən deyib.**

**Onun sözlərinə görə, artıq 30 minə yaxın keçmiş məcburi köçkünün öz dədə-baba yurdlarına qaytarılması təmin olunub. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə Azərbaycan tərəfindən şəhərlərin, kəndlərin salındığını, nəqliyyat və digər sosial infrastruktur layihələrinin icra olunduğunu deyib. Dövlət başçısı Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərimizdə indiyədək 400-dən çox insanın mina partlayışlarında həlak olduğunu və ya yaralandığını da bildirib.**

## Rəsmi Bakı: ABŞ və İran arasında elan edilmiş atəşkəsi alqışlayırıq



**Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Amerika Birləşmiş Ştatları və İran İslam Respublikası arasında elan edilmiş atəşkəsi alqışlayır.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan XİN-in bəyanatında qeyd olunub.

Bildirilib ki, Azərbaycan Xarici İşlər Nazirliyi atəşkəsin əldə olunmasında vasitəçilik edən bütün tərəflərin səylərini yüksək qiymətləndirir.

"Bu atəşkəsin regionda gərginliyin azaldılmasına, eləcə də davamlı sülh və sabitliyin bərqərar olmasına töhfə verəcəyinə ümidvarıq.

Tərəfləri mövcud məsələlərin həlli istiqamətində və qarşılıqlı etimadın yaradılmasına yönəlmiş məhsuldar dialoqa çağırırıq.

Azərbaycan hər zaman regionda davamlı sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsinə yönəlmiş təşəbbüsləri dəstəkləməyə hazırdır", - bəyanatda vurğulanıb.

## Ali Məhkəmə Plenumunun növbəti iclası keçirildi



**2026-cı il aprelin 6-da Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**

Adalet.az xəbər verir ki, iclasda "Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun bəzi qərarlarında dəyişiklik edilməsi haqqında" qərar layihəsi müzakirə olunaraq təsdiq edilib.

Həmçinin Ali Məhkəmənin məhkəmə kollegiyalarının tərkiblərinin, qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə və əlavə kassasiya qaydasında yenidən baxılmasına dair məhkəmə tərkiblərinin və kassasiya instansiyası məhkəməsində məhkəmə aidiyyətinə dair mübahisələr üzrə şikayətlərə mülki, kommersiya və inzibati kollegiyalara daxil olan hakimlərdən ibarət qarışıq tərkibdə baxılmasına dair Plenumun Qərar layihələrinin müzakirəsi aparılıb.

Sonra 2025-ci ildə Bakı Kommersiya Məhkəməsində, eləcə də Gəncə Şəhər Məhkəməsində qanunvericiliyin tətbiqinin məhkəmə təcrübəsinə dair məsələləri üzrə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumatlar dinlənilib.

## Xəzər dənizi yox ola bilər?



**Xəzər dənizinin səviyyəsi stabilləşir. Adalet.az xəbər verir ki, bu barədə Rusiya Elmlər Akademiyasının Su Problemləri İnstitutunun laboratoriya müdiri, texnika elmləri doktoru Mixail Bolqov açıqlama verib. O qeyd edib ki, dənizin səviyyəsi son 20 ildə davam edən enişdən sonra müəyyən tarazlıq vəziyyətinə çatıb.**

Alimin sözlərinə görə, yaxın illərdə səviyyənin bu tarazlıq ətrafında dəyişməsi və nisbi sabitliyin müşahidə olunması gözlənilir.

## Faiq Qismətoğlu milli mətbuatın 150 illik medalını aldı





**"Ədalət" qəzetinin əməkdaşı Faiq Qismətoğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Fərmanı ilə təsis edilmiş "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" yubiley medalı ilə təltif olunub.**

Adalet.az xəbər verir ki, sözügedən medal dövlət mükafatı statusuna malikdir və Azərbaycan milli mətbuatının 150 illiyi münasibətilə mətbuatın inkişafında, peşəkar jurnalistikanın formalaşmasında, eləcə də cəmiyyətin obyektiv və operativ informasiya ilə təmin olunmasında xüsusi xidmətləri olan media nümayəndələrinə təqdim edilir.

Əbülfət MƏDƏTOĞLU

## ƏDALƏTSİZLİYİN AT OYNATDIĞI DÜNYA

Bax:səh-8

## Hüquq-mühafizə orqanları əməkdaşlarının NƏZƏRİNƏ!

**"Ədalət" qəzetinin regionlar üzrə redaktor müavini, Azərbaycanın tanınmış jurnalisti, yazıçı-publisist Məzahir Əhmədoğlunun imzası hər kəsə məlumdur. Təəssüf ki, dələduzluq edən bir şəxs Məzahir Əhmədoğlunun adından və nüfuzundan istifadə edərək ayrı-ayrı idarə və müəssisə rəhbərlərinə, iş adamlarına, millət vəkillərinə, hətta hüquq-mühafizə işçilərinə telefonla müraciət edərək pul dilənir!!!**

**Həmin dələduz öz müraciətində "60 illik yubileyini" qeyd etmək, "qəzaya düşdüyü üçün" yardıma ehtiyacı olduğunu və digər bəhanələri dilə gətirərək həyasızcasına pul istəyir. Sonuncu dəfə həmin şəxs 070-200-58-16 nömrəsindən istifadə edib. "Ədalət" qəzeti olaraq bildiririk ki, Məzahir Əhmədoğlunun adından istifadə edən həmin şəxs mətbuata yad bir şərəfsizdir və hüquq-mühafizə orqanlarına üz tuturuq:**

**BU ŞƏRƏFSİZİ TAPIN VƏ QANUNLA CƏZALANDIRIN!**

## Macarıstan Cəbrayılın Soltanlı kəndinin bərpasına 30 milyon dollar ayıracaq

**Macarıstan Cəbrayıl rayonunun Soltanlı kəndində aparılan bərpa işlərinə 30 milyon dollar qrant ayıracaq.**

Adalet.az xəbər verir ki, bu barədə Nazirlər Kabinetinin 2025-ci ildə üzrə hesabatında qeyd edilib.

Bildirilib ki, bununla bağlı Azərbaycan İqtisadiyyat Nazirliyi ilə Macarıstan Yardım Agentliyi arasında "Azərbaycan Respublikası Cəbrayıl rayonunun Soltanlı kəndinin tikintisi çərçivəsində yaşayış binalarının yenidən qurulması" layihəsi ilə bağlı qrant vəsaitinin qəbuluna dair Təsdiq Məktubu" imzalanıb. Sənəd Azərbaycan Nazirlər Kabineti tərəfindən təsdiq edilib.

## GÜNÜN LƏTİFƏSİ

Müəllimə Tağıdan soruşur:

- Tağı, rəqəmləri bilirsən?
- **Hə! Atam mənə öyrədib!**
- Yaxşı, üçdən sonra nə gəlir?
- **Dörd!**
- Əhsən! bəs yeddidən sonra?
- **Səkkiz!**
- Əhsən! Atana da bir çox sağ ol deyərsən! Bəs, ondan sonra?
- **Ondan sonra, valet!**

## İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasını təbrik edib



**Prezident İlham Əliyev Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə təbrik edib.**

Dövlətimizin başçısı təbrik məktubunda bildirib:

"Azərbaycanda yüzillərdir hökm sürən tolerantlıq mühiti burada məskunlaşmış ayrı-ayrı xalqların, etiqad və inancların mənsubları arasında nümunəvi və harmonik ictimai münasibətlərin bərqərar olmasında müstəsna rol oynamışdır. Biz cəmiyyətimizdə tarixən formalaşmış etnik-mədəni müxtəlifliyi, milli-mənəvi dəyərləri və multikultural ənənələri müasir dövlətçiliyimizin unikal sərvəti kimi qiymətləndiririk".

Prezident İlham Əliyev qeyd edib ki, hazırda ölkəmizdə demokratik-hüquqi prinsiplərin təmin edilməsi, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsə, o cümlədən xristian icmasına özünəməxsus adət-ənənələrini, dil və mədəniyyətini yaşatmaq üçün geniş imkanlar yaradır.

"Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, xristian həmvətənlərimiz ictimai-siyasi, sosial-mədəni həyatımızda fəal iştirak edir, müstəqil dövlətimizin hərtərəfli inkişafına layiqli töhfələr verirlər", - deyə dövlətimizin başçısı vurğulayıb.

## Prezident Sərəncam imzaladı

**Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Kollegiyasının tərkibi təsdiqlənib. Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Kollegiyası aşağıdakı tərkibdə təsdiq edilsin:**

**Kollegiyanın sədri**

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi sədrinin birinci müavini

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi sədrinin müavinləri

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi Aparatının rəhbəri

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Hüquq şöbəsinin müdiri

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Haqsız rəqabət və reklam qanunvericiliyinə nəzarət şöbəsinin müdiri

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Standartlaşdırma, texniki tənzimləmə və sertifikatlaşdırma şöbəsinin müdiri

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin İstehlak bazarına nəzarət şöbəsinin müdiri

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Təbii inhisarlara dövlət nəzarəti şöbəsinin müdiri.

## Qadın hərbçilər üçün MAXE müddəti azaldılıb

**Müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edilən qadın hərbi qulluqçularla bağlanan ilkin bağlaşma müddəti azaldılıb.**

Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlara dəyişiklikdə öz əksini tapıb. Dəyişikliyə əsasən, qadınlarla bağlanan ilkin bağlaşma müddəti 3 ildən 6 ayadək azaldılıb.

# Daxili işlər naziri Vilayət Eyvazov türkiyəli həmkarı ilə görüşdü

**Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun dəvəti ilə Türkiyə Respublikasının daxili işlər naziri Mustafa Çiftçi və onun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.**



Adalet.az xəbər verir ki, aprelin 9-da nazir Mustafa Çiftçi və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıblar. Sonra qardaş ölkənin təmsilçiləri Şəhidlər xiyabanındakı "Əbədi məşəl" kompleksini və Türk Şəhidliyini ziyarət ediblər.

Həmin gün Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov türkiyəli həmkarı və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan V.Eyvazov daxili işlər naziri vəzifəsinə təyin olunması münasibətilə cənab M.Çiftçini təbrik edib, dəvətini qəbul edərək rəsmi səfərə gəldiyinə görə təşəkkürünü bildirib.

O, iki ölkənin Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın yüksək səviyyədə olduğunu məmnunluqla vurğulayaraq rəhbərlik etdiyi Daxili İşlər Nazirliyinin qardaş ölkənin hüquq mühafizə orqanları ilə əlaqələrin, o cümlədən beynəlxalq əməkdaşlığın intensiv inkişafına daim önəm verdiyini qeyd edib.

Bu əlaqələrin ilk növbədə qarşılıqlı hüquqi yardım, təcrübə mübadiləsi, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə dövlətlərarası müqavilələr əsasında reallaşdığı nəzərə çatdırılıb.

Nazir Azərbaycan polisinin və DİN-in Daxili Qoşunlarının respublikada ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə əldə etdiyi müsbət nəticələri də diqqətə çatdıraraq fəaliyyətin təkmilləşdirilməsində Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin xüsusi rolunu və xidmətlərini məmnunluqla vurğulayıb, cənab Mustafa Çiftçinin şəxsində Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin rəhbərliyinə təşəkkür edib.

V.Eyvazov cənab Mustafa Çiftçinin Azərbaycana ilk rəsmi səfərinin əlaqələrimizin inkişafına və dərinləşməsinə müsbət təsir göstərəcəyinə əmin olduğunu bildirib.

Səmimi qəbula, ətraflı məlumata və qonaqpərvərliyə görə minnətdarlığını bildirən Türkiyənin daxili işlər naziri respublikamıza səfərindən, dost və qardaş ölkələrimizin bölgədə əmin-amanlığa və sabitliyin yaradılmasına ciddi əngəl olan qlobal problemlərə, o cümlədən mütəşəkkil cinayətkarlığın bütün təzahürlərinə qarşı hər zaman vahid mövqedən və birgə səylərlə çıxış etmələrindən, Azərbaycanın sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlikdən, Bakının dünyanın ən gözəl paytaxtlarından və təhlükəsiz şəhərlərindən biri olmasından məmnunluğunu ifadə edib.

O, iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, əlaqələrin inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, belə əməkdaşlığın, təcrübə mübadiləsinin xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

**Görüşdə Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Birol Akgün iştirak edib.**

# Azərbaycan XİN-dən Rusiyaya xəbərdarlıq

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında 1 aprel tarixində Moskvada keçirilmiş görüş zamanı və ondan sonra Rusiyanın rəsmi şəxsləri tərəfindən ictimai müzakirələrdə Azərbaycanın sırf daxili işlərinə aid məsələlərə toxunulub.**

XİN-dən Adalet.az-a verilən xəbərə görə, bununla əlaqədar diplomatik kanallar vasitəsilə Azərbaycanın Qarabağ bölgəsindən siyasi spekulyasiyalarda istifadə edilməsinin qəbuledilməzliyi barədə mövqeyimiz və bunun dayandırılmasına dair göztəntilərimiz Rusiya Prezidentinin Administrasiyasının, Hökumətin və XİN-in diqqətə çatdırılıb.

"Buna baxmayaraq, mövzu Rusiya tərəfinin rəsmi siyasi diskursunda davam etməkdədir. Belə ki, bu gün Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Vesti kanalına müsahibəsində Ermənistan-Rusiya münasibətlərinə dair mövqe bildirərkən növbəti dəfə Qarabağ bölgəsinin Azərbaycanın tərkib hissəsi kimi ilk olaraq Rusiya, yoxsa Ermənistan tərəfindən tanınması barədə şərh verib. Qarabağ bölgəsinin Azərbaycanın ayrılmaz tərkib hissəsi olması hər hansı bir dövlətin qərarına deyil, tarix, beynəlxalq hüquq və ədalətə söykənir.

Bu, 2020-ci il 44 günlük Vətən müharibəsi və 2023-cü il 1 günlük antiterror tədbirləri nəticəsində bir daha təsdiq olunaraq, tam bərqərar olub. Rusiya tərəfinə bir daha xatırlatmaq istərdik ki, Rusiya Federasiyası daxil olmaqla, heç bir ölkə, heç bir dövrdə Qarabağ bölgəsi daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü sual altına qoymayıb.

Azərbaycanın suverenliyinə aid olan məsələlərin Rusiya-Ermənistan münasibətlərinin sadə olmadığı hazırkı dövrdə ictimai müstəvidə münasibətlərin aydınlaşdırılması predmetinə çevrilməyəcəyinə dair gözləntilərimizi bir daha Rusiya tərəfinin diqqətinə çatdırırıq", - XİN-in açıqlamasında qeyd olunub.

# "Sülh danışıqları bu faciələri unutmağımıza əsas vermir"

**"Bu gün Azərbaycanla Ermənistan arasında böyük sülh müqaviləsinin bağlanmasından danışılır. Regionda müəyyən sabitlik var. Bunların hamısı əlbəttə ki, müsbət hadisələrdir. Amma bu sülh danışıqlarının, müqavilələrin imzalanması heç də yaxın tarixdə yaşadığımız faciələri unutmağa əsas vermir".**



Bunu Adalet.az-a açıqlamasında professor Qulu Məhərrəmli Ağdaban faciəsinin 34-cü ildönümü haqda danışarkən deyib.

Onun sözlərinə görə, bu baxımdan elə hadisələr var ki, onların haqqında Azərbaycan ictimaiyyətində müəyyən biliklər, ətraflı məlumatlar var: "Amma elə faciələr də var ki, onlar miqyasına görə lokal olsalar da belə, amma bu müharibə tarixində, Azərbaycanın tarixində unudulmaz izlər qoyub. Bu faciələrin miqyası, insanların faciəsi sözlə ifadə olunası deyil. Məsələn, Bağanıs Ayrım, Quşçular, Malıbəyli, Ağdaban kəndinin faciəsi. Bunlar haqqında bizim ictimaiyyətin bilikləri məhduddur. Ona görə hesab edirəm ki, xüsusi bir müharibənin xronikası və ya faciələr xronikası kimi belə bir vəsait hazırlanmalıdır ki, onlar gənclər üçün bir bilik mənbəyi olsun. Məsələn, bu gün Ağdaban soyqırımdan 34 il ötür.

Bir kənddə görün nə qədər insan qətlə yetirilib. Qəfil hücum nəticəsində insanlar həyatını, mülkini itirib, bütün kənd yandırılıb. Aşıq Şəmşir kimi unikal bir xalq aşığının evi tar-mar edilib, əlyazmaları yandırılıb. Bunlar hamısı maddi-mənəvi abidələrin yandırılması, tarixin izinin itirilməsi Azərbaycan xalqının sinəsinə böyük bir dağın çəkilməsidir. Ona görə də bunlar unudulmamalıdır. Zaman-zaman bu barədə ictimaiyyətə məlumatlar verilməlidir. Bunlar hamısı filmlərdə, sənədli xronikalarda öz əksini tapmalıdır ki, insanlar bunu unutmasınlar".

Qeyd edək ki, bu gün Ağdaban soyqırımının baş verməsindən 34 il ötür. 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə ermənilər tərəfindən Kəlbəcər rayonunun 130 evdən ibarət Ağdaban kəndi tamamilə yandırılıb və yer üzündən silinib. Kəndin 779 nəfər dinc sakininə işgəncələr verilib, 67 nəfər qətlə yetirilib, 8 nəfər 90-100 yaşlı qoca, 2 azyaşlı uşaq, 7 qadın diri-diri yandırılıb.

**Vasif ƏLİHÜSEYN**

# "İranda da qəzəblə, nifrətlə, kinlə xalqı ram etməyin mümkün olmadığını anladılar"

**"İran qalib gəldi. ABŞ İranın 10 maddəlik təklifini qəbul etdi. Bundan sonra nə olacaq? Bundan sonra neft kəskin ucuzlaşmağa başlayacaq. Sanksiyaların ləğv edilməsi nəticəsində İran sürətlə inkişaf etməyə başlayacaq. Bundan sonra İranda teokratik dini rejim zəifləyəcək. Əvəzində İranda mühafizəkarlar sıradan çıxmaqla, bu ölkədə ciddi elmi, texnoloji inkişaf başlayacaq. Körfəz dövlətləri ilə münasibətlərin yenidən qurulması, regionda balansın yaranmasına gətirib çıxaracaq".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı ekspert Razi Abasbəyli deyib.

Onun sözlərinə görə, İranda mühafizəkarların mövqelərinin zəifləməsi nəticəsində Azərbaycanla da münasibətlər daha sağlam müstəviyə keçəcək:

"İlk növbədə ABŞ-İran anlaşması əlbəttə ki, ABŞ-nin də maraqlarının təmin edilməsinə səbəb olacaq. ABŞ uranın zənginləşdirilməsinə müəyyən həddə qədər razılıq verəcək. Bununla belə şərtlərini də diqtə edəcək. Məsələn, regionda proksi qüvvələrin ləğvi. Məsələn, HƏMAS zəifləyəcək. Bu birmənalıdır. İran öz qılıfına çəkilib daha müasir və sağlam bir formada inkişaf edəcək. Sanksiyaların ləğvindən sonra neft sənayesi inkişaf edəcək. Regionda güclü aqrar sektoru, bütün sanksiyalara rəmən inkişaf edən sənayesi, elm və təhsil istiqamətləri daha da inkişaf edəcək. Tarix dəfələrlə sübut edib ki, savaşlarla, silahlarla heç bir xalqı məğlub etmək mümkün deyil. Savaşla, silahla qazandıqlarını sevgiylə, mərhəmətlə, himayə etməklə pərçimləmək lazımdır".

R.Abasbəyli deyib ki, ABŞ nə İraqda, nə Əfqanıstanda bunu edə bilmədi:



"Başarmadı və geri çəkildi. İranda da qəzəblə, nifrətlə, kinlə xalqı ram etməyin mümkün olmadığını anladılar. Aylar əvvəl yazmışdım ki, heç bir ölkə İrana quru qoşunu ilə hücum edə bilməz. Quru qoşunları olmadan da 100 il də İrana bombalasalar nəticəsi olmayacaq.Sonuc ortadadır.Bu sonucu mütləq Rusiya da yaşayacaq. Kreml nəhayət anlamalıdır ki, Ukraynada bundan sonra heç vaxt qalib ola bilməyəcək.ABŞ vaxtında anladı. Rusiya da gec-tez anlamasa bu onun sonu olacaq.Regionda dəngələr dəyişəcək. Və dəyişən şərtlər İsraili zəiflədəcək.Türkiyə ilə İran yaxınlaşmasının sürətlənəcəyi qaçılmazdır. Çin, Hindistan, Türkiyə və İran arasında inkişaf edən iqtisadi əlaqələr nəticə etibarilə Avropanın da iqtisadi olaraq böyüməsinə səbəb olacaq. Çünki ABŞ və İsrailin İrana hücumları zamanı Avropa və Britaniya konkret olaraq mövqe ortaya qoydu - "Bu bizim savaşımız deyil"!ABŞ Ukraynaya dəstəkdən imtina etməklə, Avropa ilə yollarını ayırdı. Bu yolda ABŞ özünə həm də güclü rəqiblər qazandı. ABŞ Avropa ilə yanaşı Çin, Hindistan kimi nəhəng bazarları sürətlə itirməyə başlayacaq. Orta Asiya ölkələrində (Qazaxıstan, Özbəkistan, Qırğızıstan) başlayan iqtisadi inkişafın da əsas səbəbi Çindir.Beləliklə yeni dünya düzənində iki h..ayasız ölkənin (Rusiya və ABŞ) hər ikisinin hegemonluğu başa çatmaq üzrrədir. Artıq dünya yeni qaydalarla idarə edilir. Hər bir dövlət özü qərar verərək öz yolunu, müttəfiqlərini seçəcək. Yalnız bir istisna var - körfəzdəki ərəb ölkələri. Onlar hələ də hansısa ölkənin arxa baxçası olaraq qalır. Və yəqin ki, elə neft emalı zavodu anlayışından o yana keçməyəcək bu ölkələrin statusu".

**Vasif ƏLİHÜSEYN**

# MEDİA-da Qazaxıstan nümayəndə heyəti ilə görüş keçirilib

**Medianın İnkişafı Agentliyində (MEDİA) Qazaxıstan mədəniyyət və informasiya nazirinin müavini Rustam Alinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**



Adalet.az xəbər verir ki, bu barədə MEDİA məlumat yayıb.

Belə ki, görüşdə MEDİA-nın İcraçı direktoru Əhməd İsmayılov Azərbaycan ilə Qazaxıstan arasında dostluq və əməkdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini qeyd edərək, media sahəsində tərəfdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb. O bildirib ki, bu istiqamətdə qabaqcıl təcrübələrin tətbiqi, media savadlılığı və dezinformasiyaya qarşı mübarizə sahəsində birgə fəaliyyətin gücləndirilməsi, informasiya mühitində keyfiyyət və etibarlılığın qorunması, eləcə də müasir çağırışlara uyğun çevik və effektiv mexanizmlərin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Qazaxıstanın mədəniyyət və informasiya nazirinin müavini Rustam Ali müvafiq sahəyə məsul qurumlar və media subyektləri arasında təcrübə mübadiləsinin təşkili, birgə layihələrin icrası, eləcə də saxta və qeyri-mötəbər məlumatların yayılmasına qarşı mübarizə məsələlərinə diqqət çəkib, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi, informasiya təhlükəsizliyinin gücləndirilməsi və media mühitində dayanıqlı inkişafın təmin olunması istiqamətində fikir mübadiləsi aparılıb.

Qazaxıstan Respublikasının xarici işlər nazirinin müşaviri Alişer Askaroviç Suleymenov bildirib ki, rəqəmsallaşma dövründə media sahəsində koordinasiyalı fəaliyyət və birgə təşəbbüslər daha dayanıqlı və təhlükəsiz informasiya mühitinin formalaşmasına xidmət edir.

**O, həmçinin qarşılıqlı etimadın artırılması və ortaq kommunikasiya platformalarının yaradılmasının vacibliyini diqqətə çatdırıb.**

# Politoloq «ABŞ İranı kapitulyasiya sənədinə imza atdıra bilmədi»

**"Tərəflər eyni statusda danışıqlar masasına əyləşdi. Ortada qalib yoxdur. Dünən verdiyim açıqlamada Trampın İran "sivilizasiyanı məhv edəcəm" və "mülki infrastruktura zərbə endirəcəyini" bəyan etməsi İran rejiminə təzyiq beyanatı olduğunu qeyd etdim. Həmçinin ABŞ İrana ölümcül zərbələr endirməyəcəyini və konfedensial danışıqların getdiyini vurğuladım. Baxmayaraq ki, İrana qarşı axşam ölümcül hücumu hamı gözləyirdi. Hətta İsraildə "Sivilizasiyanin məhvi" saatı geri sayım başlamışdı".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun sözlərinə görə, ABŞ-nin İranın mülki infrastrukturunu darmadağın etməsi Vaşinqtonun beynəlxalq imicinə zərbə vuracaqdı: "Həmçinin D.Trampa daxildə siyasi elitada təzyiqlər edilməsi istisna deyil. İran Pakistan və Böyük Britaniyanın birbaşa təsirləri ilə Hörmüz boğazını açdı. Təbii ki, Trampın təzyiqləri nəticəsində Tehran geri addım atdı. Artıq ABŞ-ın 15 maddəlik və İranın 10 maddəlik təklifləri əsasında danışıqlar gedir.

İranın 10 maddəlik təklifləri ABŞ-nin nüfuzuna zərbədir. Vaşinqton belə bir təklifləri qəbul etməyəcək. Gözlənildiyi kimi hər iki tərəf qələbə əldə etdiyini bəyan etdi. Təbii ki, İran ciddi şəkildə zərbə alıb. Həmçinin Vaşinqtonun Körfəzdə və Yaxın Şərqdə hərbi bazaları sıradan çıxıb. İsrailin toxunulmazlıq mifi aradan qalxdı. Demək olar ki, B52 İrana kiçik kilotoluq nüvə zərbəsi ilə havaya qalxıb, İrana doğru istiqamət alanda Tehran Vaşinqtonun Hörmüz boğazı ilə bağlı təklifini qəbul etdi. Bir növ İranın əlində olan Hörmüz təhdidi rejimin xilas kəməri olduğunu demək olar".

Politoloq deyib ki, İranın Hizbullahla bağlı təklifi qəbul edilməsi Tehranın burada qalib olmasını şərtləndirən əsas amildir:

"İranın şərti ilə İsrail "Hizbullaha" qarşı əməliyyatı dayandırdı. İranın birmənalı şəkildə məğlub olub, demək olmaz. Rejim yerindədir və ABŞ-la eyni statusda danışıqlar masasına əyləşib. ABŞ -da birmənalı qalib deyil. Amma, İrana böyük zərbələr vurmaqla rejimi zəiflətdi. İranın hərbi potensialını dağıtdı. Amma, Tramp dediyi kimi İranı kapitulyasiya sənədinə imza atdılar bilmədi".

**Sübhan**

*Elxan Şükürlü*



# ABŞ-İran müharibəsinin qalibi kimdir?

**Məqsədə çatmaq baxımından qiymətləndirmə apardıqda, 40 günlük savaşın real qalibi məğlubedilməz bir ideyaya, işğalçıya qarşı dirənişdə həmrəyliyə və sarsılmaz müqavimət ruhuna, eyni zamanda qədim və əsrarəngiz mədəniyyətə malik, həm də bizim bir parçamız olan İran xalqıdır.**

**Çünki İranla aparılan danışıqları qəfildən pozaraq, 28 fevralda hərbi əməliyyatlara başlayan ABŞ-İsrail koalisiyasının açıqca elan edilmiş əsas məqsədi "Venesuela ssenarisi"nin bir başqa və daha sərt formada tətbiqi idi: "Vilayəti-fəqih" sistemini birdəfəlik çökdürmək üçün ölkəni idarə edən əsas fiqurlar qətlə yetirilir, başsız qalan ölkə idarəetməni itirir və parçalanma təhlükəsiylə üzləşir, daxildə xaos başlayır, ümidsiz qalan xalq ayağa qalxır, əraziyə öncədən sızdırılmış silahlı şəxslərin əliylə hərbi çevriliş həyata keçirilir və Şahın pusquda saxlanan oğlu yenidən "qanuni hakimiyyəti bərpa" adıyla taxta əyləşdirilir, beləcə, İran sonda ABŞ-İsrail koalisiyası ilə masa arxasına keçərək, Tramp-Netanyahu duetinin şərtləri əsasında hazırlanmış təslimiyyət aktına imza atır!**

**28 fevraladək aparılan danışıqlarda İran diplomatiyasının yeganə məqsədi isə nüvə silahı hazırlamaq proqramından imtina və əllərindəki zənginləşdirilmiş uranın İranın mülkiyyətində qalmaq şərtiylə üçüncü ölkəyə verilməsinə razılaşmaq müqabilində, ölkə üzərindəki bütün sanksiyaların götürülməsinə, eləcə də özünün və müttəfiqlərinin təhlükəsizliyinə uzunmüddətli zəmanət sazişinin imzalanmasına nail olmaq idi...**

**ABŞ-İsrail koalisiyası 40 günlük əməliyyat zamanı başda dini Lider Seyid Əli Xamenei olmaqla, İran rəhbərliyinə daxil olan xeyli sayda yüksəkrütbəli şəxsi və onların ailə üzvlərini qətlə yetirməyi, İran şəhərlərini və strateji obyektlərini dağıtmağı və bərpası xeyli zaman və pul tələb edən irimiqyaslı zərər vurmağı bacarsa da, ölkənin içərisində xaos yaratmaq və hakimiyyəti qəbyönümlülərlə əvəzləmək cəhdlərinin hamısı iflasa uğradı.**

**"Pilotxilasetmə" adı altında həyata keçirilən "uranqaçırma" əməliyyatı da uğursuzluğa düçar olduqdan sonra Trampa hərbi əməliyyatları "üzüsulu" dayandırmaq və danışıqlar masası arxasına keçmək lazım idi ki, İranın bu savaşdakı əsas müttəfiqi Çin də Pakistan üzərindən danışıqlar masası qurmağa müvəffəq oldu.**

**Beləliklə, əvvəlcə Venesuela prezidentini oğurlayıb neftinə çökən, daha sonra da İran neftini və coğrafiyasını da ələ keçirərək Çinə əlidolu gedəcəyini düşünən Tramp-Netanyahu ittifaqının qanlı dişləri məhz müsəlman torpaqlarında və müsəlmanların əliylə sındırıldı!**

**Yeni danışıqlar masası da məhz İslam torpaqlarında - İslamabadda qurulacaq! Kərbəla məktəbindən ilham alan, Peyğəmbər (s.) soyuna və "Əhli-Beyt"inə sahib çıxan qürurlu İran xalqı bu möhtəşəm dirənişi, şücaəti və qeyrətiylə sünnili-şiəli bütün müsəlmanların üzünü ağ elədi! Qibləsi, azanı, "Quran"ı, Peyğəmbəri (s.) bir olan ümmətimiz vəhdət üçün oyanır artıq! Şükür Allaha!**

# "Rusiya Ermənistanda 102-ci hərbi bazadan seçki prosesinə..."

**"Ermənistanın Baş naziri Nikol Paşinyanın Kremldə Vladimir Putinin təklif və təhdidlərinə açıq, sərt ritorika ilə cavab verməsi iki ölkə arasında münasibətlərdə ciddi gərginlik yaradıb. Görünür ki, Vladimir Putin Nikol Paşinyanın bu qədər kəskin və arqumentli mövqe sərgiləyəcəyini gözləmirdi".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. O, bildirib ki, əgər Paşinyan qarşıdakı seçkilərdə qələbə qazanarsa, Ermənistanın Rusiyanın təsir orbitindən çıxması istiqamətində daha radikal addımlar atacağı istisna deyil:

"Onun hazırkı sərt ritorikasının gələcəkdə real siyasi qərarlarda tətbiq olunacaq. Hazırda Rusiya-Ermənistan münasibətlərində ciddi çatlar yaranıb və proseslərin daha dərin böhran mərhələsinə keçəcəyi gözlənilir. Paşinyan Rusiyanın Ermənistanın daxili işlərinə müdaxiləsini və Qarabağ məsələsini yenidən gündəmə gətirməsini ölkəsinin suverenliyinə təzyiq kimi qiymətləndirir. Bu baxımdan, onun sərt cavabı həm daxili auditoriyaya, həm də Moskvaya ünvanlanmış siyasi mesaj kimi dəyərləndirilə bilər. Kremlin Ermənistanda siyasi müxalifətə-Robert Köçəryan və Serj Karapetyana dəstəyi münasibətlərində ənənəvi təsir alətlərindən istifadə etdiyini də göstərir. Qarşıdakı dövrdə Rusiyanın İrəvana təzyiqlərinin artacağı gözlənilir. 7 iyun tarixində Ermənistanda baş verəcək siyasi proseslər isə təkcə ölkədaxili vəziyyətə deyil, bütövlükdə Cənubi Qafqazda sülh və təhlükəsizlik mühitinə ciddi təsir göstərə bilər. Rusiya Ermənistanda 102-ci hərbi bazadan istifadə etmək cəhdləri istisna deyil".

**Vasif**



Səxavət Məmməd

# Böyük savaşlar arasında Qafqaz

## Rusiya təhdidi və kiçik dövlətlərin sağ qalmaq şansı

**ABŞ/İsrail cütlüyünün İrana təcavüzü fonunda İranın apardığı müdafiə döyüşləri, bəzi hallarda isə həyata keçirdiyi hücum əməliyyatları hazırkı atəşkəsin əldə edilməsinə yol açdı.**

**Müharibə başlayandan bəri yazırdım ki, İran döyüşlərin coğrafiyasını genişləndirəcək və şaxələndirəcək. Ötən yazılarımda da qeyd etdiyim kimi, İran müharibə miqyasını bu dərəcədə böyütməsə idi, məğlubiyyətə düçar olacaqdı. ABŞ rəsmiləri də etiraf edirlər ki, İranın Körfəz ölkələrinə hücumu onlar üçün gözlənilməz olub. Niyə bu qənaətdə idim? Xəritələrə düzgün baxanda onlar hər şeyi deyir: İran hər tərəfdən ABŞ hərbi bazaları ilə əhatə olunmuşdu. Əgər İran Körfəz ölkələrinə zərbələr endirməsə idi, həmin bazalar hücumun sürətini və tempini sabit saxlayacaqdı.**

**Müharibələrdə vaxt ən önəmli faktordur. Körfəz ölkələri vurulmasa idi, ABŞ təyyarələri havada yanacaq doldurmaq üçün vaxt itirməyəcəkdi. Məsafənin uzaqlığı təkcə vaxt itkisi deyil, həm də döyüş təyyarələrinin daşıdığı yükə ciddi təsir edən amildir. Misal üçün, biri var təyyarə tam şəkildə raket və bombalarla yüklənsin, biri də var, yanacaq sərfiyyatını hesablayaraq daha az yüklə hərəkət etsin.**

**Digər tərəfdən məlum olur ki, İran 100-dən çox hərbçisini Livana göndərərək Hizbullahı yenidən formalaşdırıb. Bu əməliyyatı o qədər gizli icra ediblər ki, məlumatlar yalnız müharibənin 10-cu günündən sonra üzə çıxmağa başladı. Bir çoxlarına görə Hizbullah artıq bitmişdi, ancaq İran onu tamamilə fərqli formada döyüşə hazırlamışdı. İran bu müharibədə Hizbullah və Husilərlə koordinasiyalı şəkildə İsrailə bir neçə dəfə sarsıdıcı zərbələr endirdi. Bunları yazmaq və danışmaq asan olsa da, icrası son dərəcə ciddi hazırlıq, strateji zəka və böyük zəhmət tələb edən prosesdir.**

**Müharibədən əvvəl dəfələrlə qeyd edirdim ki, hərbi əməliyyatlar başlayacağı təqdirdə İran Hörmüz boğazını bağlayacaq. O zaman çoxları bu proqnozu tənqid edirdi. Ancaq İran "olmaz" deyilən nə varsa, hamısını bir-bir etdi. Xüsusilə Azərbaycanda bəzi ekspertlər İranın raketlərinin "hara gəldi" atıldığını yazırdılar. Əslində bu, çox bəsit və mənasız yanaşma idi. Çünki İran Körfəzdəki və İordaniyadakı ABŞ radarlarını, ballistik raket izləmə sistemlərini vurmasa idi, heç bir nəticə əldə edə bilməzdi. İran bu sistemləri sıradan çıxardığı üçün İsrail məcbur qalıb bütün raket və dronları yalnız öz hava məkanında zərərsizləşdirməyə çalışırdı.**

**İranın əlini gücləndirən əsas faktorlardan biri də Husilər oldu. Husilər təkcə İsrailə zərbələr endirməklə kifayətlənmədilər; onlar eyni zamanda Səudiyyə Ərəbistanını neytrallaşdırdılar, Qırmızı dənizi təhdid altında saxladılar və Bab əl-Məndəb boğazını bağlayacaqları ilə bağlı xəbərdarlıq etdilər. Təsəvvür edin: Hörmüzlə yanaşı Bab əl-Məndəb boğazı da bağlanır. Bu o demək idi ki, ABŞ İrana hücumla bərabər, paralel olaraq bir neçə strateji istiqaməti də düşünmək məcburiyyətində qaldı. Trampın "sivilizasiyanı məhv edəcəm", "İranı daş dövrünə qaytaracam" tipli aqressiv və isterik bəyanatlarının kökündə məhz bu çıxılmazlıq dayanırdı. Müharibənin gedişində ABŞ və İsrail cütlüyü İrana zərbələr endirsə də, bir müddət sonra Tramp etiraf etdi ki, "İranda vurulacaq bir şey qalmayıb". Onlar üçün hədəf kimi yalnız mülki infrastruktur və atom mərkəzləri qalırdı ki, bunları vurmağın da İran tərəfindən çox ağır cavabı olacaqdı. Körfəzdəki bütün neft və qaz yataqlarının vurulması təkcə dünya iqtisadiyyatını iflic etməyəcək, həm də ərəbləri bahalı maşınlardan endirib yenidən dəvələrə mindirəcəkdi. Əlbəttə, ABŞ və İsrailin əlində ən azı taktiki atom bombası variantı da var idi. Bundan istifadə edə bilərdilərmi? Bəli! Radikal dindarlardan hər şey gözləmək olar. İrandakılar nə qədər radikaldırlarsa, ABŞ və İsrailin idarəetməsindəkilər də onlardan geri qalmırlar.**

**İranın zəif tərəfləri var idimi? Şübhəsiz. Xüsusilə hava hücumundan müdafiə sahəsində ciddi boşluqlar mövcuddur. Müdafiə döyüşü aparan ölkə üçün bu sistemlər həyati əhəmiyyət kəsb edir. Ancaq müharibənin mövcud şərtlərlə bitməsi onu deməyə əsas verir ki, İranın düzgün addımları səhvlərindən qat-qat çox olub.**

**İran əhalisinin hakimiyyətə dəstəyinə gəldikdə isə, bunu təkcə ideologiya ilə izah etmək düzgün deyil. Əvvəla, o coğrafiyanın insanına necə müharibə etməyi öyrətməyə çalışmaq ən azı ayıb sayılmalıdır. Digər tərəfdən, xalq inanır ki, qələbə qazanılacağı təqdirdə hakimiyyət bu uğuru onlarla paylaşacaq. Məsələn, hazırkı rəhbər şəxslərin demək olar ki, hamısı İran-İraq müharibəsinin veteranlarıdır.**

**Bəs bu müharibənin qazananı kimdir? Nəticəyə baxaq: ABŞ və İsrailin əsas hədəfi İrandakı rejimi dəyişmək idi, buna nail ola bilmədilər. Atom proqramı ilə bağlı da real nəticə yoxdur; açıqlanan razılaşmalardakı "nəzarət" məsələsi müharibədən əvvəl də mövcud idi. Ballistik raket proqramı isə ümumiyyətlə müzakirə mövzusu belə olmadı.**

**Müharibənin başlanğıcında qarşıya qoyulan bəzi taktiki tapşırıqlara nail olunsa da, bu, strateji nəticəni dəyişmədi. Məsələn, ali dini lider artıq yaşlanmışdı, müharibədə öldürüldüyü üçün "şəhid" statusu qazandı, onun yerinə gələn oğlu isə döyüşdə yaralandığı üçün "qazi" kimi qəbul edildi. Çoxlu sayda generallar öldürülsə də, onların yerini alanlar müharibəni eyni templə davam etdirdilər.**

**Strateji baxımdan müharibənin əsas qazananı Pakistan oldu. Türkiyə müharibəni dayandırmaq üçün çox cəhd etsə də, rəsmi İslamabadın sözü daha kəsərli və mötəbər sayıldı. Digər qalib isə İraqdır. İranın İraq ərazisindəki hərbi bazaları vurması, faktiki olaraq İraqın "əl-qolunu açdı".**

**Müharibənin ən çox itirəni Körfəz ölkələri oldu. Onlar artıq təkcə təhlükəsizlik çətiri haqqında düşünməyəcək, həm də İranın diqtəsini daim nəzərə alacaqlar. Digər itirən tərəf isə İsrail oldu; mövcud şərtlərdə "Böyük İsrail" dövləti planı suya düşdü.**

**Çox maraqlı bir coğrafiyada yerləşirik. Böyük danışanların, nəhəng planlar quranların arzuları bu torpaqlarda həmişə boşa çıxır. Ümumiyyətlə, bu coğrafiya böyük arzuların qəbiristanlığıdır. "Böyük Ermənistan" xulyasının kökünə Arazın bu tayındakılar, indiki şərtlərdə "Böyük İsrail"in də kökünə Arazın o tayındakılar daş atdı desək, yanılmarıq...**

# "Münasibətləri möhkəmləndirmək üçün başlıca amil maddi təməllərdir"



**"Gürcüstanın dövlət müstəqilliyi tarixən bizim üçün Azərbaycanın müstəqilliyi qədər əziz və qiymətli olub. Azərbaycan və gürcü xalqları mehriban qonşular, dost və qardaşlar kimi yaşayıblar. Tarixin ən çətin anlarında xalqlarımız və ölkələrimiz bir yerdə olub, bərabər hərəkət ediblər. Azərbaycan və Gürcüstan bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini həm ikitərəfli, həm də çoxtərəfli əsasda birmənalı olaraq müdafiə edirlər".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin sədr müavini Musa Qasımlı deyib. O, bildirib ki, ölkələrimizi ümumi maraqlar, dostluq və qardaşlıq birləşdirir: "Azərbaycan Gürcüstan üçün Şərqə, Gürcüstan isə Azərbaycan üçün Qərbə açılan qapıdır. Neft-qaz, nəqliyyat-kommunikasiya xətləri Gürcüstan ərazisindən keçərək dünyaya çıxır. Cənab Prezidentimiz İlham Əliyevin Gürcüstana növbəti səfəri bu münasibətləri daha da möhkəmləndirdi. Baş nazir İrakli Kobaxidze mətbuata bəyanatında dövlət başçımızı Gürcüstanın əziz dostu adlandırdı və iki ölkə arasında münasibətlərin inkişafında şəxsi səylərini xüsusi qiymətləndirdi. Bu səfər dövlət başçımızın bəyanatında dediyi kimi, iki qardaş ölkə arasındakı əlaqələrə yeni təkan verəcəkdir. Münasibətləri möhkəmləndirmək üçün başlıca amil maddi təməllərdir, ticarətdir. Cənubi Qafqazda sülh və əməkdaşlıq hamının faydasındadır, regionu yenidən qarışdırmağa çalışanların niyyətləri qursaqlarında qalacaqdır".

**Vasif**

# "Düşmənə vurulan zərbə yalnız hərbi deyil, həm də psixoloji sarsıntı idi..."



**"Cənab Prezident İlham Əliyevin "Biz torpaqlarımızı heç vaxt güzəştə getməyəcəyik" bəyanatı milli iradənin qətiyyətlə ifadəsi oldu. Bu milli mövqe milyonlarla insanın qəlbində azadlıq toxumunun cücərməsinə xidmət etdi. Eyni zamanda, istiqlal məşəli qəlblərdə alovlandı və insanları bu ideya ətrafında birləşməyə sövq etdi.Bu gün isə Aprel döyüşlərinin 10-cu ildönümünü qeyd edirik. Regionda güc balansını dəyişən və saxta "status-kvo"nu dağıdan tarixi mərhələ".**

Bunu Adalet.az-a açıqlamasında "Yeni Xətt" Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov deyib. O, bildirib ki, Aprel döyüşləri illərlə "dondurulmuş münaqişə" kimi təqdim edilən vəziyyətin əsl mahiyyətini ifşa etdi:

"Bu, işğalın qorunmasına xidmət edən siyasi konstruksiya idi. Azərbaycan bu əməliyyatlarla həm hərbi, həm də diplomatik müstəvidə təşəbbüsü qəti şəkildə ələ aldı. Ordunun addımları siyasi iradə ilə uzlaşaraq yeni geosiyasi reallıq formalaşdırdı. Ermənistanın "məğlubedilməzlik" mifi dağıldı, danışıqlar masasında balans dəyişdi. Bu döyüşlər bir daha sübut etdi ki, Azərbaycan üçün ərazi bütövlüyü müzakirə mövzusu deyil dəyişməz strateji xəttdir. Aprel əməliyyatları sonrakı hərbi-siyasi transformasiyanın əsasını qoydu. Düşmənə vurulan zərbə yalnız hərbi deyil, həm də psixoloji sarsıntı idi, illərlə qurulan miflər dağıldı.

Şəhidlərimizin qanı ilə yazılan bu tarix nə susacaq, nə silinəcək, nə də unudulacaq. Bu, təkcə cəbhə xəttində qazanılan uğur deyil, bütövlükdə dövlət gücünün nümayişidir. Bu gün biz bu mərhələni sadəcə xatırlamırıq onu dövlətçilik iradəsinin konkret nəticəsi kimi qiymətləndiririk".

**Sübhan**

# ABŞ İranı kaputilyasiya sənədinə imza atdıra bilmədi

**"Tərəflər eyni statusda danışıqlar masasına əyləşdi. Ortada qalib yoxdur. Dünən verdiyim açıqlamada Trampın İran "sivilizasiyanı məhv edəcəm" və "mülki infrastruktura zərbə endirəcəyini" bəyan etməsi İran rejiminə təzyiq bəyanatı olduğunu qeyd etdim. Həmçinin ABŞ İrana ölümcül zərbələr endirməyəcəyini və konfedensial danışıqların getdiyini vurğuladım. Baxmayaraq ki, İrana qarşı axşam ölümcül hücumu hamı gözləyirdi. Hətta İsraildə "Sivilizasiyanin məhvi" saatı geri sayım başlamışdı".**



Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun sözlərinə görə, ABŞ-nin İranın mülki infrastrukturunu darmadağın etməsi Vaşinqtonun beynəlxalq imicinə zərbə vuracaqdı:

"Həmçinin D.Trampa daxildə siyasi elitada təzyiqlər edilməsi istisna deyil. İran Pakistan və Böyük Britaniyanın birbaşa təsirləri ilə Hörmüz boğazını açdı. Təbii ki, Trampın təzyiqləri nəticəsində Tehran geri addım atdı. Artıq ABŞ-ın 15 maddəlik və İranın 10 maddəlik təklifləri əsasında danışıqlar gedir. İranın 10 maddəlik təklifləri ABŞ-nin nüfuzuna zərbədir. Vaşinqton belə bir təklifləri qəbul etməyəcək. Gözlənildiyi kimi hər iki tərəf qələbə əldə etdiyini bəyan etdi. Təbii ki, İran ciddi şəkildə zərbə alıb. Həmçinin Vaşinqtonun Körfəzdə və Yaxın Şərqdə hərbi bazaları sıradan çıxıb. İsrailin toxunulmazlıq mifi aradan qalxdı. Demək olar ki, B52 İrana kiçik kilotoluq nüvə zərbəsi ilə havaya qalxıb, İrana doğru istiqamət alanda Tehran Vaşinqtonun Hörmüz boğazı ilə bağlı təklifini qəbul etdi. Bir növ İranın əlində olan Hörmüz təhdidi rejimin xilas kəməri olduğunu demək olar". Politoloq deyib ki, İranın Hizbullahla bağlı təklifi qəbul edilməsi Tehranın burada qalib olmasını şərtləndirən əsas amildir:

"İranın şərti ilə İsrail "Hizbullaha" qarşı əməliyyatı dayandırdı. İranın birmənalı şəkildə məğlub olub, demək olmaz. Rejim yerindədir və ABŞ-la eyni statusda danışıqlar masasına əyləşib. ABŞ -da birmənalı qalib deyil. Amma, İrana böyük zərbələr vurmaqla rejimi zəiflətdi. İranın hərbi potensialını dağıtdı. Amma, Tramp dediyi kimi İranı kaputilyasiya sənədinə imza atdırlar bilmədi".

**Vasif ƏLİHÜSEYN**

# "Humanitar yardım hər hansı siyasi mövqedən daha çox, insani dəyərlərin ifadəsidir"

**”Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin tapşırığı ilə İran İslam Respublikasının xalqına göstərilən humanitar yardım təşəbbüsü mürəkkəb və həssas bir dövrdə həyata keçirilən mühüm və uzaqgörən addımdır. Müharibə və gərginlik şəraitində mülki əhalinin üzləşdiyi çətinliklərin azaldılması baxımından bu cür yardımlar xüsusi əhəmiyyət kəsb edir”.**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Ceyhun Məmmədov deyib.

O, bildirib ki, humanitar yardım hər hansı siyasi mövqedən daha çox, insani dəyərlərin ifadəsidir:




”Çətin vəziyyətlə üzləşən insanların yanında olmaq, onların ehtiyaclarına dəstək vermək həm beynəlxalq humanitar prinsiplərin, həm də milli-mənəvi dəyərlərimizin tələblərindən irəli gəlir.Azərbaycanın bu addımı bir daha göstərir ki, ölkəmiz regionda yalnız siyasi və iqtisadi baxımdan deyil, eyni zamanda humanitar sahədə də məsuliyyətli və etibarlı tərəfdaşdır. Bu cür təşəbbüslər dövlətimizin sülhə, sabitliyə və insan həyatının qorunmasına verdiyi önəmin bariz nümunəsidir. Bu yanaşma Azərbaycanın beynəlxalq humanitar missiyalara verdiyi töhfələrin davamlı xarakter daşıdığını da bir daha təsdiqləyir. Eyni zamanda bu yardım iki xalq arasında mövcud olan tarixi, mədəni və insani bağların daha da möhkəmlənməsinə xidmət edir. Çətin günlərdə göstərilən dəstək xalqlar arasında qarşılıqlı etimadı artırır və gələcək əməkdaşlıq üçün sağlam zəmin yaradır. Düşünürəm ki, humanitar yardımların əsas mahiyyəti məhz belə məqamlarda özünü göstərir - insan həyatının, sağlamlığının və rifahının qorunması hər zaman prioritet olmalıdır. Azərbaycan bu prinsiplərə sadiq qalaraq, regionda humanitar həmrəyliyin gücləndirilməsinə töhfə verməyə davam edir”.

**Vasif ƏLİHÜSEYN**

# «Çini ən çox narahat edən Hörmüz boğazının təhlükə altında olmasıdır”

**”ABŞ prezidenti Donald Tramp bir tərəfdən Tehranın danışıqlara maraq göstərdiyini söyləyərkən, digər tərəfdən ölkəsinin yaxın 2-3 həftə ərzində İrandakı bütün hərbi hədəfləri məhv edəcəyini bildirib. Bu o deməkdir ki, müharibə hələ bir müddət də davam edəcək. Tramp son çıxışında əvvəlkilərdə olduğu kimi İranın donanması və hərbi hava qüvvələrini böyük ölçüdə məhv edildiyini vurğulasa da, məsələni hələ tam bitirmədiklərinə işarə edib”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Onun sözlərinə görə, Trampın çıxışından o da bəlli oldu ki, onun Hörmüz boğazının açılmasıyla bağlı orduya hücum əmri vermək fikri yoxdur:

”Misal üçün Ağ Ev sahibi deyib ki, ABŞ hazırda dünyada ən böyük neft və qaz istehsalçısı olduğuna görə Hörmüz boğazına ehtiyacı yoxdur və bu marşrutdan istifadə edən ölkələr təhlükəsizliyi özləri təmin etməlidir. Tramp müharibəni dayandırmaq istəyən dövlətlərin vasitəçilik təklifləri ilə bağlı heç nə deməyib. Halbuki, müxtəlif ölkələr vasitəçilik təşəbbüsləri ilə çıxış edirlər. Sonuncu dəfə belə təşəbbüslə Pakistanla Çin birlikdə çıxış ediblər. Çin və Pakistan müttəfiq olduqlarından Yaxın Şərqdəki durumla bağlı eyni mövqeyə malikdirlər. Ancaq Ağ Ev Çin xarici işlər naziri Vanq İ ilə Pakistanın xarici işlər naziri İshaq Dar arasında Pekində keçirilən danışıqlardan sonra verilən Pakistan-Çin birgə bəyanatını qulaqardına vurmuş kimi görünür. Yaxın Şərqdəki müharibə ikinci ayına qədəm qoyarkən, dünyanın enerji təchizatı ciddi böhran içində olarkən və neft qiymətləri kəskin şəkildə artırarkən, Pakistan və Çin sülhməramlı kimi prosesə müdaxilə etməyə çalışırlar".

O, bildirib ki, Çini ən çox narahat edən Hörmüz boğazının təhlükə altında olmasıdır: ”Doğrudur, İran Çinə neft daşıyan tankerlərin Hörmüz boğazından keçidinə şərait yaradıb. Buna baxmayaraq, davam edən gərginlik Çinin bölgənin enerji daşıyıcılarına çıxını məhdudlaşdırıb. Pekində hesab edirlər ki, ABŞ İrana qarşı hərbi əməliyyat vasitəsilə di-



gər rəqiblərini qorxutmağa çalışır. Misal üçün Çinin Tayvan adasını nəzarətə götürməklə bağlı planı var. Çin planının reallaşması üçün münasib zaman gözləyir. Tayvanı yalnız hərbi yolla nəzarətə götürmək mümkündür. Vaşinqton Çinin Tayvan adasını hərbi yolla nəzarətə götürməsinə seyrçi qalmayacaq. Bu səbəbdən ABŞ-ın İrana qarşı hərbi əməliyyatı həm də Çinə mesajdır ki, Pekin Tayvan adasını nəzarətə götürmək planından imtina etsin.Donald Tramp mayın ortalarında Çinə səfər etməyi planlaşdırır. ABŞ Prezidenti həmin tarixə qədər müharibəni bitirməyi planlaşdırır. Pekin də buna ümid edir. Yaxın Şərqdəki müharibələr Çin iqtisadiyyatına mənfi təsir edir. Bu müharibələr Çin ixracatçılarına problemlər yaradıb. Çinin Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Oman və İraqda müxtəlif layihələri mövcuddur. Hazırda isə bu ölkələrin hər biri ataş altındadır. İranın zəifləməsi də Çinin iqtisadi maraqlarına təsir edir. Tehran və Pekin arasında onilliklər boyu davam edən tərəfdaşlıq mövcuddur. Çin İranın aparıcı ticarət tərəfdaşıdır və İran neftinin təxminən 80%-ni alır. Digər tərəfdən müharibələr Çinin plastik istehsalından tutmuş müasir sintetik parçalar üçün xammallara, telefonlara, elektrik avtomobillərinə və yarımkeçiricilərə gedən yüzlərlə komponentə qədər bütün təchizat zəncirinə mənfi təsir edir. Buna görə də Pekin Yaxın Şərq sülh prosesində fəal rol oynamaq barədə düşünür. Problem ondadır ki, Pekin qarşısında yenə Vaşinqtonu görəcək. ABŞ Çinin Yaxın Şərqdə diplomatik fəallığını əngəlləməyə çalışacaq.İran Çinlə yanaşı Hindistana da neft daşıyan tankerlərin Hörmüz boğazından keçidinə şərait yaradıb. Ancaq Pekin kimi Yeni Dehli də müharibənin uzanmasından narahatdır. Böyük iyirmilərin (G20) 2023-cü ilin sentyabrında Yeni Dehlidə keçirilən sammitində Hindistan da daxil olmaqla Cənubi Asiyanı Yaxın Şərq üzərindən Avropa ilə birləşdirən yeni nəqliyyat dəhlizi ilə bağlı memorandum imzalanmışdı. Ancaq Yaxın Şərqdə davam edən müharibələr səbəbindən bu layihənin reallaşdırılması təxirə salınıb".

**Sübhan**

# “Azəriqaz” abonentləri soymaqda davam edir...

**Biz də bəzən xidmət sahələri xalqa xidmət etmək əvəzinə , zülm edir. Yəni onları incidir. Xalq dilində demiş olsaq haqlarına girirlər. Belə də onada heç şübhəsiz ki, haqlarına girilən tərəf inciyir və öz hüququnu tələb edir. Bax götürək elə ” Azəriqaz” ı. Bu gün bir çox abonentlər onlar sayğac ' oyun” ların” dan şikayətlənir.**

Onlar deyirlər ki, bir vaxtlar bizim mənzillərdə ” smart




-kart sayğaclar quraşdırılmışdı və hər işlərimiz də lap yaxşı idi. Sayğaca 5 manat yükləyirdik , bir ay bəs edirdi.Daha ələvə pulumuz çıxmırdı.

Elə ki,həmin sayğacları mexaniki sayğaclarla əvəzlədilər , bax , qara günlərimiz başladı. İndi hər ay biz 5 manat yerinə , işlətdiyimiz mavi yanacaq üçün 13-14 manat pul ödəyirlk. Göz görə , görə adını çəkdiyimiz xidmət sahəsi bizi aldadıb soyur.

Əksər abonentlər də bizim günümüzdədir.Belə çıxır ki, ” Azəriqaz ” nə qanundan qoxur, nə də camaatın narazılığından . Və insanların min bir əzab- əziyyətlə qazandıqları pul onların cibinə axır.Bu məsələ ilə əlaqədar aidiyyəti qurumla əlaqə yaratmaq istədik, amma telefon zənglərimizə cavab verən olmadı. Versələr də nə mənası? Yüz bəhanə gətirəcəklər. Ancaq gec- tez bu sayğac ” oyun” larına son qoyulmalı, abonentlərin hüquqları qorunmalıdır!!!

**Emil FAİQOĞLU**

*Rüstəm Hacıyev*



# Oskanyanın Moskva görüşünə "ermənicəsinə" yanaşması

**Ermənistan mediası Moskvada keçirilən Putin-Paşinyan görüşünü, elə ermənicəsinə şərh edib.**

**Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiya prezidentinə demokratiya dərsi verməsi, Ermənistanda bir sıra rusiyapərəst qüvvələrin ürəyincə olmayıb. Moskvaya bağlılığı ilə tanınan keçmiş xarici kişlər naziri Vardan Oskanyan yerli mətbuata müsahibəsində, hər iki ölkənin geniş heyyətdə keçirilən görüşünü şəhr edərkən bildirib ki, guya həmin görüşdə Rusita prezidenti Vladimir Putin çox sərt şəkildə Paşinyana və erməni xalqına messaj göndərib.**

**”Əgər diplomatik formulu kənara qoysaq, Putin Paşinyanı doğru yolla irəliləməməkdə günahlandırıb, ölkəsinə və xslqına böyük zərbə vurduğunu onun nəzərinə çatdırıb”- deyə Oskanyan müsahibəsində bəyan edib.**

**Eks xarici işlər nazirinin sözlərinə görə, iki liderin görüşündə baş verənlər, adi rəsmi görüş çərçivəsindən çıxıb. Putin Paşinyanın Avropa İttifaqı ilə münasibətlərinə toxunaraq, bunun Ermənistana həm iqtisadi, həm də təhlükəsizlik baxımından problemlər yaradacağını bildirib. Eyni zamanda bunun qarşıdan gələn parlament seçkilərinədə təsirsiz ötüşməyəcəyi ilə təhdid edib.**

**”Putin dəqiq olaraq, Ermənistanın nələri itirdiyini və nələrin itirə biləcəyini xüsusi vurğulayıb”- deyə Oskanyan bildirib.**

**Təbii ki, Paşinyan hakimiyyətinə müxalif olan Oskanyanın geniş tərkibli Moskva görüşünü bu formada şəhr etməsi, elektoratı üorxutmağa, seçkilərdə baş nazirin partiyasına səs verməkdən çəkindirməyə hesablanıb.**

**Keçmiş XİN rəhbəri, Paşinyanın kostyumunun yaxasına vurduğu Ermənistanın xəritəsinə də, irad bildirib bə qeyd edib ki, heç bir ölkənin başçısı, döşünə ölkəsinin xəritəsini asmır. Osksnyanın fikirincə, Paşinyan bununla bir daha Qarabağ məsələsinin Ermənistsn üçün birdəfəlik qapandığını açıq şəkildə nümayiş etdirir.**

# Deyirlər ki, kitab oxuyan yoxdur...

**Düzdür, bu gün 30-40 il bundan əvvəllə müqayisədə kitab oxuyanlar çox azalıb.Amma ” kitab oxuyan yoxdur” demək heç də düzgün deyil. Ona görə düzgün deyil ki, əgər kitab oxuyan yoxdursa, hər il ali məktəblərə və magistraturaya qəbul olanlar bəs kimlərdir???**



Bəlkə də bir çoxları bu fikri səsləndirəndə elmi və bədii ədəbiyyatı nəzərdə tuturlar. Hətta onu nəzərdə tutsalar belə orta və yaşlı nəslin nümayəndələri arasında kifayət qədər kitab oxuyan adamlar var. Mən dəfələrlə kitab sərgilərində və kitab mağazalarında kitab alanların şahidi olmuşam. Bəziləri bazar- dükana gedib bazarlıq edib alış- veriş etdikləri kimi, bir çox insanlar da kitab mağazalarında bunu edirlər. Özü də sevindirici haldır ki, onların arasında gənclər də olur. Bir neçə gün bundan əvvəl metro qatarlarında bir hadisənin şahidi oldum. İki tələbə qız kitab oxuyur. Gözlərin kitabdan çəkən kimi ayaqüstə dayanmış yaşlı insanları gördülər və ayağa qalxıb yerlərin həmin adamlara verdilər. Bax , kitab oxumaq bu deməkdir. Kitab oxumaq mədəniyyət, əxlaq, insanlıq, mərhəmət , sevgi deməkdir. Hansı ki, gözləri telefonun ekranında olan gənclərin çox ayaqüstə dayanmış yaşlı insanları çoxdan görürdülər. Sadəcə olaraq onları görməzliyə vurur və yer verməmk istəmirdilər. Kitab oxumaq heç vaxt gec deyil. Müqəddəs” Qurani- Kərim ” də de buyurulur ki, insan qəbir evinə qədər oxumalıdır.Bax , belə!!!

**Emil FAİQOĞLU**

# Türkiyədə də uşaqların sosial mediadan istifadəsi qadağan oluna bilər

**Türkiyədə 15 yaşdan aşağı şəxslərə sosial media qadağası ilə bağlı qanunda edilən dəyişik Türkiyə Böyük Millət Məclisinin (TBMM) aidiyyəti komissiyası tərəfindən təsdiqlənib.**

Adalet.az "TRT Haber"ə istinadən xəbər verir ki, dəyişikliyin bu həftə TBMM səviyyəsində müzakirəsi gözlənilir.

Qeyd olunub ki, yeni qaydalara əsasən, sosial şəbəkə platformaları 15 yaşını tamamlamamış şəxslərə xidmət göstərə bilməyəcək. 15 yaşı tamamlamış, lakin yetkinlik yaşına çatmamış istifadəçilər üçün isə ”ayrılmış xidmətlər” təqdim olunacaq. Bu xidmətlərin detalları və təhlükəsizlik tədbirləri dair məlumatlar platformalarda yerləşdiriləcək. Həmçinin, yeni layihə valideyn nəzarətini də məcburi edir. Sözügedən qadağanı pozanlara qarşı ciddi cəzaların da nəzərdə tutulduğu bildirilib.



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Dost gedib, özümə gələ bilmirəm...

... Yaxşı dost qardaş kimidi... Və onlar həmişə bir tikə çörəyini dörd yerə bölüblər... Mənim də bir tikə çörəyini dörd yerə bölən dostlarım olub... Özü də onlar çox olmayıb; cəmi dörd dost! Əhliman Əliyev, İlham Rəcəbov, Mahmud Qacar, Səməndər Məmmədov! Bu dostlarımın hamısı Allahın dərgahına qovuşub və onlar Azərbaycanın ən böyük ziyalısı, şairi, filosofu idilər. Onlar insan deyildilər, mələk idilər.

Tanıdığı və tanımadıqları adamların hamısına yaxşılıq eləmişdilər. Və bu yaxşılıqları onların çöhrəsinə hopmuşdu. Çöhrəsindən nur yağan dostlarımı professor, Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlının dili ilə demiş olsaq, " birbir itirdim". Sonuncu sağ dostum, qardaşım, 35 il qonşu olduğum Prezident təqaüdçüsü, şair-publisist, böyük pedaqoq Səməndər Eyvaz oğlu Məmmədovu Novruz bayramı günlərində itirdim. Düzdür, o, 72 il yaşamışdı, ancaq onun qəlbi, ürəyi çox işıqlıydı. Mən onun qədər hamıya yaxşılıq eləyən çox az adam görmüşəm. 35 il məktəb direktoru işləmişdi. Tələbkar və ciddi idi. Həmişə də işlədiyi pedaqoji kollektiv ondan razılıq eləyirdi.

Çünki direktor kimi Səməndər müəllim gözünün işığı olsa da, haqqı nahaqqa verən deyildi. Elə ona görə də məktəbdə onu hamı çox istəyirdi; çünki o, müəllimlər müəllimi idi. Çox istedadlı ziyalı kimi bir tarix yazmışdı. Onun müxtəlif yığıncaqlarda qeyri-adi çıxışları, bal kimi söhbətləri dinləyənləri heyran edirdi. Professor Məhərrəm Qasımlı deyir ki, bir tədbirdə Səməndər Məmmədov necə gözəl çıxış etdisə, hamının xoşuna gəldi və bir məşhur iş adamı paketdə ona 2 min manat hədiyyə etdi. Amma Səməndər müəllim hədiyyəni götürmək istəmirdi və iş adamının dəfələrlə təkidlərindən sonra hədiyyəni qəbul elədi...

Səməndər Məmmədov Xalq şairi Zəlimxan Yaqubla çox yaxın dost idi. Zəlimxan Yaqub deyirdi ki, Səməndər Məmmədov Zəlimxanın gəzər kitabxanasıdır, məni oxuya bilməsəniz Səməndəri dinləyin! Bu sözlərdə böyük həqiqət var. Çünki Səməndər qardaşımız Zəlimxan Yaqubdan sonra klassik və çağdaş Azərbaycan şairlərinin şeirlərini əzbər bilən ikinci böyük istedad sahibi idi. Hansı şairdən desəydin, bir saat həmin şairin şerlərini əzbər deyərdi...

O, dünyasını dəyişəndə də, dəfn olunanda da, günəş özü onu son mənzilə yola saldı. Hansı ki, bir gün əvvəl Bakını leysan yağışın suları yaman və keçilməz günə qoymuşdu. O gün işığı Allahın sevdiyi bəndəsinə son hədiyyəsiydi və onu da Səməndər müəllimə bəxş edirdi. Allah öz sevdiyi bəndələrini qoruyur və bir gözəl gündə də öz dərgahına aparır. Səməndər qardaşımızı da belə bir günəşli gündə apardı. Yeri Cənnət olsun!!!

Səməndər Məmmədov Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) filologiya fakültəsini bitirmişdi. O, təyinatla üç il Lerik rayonunun Vistən kəndində müəllim işləmişdi. Orda dünya boyda hörmət qazanmısdı. Və ömrünün son günlərinə qədər o yurdun insanları, ziyalıları ilə əlaqə saxlayırdı, hətta onların toy məclislərində iştirak edirdi. Çünki Səməndər müəllim kəsdiyi duz-çörəyə sədaqətli ziyalı idi. Mən onun kimi ailəsinə, dostuna, qonşusuna, bir sözlə, salam verdiyi hər insana sədaqətli adam çox az görmüşəm...

Universitetdə təhsil aldığı illərdə Azərbaycanın böyük müəllimlərindən, ziyalılarından, alimlərindən - Mir Cəlal Paşayevdən, Bəxtiyar Vahabzadədən, Tofiq Hacıyevdən, Əkbər Ağayevdən, Şamil Qurbanovdan, Qulu Xəlilovdan, Firudin Hüseynovdan, Fərhad Zeynalovdan, Kamil Vəliyevdən çox şeylər öyrənmişdi. Və daha doğrusu, Səməndər Məmmədov öz müəllimlərinə - bu böyük ziyalılara oxşayırdı. Onlar kimi işıqlı... Onlar kimi böyük ürək sahibi... Onlar kimi ədalətli... Onlar kimi vətənpərvər... Müəllimi, Xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığına sonsuz sevgisi vardı, bəzən saatlarla ondan şeir söyləyər, amma yorulmazdı, əksinə ləzzət alardı, çöhrəsində nur yanardı. Sevimli müəllimi, sabiq millət vəkili, professor Şamil Qurbanovu anım və doğum günündə xatırlayar, qəzetlərdə yazı dərc etdirər və məzarını ziyarət edərdi. Bunu hər tələbə yox, amma Səməndər müəllim edərdi...



Öz kəndi, eli ilə bağlı sanballı kitablar ərsəyə gətirmişdi. Təkcə bir neçə hissədən ibarət "Faxralılar" kitabı nəyə desən dəyər. Kitabda bu kənddən çıxmış dünya şöhrətli ziyalılar, musiqiçilər, müəllimlər, iqtisadçılar, siyasətçilər, idmançılar, alimlər haqqında məlumatlar Azərbaycan oxucusuna çatdırılıb. Bu işləri görmək, bu işləri kitab kimi oxuculara təqdim etmək elə də asan deyil. Səməndər müəllim bu işləri görmək üçün gözünün nurunu, illərini, aylarını öz elinə qurban verib. Və nəinki Faxralının, Borçalının, Azərbaycanın tarixinə düşüb...

Mən yazını qələmə alanda bu böyük ziyalının Allahın dərgahına qovuşmasından yeddi gün keçir... Və yeddi gündür ki, Səməndərsiz yaşayırıq... Ailəsi, doğmaları, dostları üçün Səməndərsiz günlər çox çətindir! Və eləcə də mənim üçün...

Səməndər Məmmədov kimi dostu itirən adam necə olar?! Bax mən də eləyəm; çünki dostum əbədi gedib, tək qalmışam və gözüm həmişə onu axtarır. Həyətdə dayanmış maşınını görəndə ürəyim para-para olur. Amma bu maşının sükanı arxasında oğlu Ramili görəndə bir qədər təsəlli tapıram. Bu təsəllini həm də böyük oğlu Turalda, nəvələrində tapıram. Çünki onlar Səməndər müəllimə oxşayır. Xəstə olanda tez-tez ziyarət edirdim. Və həmişə də bir yerdə oturub çörək yeyəndə, çay içəndə hesabı mənim xəbərim olmadan müəllim verirdi.

Ziyarət edəndə dedim ki, müəllim, Allah qoysa sağal, qalx ayağa, bu dəfə qonaqlığı özüm verəcəm. Bu sözlərimdən çöhrəsi güldü və dedi ki, Allah qoysa!!! Mən o qonaqlığı verə bilmədim, zalım ölüm buna imkan vermədi.

Səməndər Məmmədovun ölümünə hələ də inanmıram və bizim qəlbimizə köçüb. Hər gün xatırlanan, hər gün yada düşən, hər gün sevilən belə böyük müəllimlər müəllimi, belə böyük ziyalı və böyük işıqlı adam, Allaha and olsun ki, heç vaxt ölə bilməz ey!!!

## Yeni Günəşlidə yolun bir hissəsi düzəldilib...



Yeni Günəşlidə avtomobil yolları çox bərbad vəziyyətdədir. Bu da bir çox halda yol-nəqliyyat hadisələrinin baş verməsi üçün münbit şərait yaradır. Üstəlik də bəzi küçələrdə səkilər yoxdur. Belə də olanda piyadalar yolun hərəkət hissəsi ilə gedirlər və onların həyatları üçün böyük təhlükə yaranır.

Təbii ki, belə olanda piyadavurma halları da qaçılmazdır. Nə isə... Bir neçə gün bundan əvvəl Yeni Günəşlidə " Qartal" abidəsinin yanından " Şir" abidəsinə qədər olan avtomobil yolunda əsaslı təmir işləri aparılaraq yeni asvalt örtük salındı. Özü də bu işlər görülərkən həmin istiqamətdə avtomobil axınında tıxaclar yarandı. Belə vəziyyətdə çox vaxt yol polisi nəqliyyat vasitələrinin hərəkətini tənzimləyir.

Təəssüf ki, bu dəfə Suraxanı Rayonu Yol Polisi Şöbəsinin əməkdaşları gözə dəymədilər.Sürücülər həmin günləri çox əziyyət çəkdilər. Axır ki, 10 günlük təmir işlərindən sonra avtomobil yolu istismara verildi. Lap gözəl! Amma Kərpic zavoduna gedən və eləcə də " Ballı" marketin qabağından keçən yollar da yaxşı deyil.Yeni adını çəkdiyimiz yolların da əsaslı təmirə ehtiyac var.Bu vəzifəni isə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyin icra edir.Biz də təmirə ehtiyacı olan ünvanı göstərdik.İndi qalır aidiyyəti qurumun bu işi həyata keçirməyinə! İnşallah gözləyək görək nə olur???

## Yazda bir çox xəstəliklər yenidən oyanır...

Yaz və payız fəsillərində bir çox xəstəliklər yenidən baş qaldırır.Xüsusilə də allergiya dücar olanlar bu fəsillərdə özlərinə daha çox narahat edirlər.Adi bir çiçək tozu onların səhhətinə mənfi təsir edir.Ümumiyyətlə, bir çox xəstəliklər var ki, onlar havalar dəyişəndə yenidən insanları narahat edir.Təbii ki, bəzi xroniki xəstəliklərdə bu qəbildəndir.

Bəs həmin pasiyentlər nə etməlidir və özlərini necə qorunmalıdır! Həkim- allerqoloq Mədinə Nəsibova deyir ki, belə xəstələr bir



qayda olaraq həkimə müraciət etməli, müayinə olunmalı, yaz və payız fəsillərində müalicə olunmalıdır. Bir faktı oxucuların diqqətinə çatdırım ki, bütün xroniki xəstələrdə məhz bu fəsillərdə daha çox ağrı- acı, narahatlıq olur. Bizi hər mövsüm pasiyentlərimizi maarifləndiririk, amma təəssüflə qeyd etməliyik ki,bəzi xəstələr bizim tövsiyəmizə əməl eləmir, səhhətləri ağırlaşanda bizim yanımıza gəlirlər.

Təbii ki, onda da pasiyentləri müalicə etmək, sağaltmaq bir qədər çətin olur! Bax eyni zamanda mədə- bağırsaq xəstəliklərindən əziyyət çəkənlər də öz səhhətləri ilə ciddi maraqlanmalıdır. Bir sözlə,sağlam olmaq istəyirsinizsə, mütləq ən azından ildə bir dəfə müayinədən keçin.Bütün insanlara cansağlığı və xoşbəxtlik arzulayıram!!!

## Hər il minlərlə tələbə müəllim ixtisasına yiyələnir

Elə ixtisaslar var , məzunlar ali məktəbi bitirəndən sonra iş tapa bilmirlər. Və iş tapmaq da sözün həqiqi mənasında bu gün çox çətindir! Xüsusilə də müəllimlik peşəsində . Bunun da bir çox obyektiv və subyektiv səbəbləri var. İlk növbədə tələbə dörd il oxuyur, amma onu heç bir qurum işlə təmin etmir. Deyirlər ki, get, Dövlət İmtahan Mərkəzinin yeni sınağından keç.Müəllim peşəsini seçənlər Elm və Təhsil Nazirliyinin imtahanın dan keçməlidir. Bu imtahandan keçənlər az olmur. Keçənlər sevinirlər və ikinci bir mərhələni adlamaq üçün yenidən müsahibədən , yəni söhbətdən adlamalıdırlar.

Bu isə işədüzələnin yenidən incidilməsi deməkdir. Əgər hər hansı ali məktəbi bitirmiş gənc əsas imtahandan keçibsə, müsahibəyə, söhbətə nə ehtiyac? Görünür, bu üsul onlar işə götürməmək üçün bir bəhanədir! Əgər müəllim kimi bütün məzunlar işə düzələ bilmirsə, onda qəbul imtahanları zamanı ali məktəblər çoxlu sayda yer ayrılmasına elə bir ehtiyac varmı? Bax bu suala ali məktəblərə müəllim ixtisası üzrə yer ayıran qurumlar düşünməlidir.



Respublikamızda ali məktəbi bitirib , həmin ildə müəllim işləyənlərin sayı heç yüzlərlə ölçülmür. Minlərlə məzun müəllim ixtisasını bitirir, amma yüz, iki yüz məzun min bir çətinliklə işə düzələ bilir. Bir soruşan yoxdur ki, ali məktəbi bitirmiş minlərlə məzun işsizdir,bəs növbəti qəbulda yenidən çoxlu sayda müəllimlik ixtisası üzərə tələbə qəbuluna nə ehtiyac var? Məhz məsələnin də qaranlıq tərəfi budur. Qaranlıq tərəfə kim işıq salacaq bax o, bilinmir???

## Həkimlər deyir ki...



Bu gün çox adamın yolu xəstəxanaya, həkimə yolu düşür. Biz heç kimin xəstələnməsini istəməzdik. Amma bu, heç də bizim istəyimizdən asılı deyil! Yəni istəyib-istəməməyimizdən asılı olmayaraq yolumuz həkimə düşür.

Çox təəssüf ki, biz də həkimlərin məsləhətinə və tövsiyələrinə bəzən əməl eləmirik. Məsələn , həkimlər deyir ki, dərmanları vaxtında qəbul elə, pəhriz saxla, amma xəstə olaraq da , buna əməl etmirik. Həkim bildirir ki, xəstəsən siqaret çəkmə , spirtli içki içmə ziyandır. Ancaq yenə buna əhəmiyyət vermirik.

Bir dostum deyir ki, Türkiyə müayinə və müalicə getmişdim bütün həkimlər bu sözləri dedilər:" Hər gün sürətlə yeri!" Soruşdum niyə? Cavab verdilər ki, bütün xəstəliklərin müalicəsi sürətlə yeriməkdir! Sürətlə yerimək ürək-damar, diabet, prostat, varikoz, qara ciyər, beyin xəstəliklərinin təbii dərmanıdır.

Əfsuslar olsun ki, bizim millət , içi mən qarşıq bu, deyilənlərə əməl eləmirik.Və ona görə də adını çəkdiyim xəstəlikdən əziyyət çəkirik! Biz öz sağlamlığımızı qorumaq istəyiriksə, birmənalı olaraq həkimlərin tövsiyələrinə diqqət yetirməliyik!!! Onda həyat və yaşamaq nə gözəl olar!!!

Emil
FAİQOĞLU





**Vaqif YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# "100 İLİN İMZASI"

**Ömrüm uzunu ən böyük arzularımdan biri Ulu Öndər Heydər Əliyevi görmək, bir möcüzə belə olsa, onun qarşısında öz ürək sözlərimi söyləmək olub. XX əsrin dünya tarixində şərəfli bir yer tutan bu dahi insan mənim üçün ilk növbədə böyük Azərbaycanın simvolu, rəmzi olan ŞƏXSİYYƏT idi.Mən bu arzuma 1997-ci ildə çatdım.**

Azərbaycan yazıçılarının X qurultayından bir gün öncə, oktyabr ayının sonuncu günündə Ulu Öndərin ədəbi gəncliyin nümayəndələri ilə görüşü oldu. Ədəbi gənclik və onların problemləri ilə bağlı bir sıra məqalələrlə mətbuatda çıxış etdiyimə görə Mədəniyyət nazirliyi və Yazıçılar Birliyi mənə tapşırmışdılar ki, Ulu Öndərin qarşısında bu mövzuda məruzə edim. Yəni müasir ədəbi gənclik və onların yaradıcılığı barədə fikir söyləyim. Ulu Öndər çox mənalı bir giriş sözü söylədi, sonra Anar müəllim sözü mənə verdi.

Ömrümün ən həyəcanlı çağı başladı. Hiss elədim ki, Ulu Öndər diqqətlə mənə qulaq asır. Arada mənə suallar da verdi. Və çıxışımın sonunda ondan tərif də eşitdim. Bu, mənim həyatımda ən böyük unudulmaz bir gün idi. 2003-cü ildə "Azərbaycan" jurnalının səksən illiyi münasibətilə Ulu Öndərin imzası ilə təltif olunanlar arasında mən də var idim-"Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görüldüm.

Müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli liderimiz Heydər Əliyevin həyatı, onun çoxillik ictimai-siyasi və dövlətçilik fəaliyyəti, Şəxsiyyəti barədə çoxlu əsərlər yazılıb.Dünyanın tanınmış liderləri, sənət adamları, alimlər, şairlər Heydər Əliyevin qeyri-adi şəxsiyyətinə hörmət və ehtiramla elə fikirlər söyləmişlər ki, bunları oxuyanda böyük qürur hissi keçirirsən. Ancaq mən bunların heç birini yada salmaq istəmirəm, Yalnız böyük qazax yazıçısı Oljes Süleymenovun bir fikrini xatırlamaq istəyirəm: "Heydər Əliyev dahi şəxsiyyətdir, dahilər isə az-az doğulurlar".

Şair-publisist Gülşən Behbud Ulu Öndərin anadan olmasının 100-cü ilində-Heydər Əliyev ilində "100 ilin imzası" adlı çox maraqlı bir kitab nəşr etdirib. Üstündən ü çilə yaxın bir vaxt keçib, amma bu kitab mənim fikrimcə, son illərdə Heydər Əliyev haqqında yazılan kitablar sırasında xüsusilə seçilir.

Kitabda Heydər Əliyevin canlı və canlı olduğu qədər də parlaq obrazı yaradılmışdır. O, elə bir şəxsiyyət idi ki, bu şəxsiyyəti yalnız bir aspektdə izləmək qeyri-mümkündür. Çünki Heydər Əliyev şəxsiyyətində həm siyasət aləminin dünyaca məhşur olan bir korifeyi, həm öz xalqının əsrlərdən bəri ən gözəl keyfiyyətlərini özündə əks etdirən və "Mən fəxr edirəm ki, azərbaycanlıyam" deyən bir millət babası, həm yaradıcı, qurucu rəhbər kimi fəaliyyəti- müstəqil Azərbaycan ideyasını gerçəkləşdirən liderliyi, həm də bir Ustad kimi siyasətdə də, diplomatiyada da, azərbaycançılığında da özündən sonra ənənə yaratması bütün bunlar onun şəxsiyyətinin bir-birindən ayrılmaz hissələridir.

Gülşən Behmud ilk növbədə Heydər Əliyevi əsrin siyasətçisi kimi təqdim edir: "Heydər Əliyev dünyanın nadir, unikal, seçilən siyasət adamı idi. O, dünya siyasətinə təsir etmək gücündə olan lider idi. Heydər Əliyev böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətli sözünü deyə bilən nadir siyasətçi idi. O, dünyanın bütün ölkələri və onların rəhbərləri ilə, hətta məkrli düşmənlərimizlə də "sülh dili" ilə danışmağı bacarırdı. Ulu öndərimizin ən ali insani keyfiyyətləri, fenomen xarakteri, insanlarla dil tapmaq bacarığı, hərəni öz dilində danışdırmaq məharəti onu tanıyanların sevimlisinə çevirirdi. Hər dövlət xadiminə xas olmayan üstünlüklər ulu Taerının Heydər Əliyevə verdiyiən ali keyfiyyətlər idi".

Təbii ki, müəllif Heydər Əliyevin siyasət aləmində uğurlarını qeyd edərkən ilk növbədə, onu Azərbaycanın yeni tarixinin yaradıcısı və qurucusu kimi nəzərə çarpdırır. 1969-cu ilin 14 iyulunda Azərbaycanda siyasi hakimiyyətə gəldiyi gün tariximizdə yeni bir mərhələnin başlanğığı qoyulur. Birinci hakimiyyət dövrü SSRİ-nin çox davamlı, amma getdikcə dağılmağa doğru baş aldığı illərə təsadüf edir. Heydər Əliyev bu dönəmdə Azərbaycanı geridə qalmış bir respublikadan irəliyə doğru apardı, milli özünüdərki qüvvətləndirdi. Azərbaycan bütün sahələrdə inkişaf yollarını keçərək qabaqcıl respublikaya çevrildi. O, Siyasi Bürosu üzvlüyündə də öz siyasi manerasını dəyişmədi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi təkcə Sovetlər İttifaqında deyil, beynəlxalq aləmdə də böyük nüfuz qazandı.Lakin təbii ki, belə bir liderinbelə bir siyasətçinin Kremldə çoxlarını təşvişə saldı və Heydər Əliyev bir müddət siyasətdən uzaqlaşdı. Amma TARİX və ZAMAN belə bir lideri, belə bir siyasət xadimini itirə bilməzdi. Çünki "Siyasi hakimiyyət məngənəsində sıxılan Azərbaycana rəhbərlik etiək məsuliyyətini yalnız Heydər Əliyev öz üzərinə götürə bilərdi". Azərbaycanın 90-cı illər ictimai-siyasi mənzərəsi bizim hamımızı düşündürürdü, fikirləşirdik ki, Azərbaycan düşdüyü bu bəlalardan necə xilas ola bilər?

"Bu dövrdə dünyanın diqqət mərkəzi Azərbaycana yönəlmişdi. Bir-birinin ardınca baş verən ağır siyasi proseslər, millətçi seperatçılıq Azərbaycanın dövlətçiliyini sarsıtmış, onun müstəqilliyini və azadlığını təhlükə altına almışdı. Belə çıxılmaz siyasi vəziyyətdə bütün bu çətinlikləri yaşadıqdan sonra birmənalı şəkildə dərk etdi ki, hər yetəndən lider ola bilməz".

Doğrudan da, Heydər Əliyevin Azərbaycana qayıdışı müstəqillik, iqtisadi yüksəliş, elmi tərəqqi dövrü, beynəlxalq aləmdə ölkənin nüfuzunun vartması kimi tarixə yazıldı. Və Heydər Əliyev "Əməlləri, addımları ilə tarixləşən ..şəxsiyyətə" çevrildi.

Heydər Əliyevlə başlanan Müstəqillik və İqtisadi Yüksəliş dövrü zaman etibarilə yeni bir mərhələyə qədəm qoydu. Dahi şəxsiyyətlərin əksəriyyəti özlərinin varisi olmadan dünyadan köçürlər, lakin Heydər Əliyev dövlətçilik və siyasət məktəbini keçmiş İlham Əliyev Azərbaycan respublikasının prezidenti kimi bu iyirmi üç ildə ona olan etimadı tamamilə dobrultdu. İlham Əliyev Ali Baş Komandan kimi Azərbaycan xalqının şanlı qələbəsini təımin etdi, ordumuzun və xalqımızın vəhdəti bunu sübut elədi ki, Azərbaycan xalqı heç vaxt məğlubiyyətlə barışmayacaq, öz qələbəsini döyüş meydanlarında əldə edəcək. İlham Əliyev Azərbaycanın XXI əsrdəki liderinə çevrildi: "Prezident İlham Əliyevin fəaliyyəti nəhəng beynəlxalq iqtisadi layihələrdən tutmuş böyük diplomatik qərarların, bəyənatların qəbul olunmasına qədər şəxsiyyət idi"öz təsirini göstərdi. Bu gün Azərbaycanın zirvələrə doğru addımladığını nəinki xalqımız, bütün beynəlxalq aləm görür Azərbaycan bu gün təkcə Cənub Qafqazda deyil, Avropanın tolerantlıq, sülh və inkişaf mərkəzlərindən biri kimi tanınır".

Gülşən Behbud Heydər Əliyevin canlı, unudulmayan obrazını yaratmağa səy etmiş və tərəddüdsüz deyə bilərik ki, buna nail ola bilmişdir. Xüsusilə "Heydər Əliyev heyrətləndirməyi bacaran şəxsiyyət idi" yazıçında. Gəlin, həmin yazıdan bu sətirlərə diqqət yetirək: "Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. "Azərbaycan xalqı xoşbəxtdir ki, ona Heydər Əliyev kimi müdrik siyasi xadim rəhbərlik edib.." Bu sözlər dünyanın bir sıra dövlət başçılarının dilindən dəfələrlə səslənib. Bu, bir həqiqətdir. Məhz bu dahi insanın səyi nəticəsində Azərbaycan dönməz müstəqilliyə, inkişafa, tərəqqiyə qədəm qoydu".

"100 ilin imzası" kitabında Gülşən Behbud Ulu Öndərlə, onun şəxsiyyəti və dövlət rəhbəri kimi fəaliyyəti, həmçinin yaradıcı, qurucu insan olaraq şəxsi keyfiyyətləri ilə əlaqədar Azərbaycanın tanınmış ziyalılarından müsahibələri də maraq doğurur. O ziyalıların hər biri Heydər Əliyevin hər iki hakimiyyəti dövründə təkcə müşahidəçi qismində deyil, həm də onun siyasətini dəstəkləyən insanlar kimi çıxış edirlər. Akademik Nizami Cəfərov etiraf ejir ki: "Heydər




Əliyev AKtatürk məpkəzi yarananda məni qəbul etdi, əmrimi verib, fəaliyyətimiz üçün də gözəl bir bina verdi. Ədəbiyyatdan, tarixdən, xalqımızın gələcəyindən, görülməyi vacib olan işlərlə bağlı maraqlı və unudulmayan söhbətlər etdi. Mənim üçün Heydər Əliyevin söhbətləri eşitdiyim elmi, ictimai, siyasi, ideoloji mühazirələrin ən mükəmməli idi" Daha sonra Nizami Cəfərov Heydər Əliyevin yaratdığı Atatürk mərkəzinin fəaliyyətindən söz açır. Bu mərkəzin başlıca proqramı Türk dünyasında Atatürkün ideyalarını təbliğ etmək və türkçülüyü inkişaf etdirmək idi, elmi mərkəz bu sahədə xeyli səmərəli işlər görüb. Başqa bir tanınmış ziyalı, tarix üzrə fəlsəfə doktoru, professor Cəbi Bəhrəmov Heydər Əliyevin Azərbaygan tarix elmində müstəsna xidmətlərindən söz açır. Yazır: !Heydər Əliyev milli tariximizə çox böyük diqqət göstərirdi. O, Bakı Dövlət Universitetinin Tarix fakültəsində təhsil alıb, Azərbaycan tarixinin bütün məqamlarını çox gözəl bilirdi. Tarixi abidələrimizin qorunması üçün çox mühüm qərarlar qəbul etmişdi. Heydər Əliyev 1972-ci ildə çoxcildlik Azərbaycan tarixinin yazılması üçün mühüm qərar qəbul edi" Cəbi müəllimin müsahibəsində Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qətiyyətli çıxışları haqqında da söz açır. 1996-cı ildə ATƏT-in zirvə konfransında ermənilərin və onların himayədarlarının apardığı təbliğat nəticəsində Azərbaycan respublikasının ərazi bütövlüyü müzakirə olunarkən hətta səsverməyə qoyulmamışdı. Heydər Əliyev buna rvzılıq verə bilməzdi. Heydər Əliyev ATƏT-in yekun sənədinə razılıq verməmək haqqında qərar qəbul edir. Ulu Öndər azərbaycanlıların ən ağır məsələsi olan soyqırımı ilə bağlı qərar qəbul edir.

Yazıçı-publisist, millət vəkili Aqil Abbasın müsahibəsində də Heydər Əliyevlə bağlı maraqlı məqamlar diqqəti cəlb edir. Ulu Öndərin Azərbaycan mədəniyyəti və ədəbiyyatı ilə müntəzəm maraqlanması xüsusi qeyd olunur. " "Heydər Əliyev öz millətsevərliyinrp, uzaqgörən siyasətini Şuşada Vaqifin məqbərəsinin ucaldılmasında göstərirdi. Hər il Şuşada Vaqif poeziya günləri keçirməsi, ölkə elitasının Şuşaya toplaşması, dünyaya göstərilməsi, təbliğ olunması o zaman üçün böyük addımlar idi". Aqil Abbasın sözlərinə əlavə edib deyə bilərik ki, Heydər Əliyevin çoxcəhətli fəaliyyətində mədəniyyət məsələləri xüsusi yer tuturdu. Onun hər iki hakimiyyəti dövründə Azərbaycan mədəniyyəti özünün intibah mərhələsini yaşayırdı. O, bədii ədəbiyyatın, teatr sənətinin, rəssamlığın, memarlığın, kinonun bütün problemlərinə münasibət bildirir, mədəniyyət xadimlərinin qiymətləndirilməsində səyini əsirgəmirdi. Süleyman Rüstəm, Süleyman Rəhimov, Qara Qarayev, Rəşid Behbudov, Niyazi kimi sənətkarlar SSRİ-nin ən yüksək mükafatına - Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görüldülər. Onun Bəxtiyar Vahabzadəyə, Yusif Səmədoğluya, Məmməd Araza, Qabilə, Anara, Elçinə - onların yaradıcılığına yüksək qiymət verməsini yaxşı xatırlayırıq.

Heydər Əliyev Naxçıvanda doğulub, onun bu diyara məhəbbəti ayrıca bir söhbətin mövzusudur, bu haqda bir sıra yazılar da qələmə alınıb. Gülşən xanım tarixçi-politoloq Dünyamalı Pənahovla müsahibəsini də Heydər Əliyev və Naxçıvan mövzusunda aparır. Heydər Əliyevin Azərbaycana qayıdışı Naxçıvanla başladı, o, Naxçıvan Ali Məclisinin sədri seçildi dpqqətli Dünyamalı Pənahov Heydər Əliyevin tapşırığı ilə Ali Məclisdə-xarici işlər şöbəsində baş referent və müdir əvəzi kimi çalışır. Və bu böyük insanı, onun Ali Məclis sədri kimi yorulmaz fəaliyyətini, qibtəediləsi işgüzarlığını öz gözləriylə görən Dünyamalı Pənahov söyləyir: "Ali Məclisdə sessiyalar keçirilirdi. Heydər Əliyev çıxışlar edirdi. Sonra o çıxışlar yazılırdı, sənədləşdirilirdi. Təqdim edilirdi Heydər Əliyevə qol çəkmək üçün. Bir dəfə yenə çıxışlar oldu, yazıldı və təqdim edildi. O qədər diqqətli və dəqiq insan idi ki, bir cümlədə olan dəyişikliyi belə görür, həmən dəyişdirilirdi. Bu cümləni mən elə yox, belə demişəm, deyirdi. Çıxışları bir saat, iki saat çəkirdi. Azərbayc dilində etdiyi çıxışı rus dilində də edirdi, elə danışırdı ki, elə bil kağızdan oxuyur, bir nöqtəsi, vergülü belə əskik gəlməzdi".

"100 İin imzası" kitabında bir bölmə belə adlanır: "Milli sərvətimiz-Heydər Əliyev". Bu bölmədə Gülşən Behbud səkkiz tanınmış Azərbaycan qadınının Ulu Öndərə sevgilərini izhar edən məqaləleri ilə bizi tanış edir. Heydər Əliyevin Azərbaycan qadınlarına - onların zərif, incə aləminə, hər sahədə göstərdikləri yüksək nailiyyətlərə dəyər verməsinə dair onlarla, yüzlərlə misallar gətirmək olar. Onun böyük şəxsiyyət, əvəzedilməz insan, siyasi dider kimi özünəməxsus xüsusiyyətləri Zenfira Ağayevanın, Zəhra Muradovanın, Bahar Qasımovanın, Xuraman Muradovanın, Mahirə Əsədovanın, Vəfa Abbasovanın, Gülnarə Şahmur "dovanın, Könül Mikayılovanın ürək sözlərində çox gözəl ifadə olunub. Gülşən Behbudun Heydər Əliyevə həsr etdiyi "100 ilin imzası" kitabı haqqında bu yazını elə müəllifin "Böyük şəxsiyyət" adlı şeirindən bir parça ilə bitirirəm:

***Bu doğma Azərbaycan,***
***Ulumuz - Heydər deyir!***
***O, hökmüylə, əqliylə***
***Xarüqələr yaratdı.***
***Azərbaycan adını***
***Yer üzünə tanıtdı!***
***Olum - ölüm anında***
***Dayaq durdu xalq ona.***
***O da verdi ömrünü,***
***Əbədilik xalqına.***
***Adında var bir qürur,***
***Zəhmətində var hünər,***
***Bu millət fəxr eləyir***
***Adınla, ulu Heydər!***



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# ƏDALƏTSİZLİYİN AT OYNATDIĞI DÜNYA

Gəlin etiraf edək ki, həmişə, son zamanlarda isə az qala hər an biz dünyanı qınayırıq. Onu etibarsızlıqda, gəlimli-gedimli olmaqda suçlayırıq, hətta bəzən emosiyalara uyub elə ifadələr işlədirik ki, sonra fərqinə varanda adamın dünyaya da yazığı gəlir, özünə də. Belə məqamda mən daha çox bir atalar sözünü xatırlayıram. Atalar deyib ki, "Ulağa gücü çatmayan palanı döyür". İndi özümüz özümüzlə bacara bilməyəndə üz tuturuq dünyaya. Başlayırıq onu sağdan, soldan vurmağa. Bunu təkcə adi bəndələr yox, bunu dünyaya meydan oxuyan fatehlər də, söz sərkərdələri də, sinəsi sazlı aşıqlar da, əli qələmli ən adi yazar da edir. Hətta bu yerdə yadıma böyük Səməd Vurğunun misraları düşür.

Xalq şairi yazırdı ki:

*Göylərə baxıram qapısı bağlı,*
*Yerlərə baxıram bağçalı-bağlı.*
*Həyat ixtiyari, sirli, soraqlı -*
*Biz gəldi-gedərik, sən yaşa dünya!*

Və yaxud böyük Məmməd Araz yazırdı:

*Dünya sənin, dünya mənim,*
*Dünya heç kimin.*

Bu sıranı kifayət qədər uzatmaq olar, davam etdirmək olar və bu davam edən sırada bir məntiqi məqam da var. Onu da yenə böyük Məmməd Araz deyib:

*Məni qınayanın beləsi belə,*
*Mən belə dünyanın nəyindən küsüm.*

Hə, indi bacarırsan küs və yaxud indi bacarırsan yaşa. Hər iki halda seçim ixtiyarı səndə. Mənsə başladığım bu fikir yumağını tərsinə çözürəm. İstəyirəm ki, əvvələ qayıdım. O günə ki, onda dünyaya "Ədalət" gəlirdi. Onda iyul ayının 26-sı idi. İl isə təqvimdə 1990-ı göstərirdi. İndi hesablayın, görün ədalət neçə ildi yol gəlib və bu neçə ildə nə qədər yüksəlib, nə qədər yayılıb, nə qədər qolqanad atıb. Cərgəsində kimlər olub, kimlər gedib, kimlər köçüb, kimlər hələ də cərgədədi. Bu adi riyazi hesablamadı. Amma bu riyaziyyatda ömür ifadə olunub. Ona görə də xeyir-duası haqdan, adı Allahdan, sözü Tanrıdan olan "Ədalət" bütün çətinliklərin, bütün süni və həyati problemləri aşıb 2021-ci ilin bu gününə gəlib çıxıbdı. Və qəzetin öz dili ilə desək, hələ də "Ədalət" çıxır, hələ də "Ədalət"in təsisçisi, millət vəkili, yazıçı-publisist Aqil Abbasdır və hələ də mənim bu qəzetdə fikirlərimi bölüşmək, duyğularımı sərgiləmək, oxucularımla baş-başa qalmaq imkanım saxlanır...

Dünyanın bax belə qəribəliklərinin içərisində 31 il yol gəlmək və bu yolun da sevincini, kədərini, bütünlüyünü özünə köçürtmək, köçürtdüyünü də tarixləşdirib gələcək illərə daşımaq xoş olduğu qədər də şərəflidi. Bu mənada "Ədalət" şərəfli bir yol keçib və yoluna da davam edir. Elə bu davam edən yolda hər bir əməkdaş kimi mənim də iynə ucu boyda da olsa, izim, sözüm görünür, yaşayır. Görünən və yaşanan sözün ünvanı olan Ədalətdə görünmək və yaşamaq da bir xoşbəxtlikdi. Necə deyərlər, şükür xoşbəxtliyimə. Çünki Ədalət mənə dərd ortağı olub. Onunla bütün duyğularımı bölüşmüşəm. Hətta üzümü ona tutub demişəm ki:

*Qayğılı çəkdiyim, dərdli çəkdiyim,*
*Bu boyda Bakıda dərddi çəkdiyim!..*
*Mənim azadlıqda şərti çəkdiyim -*
*Cəzanın adını çəkənlər bilər.*

Hətta onda öncə bu qəzetin səhifələrindən hər kəsə üz tutaraq pıçıldamışam:

*Yandı evim-eşiyim,*
*Yandı divarım, daşım...*
*İsit, qoyma üşüyüm -*
*İsit məni göz yaşım...*

Ədalət mənə həm də olmuşların və olacaqların şahidi kimi sirr ünvanı olub. Bir kadına yazdıqlarımı öncə özü oxuyub, sonra tirajlayıb. Elə bu gün də yazdıqlarını sətir-sətir, cümlə-cümlə bükub özünə aparır oxucu qapısına, oxucu ünvanına. Çatdırır onlara duyğuların ifadəsini.

Deməli, Ədalət həm də məni tanıdır, təqdim edir. Bax, bütün bu dediklərimin fonunda 31 yaşlı Ədalətin mənim üçün nə, kim olduğunu siz özünüz təxmin edin, mən bildiyimi bilirəm!..

Yazının bu nöqtəsinə qədər söylədiklərimi, sizinlə bölüşdüklərimi oxuyub zənnimcə, ədalət barəsində iki yol ayrıcında dayandınız. Birinci düşündünüz ki, axı bu dünyada ədalət yoxdur?! İkinci də 31 ildir oxuduğunuz Ədalətin simasında sizi razı salan və salmayan, sizin səsinizə səs verən və verməyən ədaləti düşündünüz. Son olaraq isə kimsə susdu, kimsə başını buladı, kimsə də şükür bu günə dedi. Bax, elə yol ayrıcında sizin çıxara bilmədiyiniz son qərar "Ədalət"in də axtardığıdı, "Ədalət"in də sorağında olduğudu. Deməli, sizli, bizli "Ədalət" olaraq ədalət axtarırıq. İnşallah, taparıq bir gün!

***

Tez-tez eşitdiyim bir söz var. Bu sözü də dostlar həmişə mənə ünvanlayırlar. Xəyalpərvərliyimi, sabahkı günlərə daha çox güvəndiyimi bağışlamırlar mənə. Bəzən birbaşa, bəzən sözarası deyirlər mənə ki, bir saat sonra nə baş verəcəyini heç kim bilə bilməz. Ona görə zamanın özünün yaxasından dərd tutmaq, zamanın özü ilə haqq-hesab çəkmək, qərar qəbul edib addım atmaq lazımdır. Sabahla bağlı isə sabah düşünüb, sabah danışarıq. Təbii ki, mən bununla razılaşmıram. Bu, hardasa bir ümidsizlikdi. Ancaq ümidsizliyin özü ilə özünə qapanmanın arasında da fərq var. Bu mənada mən tənhalığın, təkliyin, özünəqapanmanın xəstəsiyəm. Bunu mənə günah da saya bilərsiz, qəbahət də, xəstəlik də.

Bütün hallarda bildiyim, inandığım odur ki, dörd divarın içərisində Allahın şahidliyi və sənin iştirakınla edilən söhbətlər bir ürəyin səsi, bir ürəyin hıçqırtısı, bir ürəyin fəryadıdı. Əgər bu dörd divarın daşlarını iynə ucu ilə ovub töksək, ondan kitab-kitab söz, nəğmə, fəryad, haray, dua əmələ gələr. Bu cildləri daşımaq üçün isə bir dəvə karvanını kirayə götürmək lazım olar. Bax, bu yozumun içərisində mənim yuxumun da, xəyalımın da, yaşadığım reallığın da hər bir anı bir gül ləçəyi və həmin ləçəyin üstündə də bir damla şeh kimidi. Və bu məqamda öz səsimə oyanıram. O səs deyir ki:

*Qarşında kiprikləri*
*Gül ləçəyi tək şehli...*
*Həmişə küskün, incik,*
*Dili də ki, gileyli -*
*dayanmışam...*

*Gözlərimi son güclə*
*Sıxmışam səhərədək!..*
*Səni yuxuda görmək*
*Anında mən, ay mələk -*
*oyanmışam.*

*Ruhum sızıltılardan*
*Bələnibdir ahlara...*
*Bilirəm ki, qarşında*
*Mən bütün günahlara -*
*batmışam.*

*İndi susmaq, danışmaq...*
*Fərq eləmir heç biri.*
*Əgər bağışlanmırsa,*
*Yozulmursa , heç sirri -*
*ürəyin.*

Bu misralar yaşamın özünü tam ifadə etməsə də, amma bir az təsəllidi. Daha doğrusu, ağrıyan ürəyin yaralarına bağlanan sarğıdı. Və mən də həmin sarğının kimin əli ilə bağlanmasını heç kimə açmıram, demirəm. Düşünürəm ki, o əlin sahibi o yaranı bağlayacaq Kəs özü işarəmi görür, duyur və bilir. Təbii ki, bu qədər şərhdən sonra ikinci şərhə də heç yer qalmır. Amma...

Amma bütün hallarda göy üzündən, tanrının özündən gələn sevgini göstərmək, reklam etmək bir az gülüş doğurur, istehzaya səbəb olur. Axı ürək kimə aiddirsə, kimin üçün döyünürsə, onu deməyə gərək ki, dil dönməsin. Əgər döndüsə, deməli ürək bütünlüklə o sevgiyə aid deyil. Hələ o ürəkdə nəsə çatmır. Bax, elə bu səbəbdən də mən Tanrıdan gələn pıçıltıları misralamağa, şeirə çevirməyə özümü borclu sayıram. Düşünürəm və əminəm ki, Allah məni bir bəndə olaraq bu missiya ilə şərəfləndirib, bu vəzifəni icra etmək üçün Yer üzünə göndərib. Göndərib ki, sevgidən yazım, sevgini yaşayım, sevgini özümdən sənə, səndən özümə daşıyım. Hətta bəzən küskün halda olsa belə, deyim ki:

*Məni göydən ayırıb,*
*Qaytarın yerin üstə.*
*Sevgi istəyən olsa -*
*Məni də verin üstə!..*

Bax, elə bu ovqatın içində də yenə üzümü dünyaya tuturam. Axı, baş verənlər bu dünyanın həm gözünün önündə, həm də ovcunun içərisində gerçəkləşir. Ona görə də "ovcunun içi"ni xüsusi vurğulayıram ki, bu dünya bizi öncə ovuclarını açaraq qarşılayır, sonra da ovuclarını yumaraq öz dərinliyinə çəkib aparır. Bu fikrimi istədiyiniz kimi, istədiyiniz tərəflərə yoza bilərsiniz... Seçim haqqı hər kəsin özündədir!..

***

Bir damın altında, bir köynəkdə yaşamaq, bir adı daşımaq və o damın da, o köynəyin də, o adın da hər halını özününküləşdirmək, ona sahib çıxmaq, onunla nəfəs-nəfəsə olmaq böyük hünər tələb edir. Bir az da dəqiq ifadə etsək, dözüm zərurəti yaradır. Neyləyək ki, bəzən biz özümüz anlamadığımız kimi, bizi də anlamırlar. Bu da son nəticədə adamı təkcə çevrəsi ilə yox, həm də özü ilə üz-üzə qoyur.

*Elə düşünmə ki, məndən uzaqsan,*
*And olsun Allaha, sən yanımdasan!*
*Havasan, işıqsan, susan, torpaqsan -*
*Allahın özütək hər anımdasan!*

*Elə düşünmə ki, səndən uzağam -*
*Kölgənəm, fikrinəm, dildə sözünəm.*
*Küləyəm, yağışam, odam, sazağam -*
*Anında, ayında, ildə özünəm!*

*Elə düşünmə ki, biz aralıyıq -*
*Sən sərhəd çəkmisən, ya mən ölmüşəm...*
*İkimiz bir dərddən biz yaralıyıq -*
*Sənə, o dünyadan geri dönmüşəm!*

Bəli, bu yazı mənim dünya ilə, duyğularımla baş-başa qaldığım anın müəyyən məqamlarıdı. Necə deyərlər, içimdən gəlib keçənləri yazdım... Və...

Gəlin, dünyanı bir az sərbəst, rahat buraxaq. Yapışaq ürəyimizin, sevgimizin əlindən, ətəyindən və bir də sığınaq Allahımıza. Sığınaq ki, ədaləti unutmayaq. Sığınaq ki, sevgimizin bizi daşıdığı ünvana yetişə bilək...

## Türk dövlətlərinin xarici ticarətinin həcmi açıqlandı

**"Türk Dövlətləri Təşkilatının ümumi daxili məhsulu 2,1 trilyon dollardan çoxdur, türk dövlətlərinin dünya iqtisadiyyatındakı payı təxminən 2 faizdir".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisdə TÜRKPA-nın İqtisadi əməkdaşlıq komissiyasının sədri, Qazaxıstan Parlamenti Məclisinin deputatı Anas Bakkojayev komissiyanın "TÜRKPA üzv dövlətlərinin birgə iqtisadi fəaliyyətinin həyata keçirilməsinin reallıqları və perspektivləri" mövzusunda on üçüncü iclasında deyib.

O bildirib ki, türk dövlətləri arasında qarşılıqlı ticarətin həcmi isə təxminən 57 milyard dollar təşkil edir: "Türk dövlətlərinin xarici ticarətinin ümumi həcmi isə 1,1 trilyon ABŞ dolları miqdarındadır. Ölkələr arasında iqtisadi inkişafa töhfə verən müxtəlif faydalı təsirlər mövcuddur. Sahələrin müəyyən edilməsi, ikitərəfli və çoxtərəfli iqtisadi əməkdaşlığın nizamlı şəkildə qurulmasına əsaslanır.

Bu çərçivədə iqtisadi əməkdaşlığın inkişafı, qarşılıqlı faydalı iqtisadi və ticarət əlaqələrinin genişlənməsinə səbəb olur. İqtisadi münasibətlərin hüquqi bazasının formalaşdırılması vacibdir.

Türk dövlətləri arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi istiqamətində müxtəlif qurumlar yaradılır. İqtisadi fəaliyyətləri gücləndirmək məqsədilə konkret layihələr həyata keçirilir. Bu proseslər türk dünyasında iqtisadi əlaqələrin daha da güclənməsinə, əlaqələrin dərinləşməsinə və ümumi inkişafın sürətlənməsinə xidmət edir".

## Çin şirkətləri ABŞ ordusu barədə "kəşfiyyat məlumatları" satmağa başlayıblar

**Yaxın Şərqdəki münaqişə fonunda Çin şirkətləri süni intellekt texnologiyalarından istifadə edərək ABŞ-nin hərbi birləşmələrinin hərəkətləri və silahları haqqında məlumatları satmağa başlayıblar.**

Adalet.az-ın məlumatına görə, bu barədə "The Washington Post" qəzeti xəbər verib.

Məlumata görə, Çindəki özəl firmalar ABŞ-nin hərbi fəaliyyətini izləmək və sonra bu məlumatları satmaq üçün süni intellekti açıq mənbəli məlumatlarla, o cümlədən peyk görüntüləri ilə birləşdirirlər.

"Bildiyim qədəriylə, onlar Çinin "Jilin" peyk qrupu kimi məlumat toplayanlardan çoxlu görüntü alırlar", - "American Enterprise Institute"un tədqiqatçısı Rayan Fedosyuk bildirib.

WP qeyd edib ki, ABŞ-nin yüksək vəzifəli rəsmiləri süni intellektin hazırkı vəziyyətinə şübhə ilə yanaşsalar da, Çində bu cür texnologiyaların mümkün inkişafı ilə bağlı narahatlıqlarını bildiriblər.



# Aqil Abbasın "Rəmiş"i, yaxud ruhun sınağı

*Elnarə AKİMOVA*

**Aqil Abbasın yenicə çapdan çıxan "Rəmiş" povestinin süjeti həyat-ölüm metaforası üzərində qurulub. Müəllif onlar arasında keçidləri şəffaf şəkildə düzənləyir. Mətndə adı keçən əksər şəxslər - Qurban Pirimov, Qədir Rüstəmov, Aşıq Ədalət, Ceyhun Mirzəyev, Aydın Dadaşov, Mayestro Niyazi, Rəmişin atası Hüseyn kişi və digərləri həyatla ölümün qovuşuğunda müəyyən çəkilib-qabarmalarla görünürlər. Bəlkə bu amil əsərdə ölümün mistik ovqatını hiss etdirir.**

Aqil Abbasın əksər əsərləri metafizika problemi kimi dərk olunmağa imkan verir. Ən müasir ladlara köklənmiş "Dolu" əsərinin özündə belə yazıçı qəhrəmanlarını gündəlik məişət gerçəklərindən, adi həyatdan ayırıb mistik-simvolik gerçəklərin içinə atırdı. "Rəmiş" povestinin də personajları ikili dünyanın sakinləridir. Aqil Abbas onları mətn daxilində bir araya gətirir, "ölülər" və "dirilər" dünyasının təmasını yaradır. Amma bu təmas, ünsiyyət povestdə daha geniş zaman və məkanları çevrələyir. XIV əsrin türk fatehi Əmir Teymur zamanına, XIX əsr italyan skripkaçısı Nikkolo Paqanininin dövrünə. Qalan bütün hallarda povest daha yaxın günlərimizi əks etdirir və realist təsvirlə mistik mənalandırmanı iç-içə təqdimatı ilə diqqət çəkir. Maraqlı cəhət budur ki, bu mistik mənalandırmalar real və tanış hadisələrin içərisində ərimir, əksinə, özünü qoruyub saxlayır. Postmodern estetikadan gələn mətnlərarası əlaqə burada da özünü göstərir. Yazıçı müxtəlif dövrlərə, şəxsiyyətlərin yaşadıqları zaman və məkanlara göndərmələr edir. Bu yaxınlarda povestlə bağlı geniş, sanballı mətn hasilə gətirən şair Vaqif Bəhmənlinin yazdığı kimi "Aqil Abbas qəhrəmanını (əgər ona qəhrəman demək olarsa) dünyanın istənilən bucağına (məsələn İtaliyanın Milan şəhərinə, dünya şöhrətli skripkası Paqanininin dövrünə, vətəninə və onunla şəxsən teta-tet görüşə, dahi skripkaçı ilə eyni səhnəni bölüşməyə, yerin altına, dünyadan çoxdan köçmüş Qurban Pirimovun, Qədir Rüstəmovun axirət mənzilinə, işğal altında olan Qarabağa) çəkib aparmaq üçün elə bir mötəbər bədii-estetik platforma yaradır ki, həmin leksik müstəvidə həqiqətən də qeyri-adi ifaçının, aləxüsus da qeyri-adi insanın obrazını canlandırmaq üçün fürsət ələ düşür, geniş fəza yaranır".

Maraqlısı həm də budur ki, Əmir Teymur sarayı da, Milanda Paqanininin olduğu konsert zalı da çağdaş müstəviyə gətirilir, dekonstruktiv yanaşma ilə ilahiləşdirmədən adiləşdirmə məqamına endirilir. Səbəb qəhrəmanın özünü ilahiləşdirməkdirsə (oxu: fərdiləşdirmək!) müəllif üçün zaman və məkan sərhəddi yoxdur. Hərçənd əsərdə sadə məişət təsvirləri də az deyil və qeyd edim ki, irreal təsvirlər Rəmişin istedadının çalarlarını üzə çıxarmaq məqsədi daşıyırsa, real məişət hadisələrindən bəhs edən epizodlarda biz onun insani tərəflərini görüb tanımış oluruq. Daim harasa tələsən, dünyanın bütün şöhrət təmənnasından uzaq, yeyib-içən, əliaçıq, təmiz və kövrək ürəyə sahib Rəmiş bu epizodlarda bir az da oxucuya tanış cizgilərilə görünür.

Aqil Abbas dünənə qədər cəmiyyətin içində var olan şəxsi, haradasa gözlərimiz qarşısında baş verən situasiyaları mətnə gətirir, amma həm də göstərir ki, görə bilmədiklərimiz, duymağımız hadisələr də var, olub. Məqsəd bu vaqeələrin içində Rəmiş adlı istedadın obrazını yaratmaq, onun fitri istedadını bədii düşüncənin predmetinə çevirməkdir. Bunun üçün onun seçdiyi fənd də postmodern dalğanın hüdudları içrədir. O mənada ki, müəllifin özü də bir personaj olaraq baş verən hadisələrin içərisindədir. Povestin əvvəlində yazılmış müəllif qeydlərində Aqil Abbas Əmir Teymur və xanəndə Əbdül Qadir Baqi münasibətini, Paqanini xəttini vurğulayır və əsəri oxuduqca yazıçının bu iki məqamdan təsirləndiyini görürük. Şairlə Rəmiş Qədir Rüstəmovun evində çay içdikləri məqamda Əmir Teymurun adamları həyətə doluşur, onları qandallayıb hökmdarın (Əmir Teymurun) hüzuruna gətirirlər. Əmir Teymurun ölüm fərmanından onları Rəmişin çaldığı musiqi xilas edir. Üstəlik, çalğısına görə nəmər istəyən Rəmişə və dostlarına Əmir Teymur iki kisə qızıl ənam bağışlayır, üstəlik Təbrizdə talanı dayandırır.

Əsər həm də müəllifin Rəmişin həyatına, xarakterindəki ən ciddi nüanslara yaxşı bələdliyini soraq verir. Şair obrazında təqdim olunan qəhrəman mətn boyu, bütün zəruri situasiyalarda Rəmişin yanındadır. Onun Rəmişin hərəkətlərinə müdaxiləsi, vaqeələrin bir halqasına çevrilməsi, bəzən emosiyalarını tənzimləməsi, bəzən də xəfif yumorla vəziyyəti dəyərləndirməsi nəzərdən qaçmır və eyni ruh halı və ovqat göstəricisi ilə elə Rəmişə yaxınlıqdan xəbər verir. Amma bununla bərabər, povestdə Aqil Abbasın yaradıcı təxəyyülü onun müşahidəçilik qabiliyyəti qədər zəngin təsir bağışlayır.

Bu əsər bəlkə də Aqil Abbasın ruhunun sınağıdır. Bu mübarək sınağın sxemini mifoloji təfəkkürün ən dərin layını ilahi məkandan süzülən qatlarla birləşdirən qəhrəmanın yolu kimi də anlamaq olar. Əks halda ilahi vergi olan Rəmiş istedadını necə təqdim etmək olar? Əsər boyu komada olan Rəmişi müəllif zaman və məkan aralıqlarından keçirməklə onun melanxolik obrazını yaratmaqla bərabər, insan ömrünün fanilik duyğusunu da qabartmış olur. Məhz fanilik duyğusu Rəmişin içinin yaşam fəlsəfəsinə, obrazına daha çox uyğun gəlir və bəlkə buna görə gəzdiyi bütün məkanlarda onun itdiyini, oralara qaynayıb qarışdığını görürük? Rəmişi metafizik obraz edən bəlkə elə bu məqamdır?! Həyatı fanicəsinə anlayıb yaşaması? Bunu duyduğuna görə Aqil Abbas üçün Rəmişdən yazmaq həm də yaşamaq və ölmək arasında semantik keçidin təsadüfi olmadığını təsdiqləmək deməkdir: "Yorulmuşdu, çox yorulmuşdu. Əslində, buna yorulmaq demək olmazdı ey, bezmişdi. Hər şeydən bezmişdi - şöhrətdən də, dostlarından da, curlarından da, qadınlarından da. Elə Rəmiş olmaqdan da bezmişdi. Tıncıxırdı. Nə qədər belə yaşamaq olar? Yaşamaq ona çox mənasız olmuşdu. Özü də bu tez-tez baş verirdi. Belə olanda oturub maşına qaçırdı kəndlərinə".




Povest Qara Niqablı Mələyin Rəmişin ardınca gəlib onu aparmaq istəyi ilə başlayır. Süni nəfəs aparatına qoşulan Rəmiş əli ilə ağzına qapanmış nəsnəni bir kənara atır və personajın mistik-irrasional dünya ilə təması başlayır. Sonra baş verənlər iki yoxluq arasındakı baş verən vaqeələrin dramıdır. Yazıçı yuxu, qarabasma situasiyalarını əsərin toxumasına daxil edir. Və yaddaş işığının emanasiyası görünür. Rəmişin Abdalda, Kəhrizin üstündə keçən uşaqlığından başlamış ölüm anına qədər ömrünün bütün yaşam-yaşantı mərhələləri xatırlanır.

Müəllif Rəmişin musiqiyə, çalğı alətinə sevgisini görkəmli tarzən Qurban Pirimovun ona bağışladığı tara münasibətində göstərir. Ustadın qarşısında "Segah"ı özünəməxsus tərzdə, özünün "gördüyü" tərzdə çalan Rəmiş ona bağışlanan sədəfli tarı həyatının ən müqəddəs dəyəri kimi qoruyur. Amma yalnız o tarı deyil, tar da onu qoruyur deyəsən. Aqil Abbas mətndəki bu epizodu iki hissədə sürreal təsvirlərlə qələmə alır: "Qəfil göy guruldadı, ildırım şaqqıldadı. Şıdırğı bir yağış başladı. Şimşəklər buludların arasında rəqs edirdi. O, tarı yağışdan qorumaq üçün pencəyini çıxarıb tarın çanağına sarıdı ki, təki yağış onu vursun, tarı yox. Bu vaxt göylərdən qəribə bir nur parladı. Bu nə ildırım idi, nə də şimşək. Hər tərəfi işıqlandırdı. Və birdən hiss elədi ki, daha onun üstünə yağış yağmır. Elə bil kimsə başının üstündə çadır açmışdı. Sel-su aləmi götürsə də, o, bunu hiss eləmirdi. Bu qeyri-adi hadisədən çaşdı, özü də bilmədi bu nədi. O, evlərinə tərəf qaçdıqca başının üstündəki gözəgörünməyən çətir də onunla bir yerdə qaçırdı. Bir canavarın ona tərəf qaçdığını gördü. Qorxudan tir-tir əsdi. Bu vaxt yenə ildırım şaqqıldadı və ildırım ona çatmağa az qalmış canavarı vurdu. Qorxa-qorxa ölmüş canavarın yanından keçdi".

Əsərdə Rəmişin xarakterik keyfiyyətlərinin açıldığı mühüm epizod Moskvadan təşrif buyuran rejissor və operatorla görüş səhnəsidir. Aydın Dadaşov və Ceyhun Mirzəyevin israrla Rəmişi axtarıb dünyaca məşhur rejissorun dörd seriyalı Paqanini rolunu canlandırmaq üçün onun çəkilməsini istədiyini və bunun üçün ardınca gəldiklərini bildiyi səhnədə oxucu ona tanış Rəmişi görür: imtina edən, təmənnasız, iddiasız könül sahibi Rəmişi! O, diqqət mərkəzində olmaqdan qaçır, standartlar onun üçün deyil, itaət göstərmək təbiətinə yaddır. Aqil Abbas Rəmişi belə - gerçəkliyin absurdluğu kimi səciyyələnən işarələrlə obrazlaşdırır. Xaricə getməsi üçün pasport verilməsinə qadağa qoyulan Rəmiş öz revanşist təbiəti ilə ona təlqin olunan "hamı kimi olmaq" normativlərindən uzaq mövqe sərgiləyir: "Saçımı qırxdırsam, mən də ütülü geyinsəm, başqalarından nə fərqim? O qədər saçı qırxılı, qalstuklu gitara çalan var ki. Məni neynirsiniz, onlardan birini götürün də ansambla. Azad insanları niyə sevmirsiniz?"

Yazıçının yaddaşı və təhtəlşüuru sanki bütövlükdə bu obrazın məntiqinə təbedir. Amma elə bu məqamlar da mətnin magik effektini gücləndirir, yəni rasionallıq və mistisizm birləşir. O mənada ki, İçərişəhərdə, bir daşın üstündə oturub qızın pəncərəsinə baxanda da, "Yanıq Kərəm"ini bitirmək üçün Qazaxa maşın sürüb Aşıq Ədaləti Ağdam toyuna gətirəndə də, saxladığı meymun öləndə onu basdırmaq üçün gəmi kapitanı olan dostunun həyətini seçdiyi məqamlarda da Rəmiş fərqli müstəvinin, özgə dünyaların adamı olaraq vizuallaşır. Bəlkə doğrudan da özgə dünyaların adamıdır? Heç kimin görmədiyini görən? Axı Sabir bağında çay içdikləri vaxt Qala divarlarını şair dostuna göstərib fərqlilikləri gördüyünü dilə gətirmişdi: "mən o daşların üstündə qan görürəm. Gözümü yumuram, divarların arxasında saşlarını yolan anaları görrəm, gəlinləri görrəm. O daşdar hamısı ağlıyır, özü də hamısı qan ağlıyır..."

"Rəmiş" mətni oturuşmuş, bəlli stixiyası olan yazıçı təhkiyəsi, dəqiq konstruksiyası olan povest strukturu ilə diqqət çəkir. Yazıçı əsərdə güclü emosiyaya malik epizodlar monolitliyi yaratmış, fikirlə hissin bölünməz vəhdətini verməyə nail olmuşdur. Müəllif əsərdəki iti, ironik dialoqlarda, obrazın daxili emosiyalarının davranışında, hərəkətlərində, intonasiyasında ifadəsində kifayət qədər ölçülü-biçili davranmağa çalışıb. Rəmiş bütün hallarda özüdür, heç yerdə sosial maskaya bürünmür, ictimai-mədəni məkanlar belə ona doğmaları ilə ünsiyyət qurduğu adiliklər içində bir adilikdir. Yazıçı bütün bu özəllikləri - özü olmaq xarakterini Rəmişin həyatının ayrılmaz hissəsi kimi təqdim edir və əsərdə rast gələnən emosional partlayışlar əslində, obrazın içindəki hedonist kimliyi açmağa uğurlu vasitəyə çevrilir. Müəllif bu marjinal kimliyi Rəmişin öz gitarası ilə birgə qeybə çəkildiyi son məqama qədər qoruyur: "Mələklər Qara Niqablı Mələkdən acizanə xahiş elədilər ki, icazə ver sonuncu dəfə çalsın.

Qara Niqablı Mələk sərt şəkildə cavab verdi:

- Olmaz!

Rəmiş özünü toxdadıb:

- Brat, maa o boyda Sovet hökuməti qadağa qoya bilmədi, sən kimsən maa qadağa qoyasan? - dedi və gitaranı basdı sinəsinə, başladı ilk dəfə mələklər onu qaçıranda nə çalmışdısa, onu çalmağa.

Gitaranın səsi kainatı götürdü başına. Mələklər onun ətrafında rəqs edirdi. Qara Niqablı Mələk də bir az baxdı-baxdı və qoşuldu rəqs edən mələklərə.

Rəmiş uymuşdu, bütün kainatı da uyutmuşdu.

Xəstəxananın həyətində ölüm xəbərini gözləyənlər göylərdən gələn qəribə gitara səsi eşitdilər. Donub qaldılar. Hamının baxışı dikildi göylərə.

...Şair gitaranın səsi eşidən kimi bir kənara çəkilib başladı hönkürüb ağlamağa.

Palatadakı həkim də, tibb bacısı da çaşıb qalmışdı, gözlərinin qabağında birdən-birə Rəmiş gitarası ilə bir yerdə yox olmuşdu".

***

**Povestin yazılma tarixçəsinə nəzər yetiriəm: "Ağdam, Abdal-Gülablı kəndi, Kəhrizin üstü, may 2025"...**

**Hər şey burdan başlamışdı. Rəmişin uşaqları başına yığıb taxtanın üstünə çəkdiyi simlərlə nəsə çalması, "Kəhrizin suyunun səsinin, meşədəki ağacların yarpaqlarının pıçıltısının, küləyin xışıltısının özü də bilmədiyi melodiyaya qarışması" ilə. Elə burda da bitir. O melodiya indi azad Ağdamda yenə əvvəlki kimi rahat və xürrəm dolaşır... Rəmişin ruhu kimi!**



*Çingiz Nağıyev,*
*"Qızıl qələm" mükafatı laureatı,*
*Şəki*

# ƏZİZ DOST, GÖZƏL İNSAN

**Bir neçə gün bundan əvvəl əziz dostum, böyük şair, gözəl insan Vaqif Aslanla görüşmüşdüm. Söhbət əsnasında şair mənə dedi ki, xəbərin var, bizim dostumuz, sənin qohumun Yusif Hüseynovun 70 yaşı tamam olub. Dedim bilirəm, zəng edib təbrik etmişəm. Şair dedi ki, Yusif müəllimə ən yaxın olan - həm dost, həm qohum kimi sənsən. Jurnalist jurnalist dostunu ona layiq bir yazı ilə təbrik edər, telefon zəngi ilə yox. Şair sözünə davam edib dedi:**

-Mən indi bir elmi məqalə üstündə fikrimi toplamışam. Onu yazıb başa çatdırandan sonra mən də Yusif müəllim haqqında bir məqalə yazmaq fikrindəyəm. Amma sən tez bir məqalə yaza bilərsən.

Doğrusu, elə bil yuxudan ayıldım. Evə gəlib bu haqda düşündüm. Yadıma düşdü ki, əziz dostlarım professor Ramiz Əsgər, Naxçıvanın şərəfli oğlu, tələbə yoldaşım Hüseyn Əsgərov və bir neçə başqa dostlarım haqqında xatirələr yazmışam. Hamısı da ictimaiyyət tərəfindən çox böyük hörmət və məhəbbətlə qarşılanıb. Mənə buna görə çoxlu telefon zəngləri olmuşdur. Ömrünün yarıdan çoxunu ölkəmizin ən nüfuzlu mətbuat orqanı olan "Xalq qəzeti"nin müxbiri, tələbə yoldaşım Zərifə xanımın, professor, şair Adil Cəmil, "Azərbaycan" qəzetinin şöbə müdiri işləyən İradə xanım Əliyava, yazıçı Mustafa Çəmənli, tanınmış jurnalistlər Adil İrşadoğlu, Flora Xəlilzadə və başqaları. Onlardan xüsusi qeyd etmək istəyirəm, Azərbaycan Milli Elmlər Akademiyasından əsl el ağsaqqalı, nurlu şəxsiyyət Əli Şamil müəllimin mənə təşəkkür zəngini xatırladım. Bu böyük şəxsiyyət mənim həmin yazılarıma o qədər yüksək dəyər vermişdi ki, mən bunları xatırladıqca Yusif Hüseynov haqqında da bir yazı yazmaq üçün cəsarətləndim.

Beləliklə, başladım Yusif Hüseynov haqqında xatirələrimi çözələməyə.

Əvvəla onu deyim ki, hamının çoxsaylı qohumu ola bilər və vardır. Amma onların arasında yaxın dosta çevrilən qohum tək-tək olur. Mənim üçün onlardan biri də Yusf Hüseynovdur. Əziz oxucularıma bir sirri də açmaq istəyirəm. Bu Yusif Hüseynova evdə, ailədə başqa bir ad deyirlər. Biz rəsmiyyətdən kənar yerdə, öz aramızda ona "Mahir" deyirik. Sonralar öyrənfim ki, bu adı ona əmisi, böyük insan, Şərqin dahi jurnalisti, tədqiqatçı alim, saflıq, təmizlik nümunəsi olan professor Şirməmməd Hüseynov verib. Universitetdə tələbə olanda mən Şirməmməd müəllimdən soruşdum ki, evdə, ailədə hamı onu nə üçün "Mahir" adı ilə çağırır?Universitetdə jurnalda onun adının Yusif olduğunu biləndə mən çaşdım. Nə üçün Yusifin iki adı var? Şirməmməd müəllim gülə-gülə dedi:

-Sən bilirsən, "mahir" sözünün mənası nədir?

Dedim ki, bildiyim qədər məharətli sözünün sinonimidir.

Şirməmməd müəllim dedi ki, düz deyirsən, "mahir" məharətli deməkdir, amma ərəb və fars sözləri lüğəti kitabında onun başqa mənaları da yazılıb. Mahir həm də bacarıqlı, bilikli deməkdir və sözünə davam edərək dedi:

-Onun atası, mənim böyük qardaşım Həsən doktor ona Yusif adını qoyub. Hələ məktəb yaşlarına çatmamış mən onun hərəkətlərinə, davranışına diqqət etdim. O, özünü yaşından mükəmməl apardığına görə mən onu "mahir oğlan" deyə çağırdım. Elə ondan sonra evdə, ailədə hamı onu mənim dilimcə "Mahir" adlandırdı. Sən də ona həmişə Mahir deməsən, amma sənəddə atası qoyan adla gedir. Uzun illər sonra mən Şirməmməd müəllimin Yusif Hüseynovu "Mahir" adlandırmasında səhv etmədiyini gördüm.

Yusif Hüseynov universitetin jurnalistika fakultəsinə məndən bir il sonra-1973-cü ildə qəbul olmuşdur. O, tələbəlik illərində özünü Şirməmməd müəllimin dediyi "mahir oğlan" kimi bacarıqlı, bilikli tələbə olduğunu bir daha təsdiq etmişdi. Yusif Hüseynov həm də özünün milli, mənəvi, əxlaqi dəyərləri ilə çoxlarından fərqlənirdi. Yusif müəllim o zamanlar çox nüfuzlu olan fakultə komsomol təşkilatında yüksək vəzifələr tutmuşdu. 1978-ci ildə ali təhsilini başa vuran Yusif Hüseynov Bakıda bir sıra nüfuzlu mətbuat orqanlarında ictimai-siyasi və publisist məqalələri ilə az vaxtda tanındı. Tezliklə onu Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi yanında Partiya Tarixi İnstitutunda işə



dəvət etdilər. Partiya Tarixi İnstitutu həmin dövrün ən nüfuzlu ali təhsil müəssisəsi idi. Yusif müəllim orada fəaliyyət göstərdiyi illərdə özünü kamil bir ziyalı kimi göstərdi. Azərbaycanın müstəqillik illərində isə Yusif müəllim Prezident Administrasiyası yanında Politologiya İnstitutunda ikinci ali təhsil alıb və sonra Prezident Aparatında məsul vəzifəyə dəvət edildi. O, burada da özünü ləyaqətli dövlət kadrı kimi göstərdi.

Yoxlamalara getdiyi rayonlarda nöqsanları aşkar edib, aradan qaldırılmasına nail oldu. Xalqın şikayət məktublarını yerində araşdırıb ədalətli həllində və günahkarların cəzalandırılmasında prinsipial mövqe nümayiş etdirdi. Bu, Yusif müəllimin nəsildən gələn - Şirməmməd Hüseynov genetik kodunun bariz nümunəsi idi. O, Prezident Aparatında işlədiyi illərdə həmişə ədalətin, haqqın tərəfində olduğunu bir daha göstərdi. Mən həmin illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verlişləri Komitəsinin tabeliyində olan Şəki Radio Verlişləri Redaksiyasında böyük redaktor işləyirdim. Şəki şəhər Partiya Komitəsinin birinci katibləri və sonrakı dövrdə icra başçıları bizim radio verlişləri redaksiyasını özlərinin təsiri altına almaq istəyirdilər.

Mən rayonda baş verən irili-xırdalı qanun pozuntuları haqqında öz verlişlərimizdə söhbət açanda, hər dəfə bizə rayon rəhbərliyi tərəfindən hücumlar, hədələr olurdu. Mən bu haqda Yusif müəllimə məlumat verəndə o, bəzən rəsmi ezamiyyət, bəzən də öz hesabına məzuniyyət götürüb, rayona gəlib və məsələni yerində araşdırıb, rayon rəhbərliyinə öz iradlarını bildirirdi. Mən bu haqda Azərbaycan Dövlət Televiziya və Radio Verlişləri Komitəsinə məlumat verirdim. Sonralar mənə deyirdilər ki, sənin kimi başqa rayonların da radio verlişləri redaksiyalarının rayon rəhbərliyi ilə problemləri olanda, onlara da istiqamət vermişik ki, Yusif Hüseynova müraciət etsinlər. Yusif müəllim başqa rayonlarda da belə məsələlərin ədalətli həllinə nail olurdu.

2005-ci ildə bir sərəncamla bütün rayonlarda radio verlişləri redaksiyaları bağlandı və biz işsiz qaldıq. Həmin il də möhtərəm cənab Prezidentimiz İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə "İctimai televiziya" yaradıldı. Mən "İctimai televiziya"nın Şəki, Oğuz, Qəbələ və İsmayıllı rayonlarında bölgə müxbiri kimi işə qəbul edildim. O zaman taleyin qisməti ilə Yusif Hüseynov da İctimai televizyanın "İctimai-siyasi verlişlər departamenti"ndə böyük redaktor kimi işə dəvət edilmişdi.

Mən hər dəfə rəhbərliyin çağırışı ilə Bakıya gedəndə mütləq Yusif müəllimlə görüşürdüm. Bəzən naharda və ya axşam yeməyində birlikdə olurduq. Mən hər dəfə onun çox məlumatlı, geniş diapazonlu söhbətlərini maraqla dinləyirdim. O, məndən yaşca kiçik olsa da, mən onunla bəzi məsələlərdə məsləhətləşir, ondan tövsiyyələr alırdım və bundan faydalanırdım.

Sonrakı illərdə Təfəkkür Universitetinin rektoru Mail Dəmirli Yusif Hüseynovu universitetinin mətbuat xidmətinin rəisi vəzifəsinə dəvət etdi. O vaxtlar Təfəkkür Universiteti dövrün ən nüfuzlu ali təhsil müəssisələrindən biri idi.

Universitetin rektoru Mail Dəmirli Jurnalistika fakyltəsinin məzunu idi və Yusif Hüseynovu tələbəik illərindən tanıyırdı. Onun savadına, obyektivliyinə və ədalətli bir insan olmasına bələd idi. Ona görə də Yusif müəllimi bu məsul vəzifəyə cəlb etmişdi. Həmin vəzifədə Yusif müəllim öz məsləkinə uyğun işlədi və bütün kollektivin hörmətini qazandı.

İllər beləcə gəlib keçdi ömrümüzdən. Bir vaxt gördük, ikimiz də təqaüdçüyük. İndi mən Bakıya gedəndə və ya Yusif məllim Şəkiyə gələndə çox böyük həvəslə görüşürük. Görüşlərimizdə uzun illərin xoş xatirələrini yada salırıq. Hərdən nərd, bəzən də şahmat oynayırıq. Yusif müəllim bu oyunlarda da öz zəkası ilə məni mat edir. Bu minvalla ikimiz də 70-i geridə qoymuşuq. Allahın izni ilə üzüyuxarı - 80-na doğru gedirik. Hələ qarşıda 90, 100 arzularımız var. Amma jurnalistlik fəaliyyətimiz gənclik ilhamı ilə davam edir.

Əziz dostum, gözəl insan, xoşbəxt ailə sahibi Yusif Hüseynov" Səni bir daha 70 yaşın münasibətilə təbrik edirəm. Sənə yeni yaradıcılıq uğurları arzu edirəm, sənin əqidən əxlaqın kimi daim sağlam olsun, istedadın tükənməsin. Nəvələrini də övladların kimi Şirməmməd Hüseynov əqidəsində tərbiyə etməyində sənə səbr və uğurlar arzulayıram. Arzu edirəm ki, Şirməmməd Hüseynov tərbiyəsində, əxlaqında milli ruhda olan insanlar ölkəmizi işıqlı gələcəyə aparsın.

***Ömür keçir fəsil-fəsil,***
***Yazın ayrı ləzzəti var.***
***Kim istəməz yüz yaşasın***
***Yüzün ayrı ləzzəti var.***

***Nə gözəldir bu təbiət,***
***Dərə geniş, dağ əzəmət.***
***Azaldıqca dizdə taqət***
***Düzün ayrı ləzzəti var.***

***Demə Yusif, yoxuş çətin,***
***Gəz qoynunda təbiətin.***
***At belində hər söhbətin,***
***Sözün ayrı ləzzəti var.***

***Kamil yanır bu çağında,***
***Təbiətin qucağında,***
***Doğma yurdun ocağında***
***Közün ayrı ləzzəti var.***

# SSRİ-nin sonuncu Sovet İttifaqı Qəhrəmanı Oleq Babak haqqında kitab

**7 aprel SSRİ-nin sonuncu Sovet İttifaqı Qəhrəmanı ukraynalı leytenant Oleq Babakın anım günüdür. O, 1991-ci ildə erməni terror dəstəsinin Qubadlı rayonunun Yuxarı Cibikli kəndinə hücumunun qarşısını alarkən həlak olmuş, hərbi vəzifəsini yerinə yetirərkən göstərdiyi cəsarət, qəhrəmanlıq və fədakarlığa görə SSRİ prezidentinin 17 sentyabr 1991-ci tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. O, 1941-1945-ci il Böyük Vətən Mü-haribəsindən sonra bu adı alan ilk milis-polis və SSRİ-nin sonuncu Sovet İttifaqı Qəhrəmanı olmuşdur.**

Adalet.az xəbər verir ki, publisist Hacı Nərimanoğlunun ukraynalı qəhrəmanın ömür, döyüş yoluna həsr olunmuş "Oleq Babak, Azərbaycan səni unutmayacaq!" kitabının yaxın günlərdə Azərbaycanda və Ukraynada təqdimatı keçiriləcəkdir. Hər iki dildə nəşrə hazırlanmış kitablar Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin layihəsi əsasında işıq üzü görür.

Xatırladaq ki, həmin gün 70-80 erməni terrorçusu hücuma keçib kəndin iki gənc sakinini öldürür, 7 nəfəri yaralayır, mülki əhalini qırmaq, əsir, girov götürmək, strateji əhəmiyyətli ərazisini ələ keçirmək məqsədilə kəndi mühasirəyə alır. Yaxınlıqdakı postun komandiri 24 yaşlı Oleq atışma səslərini eşidib tabeliyindəki iki milis serjantı ilə köməyə gəlir, onların patron daraqlarını da alıb mühasirədə olan yaralı sakinlərin təhlükəsiz əraziyə çıxarılması barədə tapşırıq verir, özü isə çoxu həbsdən buraxılmış cinayətkar residivistlərlə döyüşə girir. Peşəkar atıcı olan Oleq 3 saata yaxın davam



edən döyüşdə 20-dən çox terrorçunu məhv edir, təslim olacağı təqdirdə sağ buraxılacağına dair çağırışlara baxmayaraq banditlərlə son gülləsinə qədər savaşır, mülki əhalidən bir nəfərin də əsir düsməsinə imkan verməədən onların təhlükəsiz əraziyə çıxarılmasına imkan yaradır, ağır yaralı halda erməni terrorçuları tərəfindən xüsusi amansızlıqla qətlə yetirilir. 24 yaşlı zabitin həyatla əbədi vidalaşdığı 7 aprel günü pravoslav xristianlarının Pasxa və Müqəddəs Müjdə bayramları nadir hal olaraq bir günə təsadüf etmişdi.

Oleq 385-ci gün idi ki, qaynar nöqtələrdə SSRİ Daxili İşlər Nazirliyinin Sofrin briqadasının zabiti kimi xidmət keçirdi, bir neçə gün sonra məzuniyyətə buraxılıb Poltavanın Viktoriya kəndində yeganə övladlarına toy hazırlığı görən, intizarla onun yolunu gözləyən əzizlərinə qovuşacaqdı. O, valideynlərinə, nişanlısına, dostlarına hər məktubunda cibikliləri onu "Babək" deyə çağırmaqlarından, bu müharibəyə zorla cəlb olunan azərbaycanlıların mehriban, qonaqsevər insanlar olmalarından, erməni banditlərinin törətdiyi vəhşiliklərdən, doğmaları üçün çox darıxdığından yazırdı. Poltavada Oleq Babakın adına məktəb, muzey, küçələr var, parklar salınıb, abidələri ucaldılıb.

Kitaba daxil edilən çox sayda sənəd, foto, xatirələrdə qəhrəmanın ömür, döyüş yolu əks olunur, Oleqin valideynləri Nadya və Yakov Babakların dövlətimiz və diasporumuz tərəfindən ömrün ahıl çağlarını yaşayan ailəyə hər cür maddi, mənəvi qayğı göstərilməsi barədə şəxsən tapşırıq vermiş Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq duyğularını ifadə edən məktublarından, Ukraynada dövlətimizin başçısına və xalqımıza xüsusi sevgi, ehtiramdan bəhs edilir.

**HACI**

# "Dənizdən güc alan şairin ilhamı tükənməz"



*Arzu Kazımqızı Nehrəmli*
*şair, publisist, tarix üzrə fəlsəfə doktoru*

**Ömrünün yarım əsrdən çoxunu dənizin bəzən ana qucağı kimi məhrəm və mülayim, bəzən də qəzəbli, fırtınalı, sərt qoynunda keçirmiş, dalğaların dilini bilən dənizçi şair...**

Yüzlərlə mahnının (mötərizə arasında təvazökarlıq çərçivəsindən çıxıb, fəxrlə diqqətinizə çatdırmaq istəyirəm ki, bunların içində mənim də sözlərimə yazılan mahnılar var) müəllifi, mahnıları dildə-ağızda dolaşan, sərhədlər aşan, möhtəşəm konsert salonlarında, şadlıq məclislərində səslənən bəstəkar şair...

"Hələ bunlar nədir ki!.."

XXI əsrdə "Divan" nəşr etdirərək sözümüzün keçmişini geri qaytarmağa çalışan, Füzulimizin ənənələrini yaşadan zərif qəzəllər, incə gözəllər şairi...

Hüseyn Sözlünün yaradıcılığından və şəxsiyyətindən söz düşəndə bunlar onu tanıtmaq, onun kimliyini təqdim etmək üçün işlədilən sözlərdir və mən bütün məsuliyyətimlə qol çəkə bilərəm ki, o, bu sözlərin hamısına artıqlaması ilə layiqdir.

İndi ədəbi prosesdə müəyyən yeri və iştirakı olan bir zümrənin yaddaşında isə o həm də Hüseyn Dədədir. Kimlər üçünsə sadəcə Dədədir...

...1990-cı illərdə, çətin keçid dövründə, bir çox dəyərlərin zirvədən öz-özünə endiyi və bir çox dəyərlərin də zorla endirildiyi bir zamanda qarşısına ədəbiyyatın yeni zirvələrini fəth etmək məqsədi qoyan bir neçə şair dostlarla aradabir onun rəhbərlik etdiyi gəmiçilik müəssisəsinə aid qocaman gəmilərdən birində toplaşır, dalğalar üstündə ləngərlənə-ləngərlənə yazdıqlarını müzakirə edir, ədəbiyyat və sənət haqqında düşüncələrini bölüşür, xəyallarını qururdu. Bəzən gələcəyə uçan xəyallar da gəmi suyun üzərində ləngərləndiyi kimi, zamanın üstündə ləngərlənirdi. Mübahisə qızışır, söhbət uzanır, şeirlər bir-birini əvəz edirdi.

İndi o illəri xatırlayanda, başqalarını deyə bilmərəm, mənim gözümün önünə hər şeydən öncə Hüseyn Dədənin təmənnasız qayğıkeşliyi, canıyananlığı, böyüklüyü gəlir. Hər insana qismət olmayan bu cür böyüklük də, görünür, şairlik, bəstəkarlıq kimi Allah vergisidir.

Mənə münasibətdə o vaxt bəlkə də tam fərqində olmadığım, aydın dərk edə bilmədiyim bir incəlik var idi: iştirak elədiyim bütün məclislərdə, söz dediyim, şeir oxuduğum bütün yığıncaqlarda insanlar məni canlı bir obraz kimi görürdülər, mənə tarixin amansız əsəri olan qanlı müharibənin yaratdığı ədəbi qəhrəman kimi yanaşırdılar. Söz nədən və haradan başlayır-başlasın, sonda həyat yoldaşım Yusifin qəhrəmanlıqla döyüşərək Vətən göylərindən əbədiyyətə yola düşdüyünün və mənim, şəhid balası böyüdən qadının taleyinin üzərinə gəlirdi.

Unudulmaz şairimiz, bizi vaxtsız tərk etmiş Fərqanə Mehdiyevanın üzünü göylərə tutub sonsuz ənginlikləri soraqlayan gənc qadına təsəlli üçün yazdığı "Ağla, gəlin" şeiri də elə o illərdə yaranmışdı.

Şeir konkret mənim ünvanıma yazılsa da, əslində, torpağı bağrına basan bütün şəhid ailələrinin, taleyi param-parça olmuş cavan gəlinlərin dərdinə güzgü tutuan kədərli bir ağı idi.

Hüseyn Dədənin həmin şeirə yazdığı, müğənni Təranə Əlixanlının duyğu dolu səslə oxuduğu mahnı isə mənim aləmimdə o illərin ən yanıqlı musiqi əsəri oldu. Dərdlilərin dərdinə ortaq olan bu mahnının həm musiqisində, həm sözlərində, həm də ifasında şəhidlərimizə oxşama deyən gözləri yaşlı, boynubükük tariximiz var...

Mahnını dinləyəndə musiqinin müəllifi Hüseyn Sözlünün bir insan kimi ürəyindəki Vətən, torpaq sevgisinin böyüklüyünü görməmək, duymamaq mümkün deyil və əminəm ki, onun həm şeir və musiqi yaradıcılığı, həm də insan kimi ona böyüklük gətirən yüksək keyfiyyətləri həmin ülvi hissdən qaynaqlanır.

Vətənimizin dar günündə, torpaqlarımız yağı düşmənin işğalı altında olanda Hüseyn Sözlü doğma övladına müraciətlə yazdığı şeirdə Vətən uğrunda şəhid olmağın böyük şərəf olduğunu yazmışdı. O, hər bir Azərbaycan oğlunun həyatının mənasını Vətənin azadlığı uğrunda sonadək döyüşməkdə, məğlubiyyətlə barışmamaqda görürdü.

Dünyagörmüş şair Vətənin ağrılarını və zamanın çağırışlarını əks etdirən əsərlər yazmaqla kifayətlənmədi, insanlarda ruh yüksəkliyi yaradan, bizi qələbəyə səsləyən, hər kəsin içində ümid işıqları yandırmağa xidmət edən silsilə əsərlər ortaya qoydu. Ulu öndərimiz Heydər Əliyevə həsr etdiyi şeirdə millətimizin "Vətən sevgisilə günəştək parlayan", "xoşbəxt gələcəyi sabahda görən" liderinə sonsuz xalq sevgisi tərənnüm olunur, sabaha inam, qələbəyə ümid təlqin edilir. Heydər Əliyevin millət lideri kimi böyüklüyünün bir cəhətini də şair onun səngərdə, şanlı Azərbaycan əsgərinin yanında olmasında görür. Tərənnüm ruhunda yazılmış "Yaşadı, yaşayır Ulu Öndərim" şeiri Hüseyn Sözlünün bir şair, bir vətəndaş kimi tarixə düzgün qiymət verə bildiyini təsdiqləyir. Əsgər libasında səngər dolaşan, daim xalqın yanında olan, xalqa arxalanan Ulu Öndərin vəsiyyətini onun layiqli davamçısı, şanlı Ordumuzun Müzəffər Ali Baş Komandanı İlham Əliyev böyük siyasi qətiyyətlə, tarixi fürsəti düzgün qiymətləndirən müdrik dövlət rəhbəri və mahir sərkərdə əzmi ilə yerinə yetirdi. Şəhidlərimizin müqəddəs qanı yerdə qalmadı...

Birinci Qarabağ müharibəsində taleyindən yaralanmış bir insan kimi, belə düşünürəm ki, ən çətin anlarda insanlarımızın qəlbindəki qələbə ateşini sönməyə, zəfər əzmini qırılmağa qoymayan mənəvi dayaqlarımızdan biri də şeirin, sənətin danılmaz qüdrəti oldu. Həm 44 günlük şanlı Zəfərdən əvvəl - tarixin ən ağır sınaqlarından keçdiyimiz illərdə, həm də xalqın Dəmir Yumruğa çevrilib öz Ali Baş Komandanı ətrafında səfərbər olduğu, Dəmir Yumruğun düşmən başına endirildiyi Vətən Müharibəsi günlərində Hüseyn Sözlünün yaradıcılığında Qarabağ mövzusu xüsusi yer tutub. Təbiətinə görə lirikaya daha çox meyil göstərən şairin əsərlərindən Qarabağ ayrıca xətt kimi keçir. Şairin Zəfərdən sonrakı yaradıcılığında, xüsusən də "Divan"ında isə Qarabağa qayıdışın yeni rənglərini görməkdəyik. "Deyirəm heç vədə ta olmaya zar məmləkətim" arzusu ilə yaşayan şairin qəzəllərində Qarabağ Azərbaycan övladlarının uğrunda şəhid olmağa şərəflə baş qoyduqları müqəddəs ziyarətgah olmaqla yanaşı, bənzərsiz gözəlliklər məskəni, sözün, musiqinin, şeirin, mahnının ilham mənbəyidir.

*Qarabağ düzləri açmış qucağın bizlərə gəl,*
*Çəməni gülşən edən bağü baharımdı mənim...*

Bu misraların müəllifinin sevincinin və qürurunun təməlində duran əsas fikir budur ki, qanımız-canımız bahasına azadlığına nail olduğumuz, düşmənin işğalından xilas etdiyimiz Qarabağ artıq öz əllərimizin qayğısı ilə yenidən canlanır, gündən-günə gözəlləşir, ucalır. İndi biz Qarabağı abadlaşan Vətənimizin ucalıq rəmzinə çevirir, dünyaya görk edirik. Bu, uzun müddət bizə qarşı ədalət duyğusunu itirmiş dünyaya bizim ən gözəl cavabımızdır. Yeri gəlmişkən, onu da qeyd etməyi vacib sayıram ki, 44 günlük Vətən Müharibəsində əldə etdiyimiz şanlı Zəfər, tarixi düzüb-qoşanların üzünə bir sərt həqiqəti çırpdı. Məlum oldu ki, vaxtilə "Qarabağ bizimdir" qaraqışqırığı ilə dünyanı ayağa qaldıran yağı düşmən otuz illik işğal dövründə Qarabağda daş üstə bir daş qoymayıb, əksinə, arxasında duran məkrli qüvvələrlə birləşib, öz gücünü dünyanın ən abad bir diyarını dağıtmağa, xarabaya çevirməyə, viran qoymağa sərf eləyib. Allaha şükürlər olsun ki, haqq nazilsə də, üzülmədi və Qarabağ öz azadlığına, Azərbaycan da öz Qarabağına qovuşdu. Bu da taleyin xoş qismətidir ki, Hüseyn Sözlü indi azad Qarabağımızın ucalmasını tərənnüm eləyir:



*Günü-gündən ucalan bir vətənin övladıyam,*
*Mənə candan da əziz, sevgili yar məmləkətim...*

Vətənə olan səmimi sevgi Hüseyn Sözlünün insana, təbiətə, bizi boya-başa çatdıran yurda münasibətində də özünü göstərməkdədir. Dağlar diyarı Naxçıvanda, Şərurda dünyaya gələn Hüseyn müəllimin mənalı ömrünün böyük bir hissəsi dənizlə bağlıdır. Onun dəniz sevgisi, dənizə bağlılığı "Dənizçilər marşı"nın həm sözlərində, həm də musiqisində gözəl ifadə olunub. Burada təntənə ilə yanaşı, dəniz həyatının, dənizçi ömrünün romantikası diqqətdən yayınmır:

***Oxşayıb xəzri sizi,***
***Gilavar layla çalıb.***
***Beşiyiniz - dalğalar,***
***Ananız dəniz olub...***

Bu yazının əvvəlində qeyd etdiyim kimi, Hüseyn Sözlünün yaradıcılığının bir qanadını musiqi əsərləri təşkil edir. Onun yaradıcılığında çeir və musiqi bir-biri ilə sıx bağlıdır və bunları bir-birindən ayırmaq, bir-birindən təcrid olunmuş halda nəzərdən keçirmək çətindir. Xüsusilə son vaxtlar tamamlayıb nəşr etdirdiyi "Divan"ına daxil olan şeirlərin həm məzmunu, həm də səslənməsi tükənməz hikmət xəzinəmiz olan muğam sənəti ilə doğma ana-bala kimi yaxından səsləşir...

Türkiyəli musiqiçi, müğənni-bəstəkar Tuncay Yalınla Hüseyn Sözlünün əməkdaşlığının əhatə dairəsi isə sadəcə sənətlə bağlı dostluq münasibətləri çərçivəsində qalmır, daha geniş məna və məzmun daşıyır.

Ulu Öndərimizin müəyyənləşdirdiyi "bir millət, iki dövlət" təməlinə dayanan bu dostluq Türkiyədə Azərbaycan mədəniyyətinin təbliği və tanıdılması üçün müstəsna əhəmiyyət kəsb etməkdədir...

Bir müddət bundan əvvəl sosial mediada qarşıma maraqlı bir paylaşım çıxmışdı. Payaşılan videoda Türkiyənin məşhur kurort şəhəri Antalyada, çoxlu insanların bir araya gəldiyi konsert salonunda Tuncay Yalın Hüseyn Sözlünün bəstələdiyi mahnını oxuyur:

***Azərbaycan, ata yurdum,***
***Həp seni arayıb durdum.***
***Bilsən nə xəyallar qurdum,***
***Həp adını ana-ana...***

Tuncay Yalın mahnını oxuyarkən səhnəyə bir qadın çıxıb, səhnədə Azərbaycanın bayrağını açır. Tamaşaçılar Türkiyə ilə Azərbaycanın qoşa bayraqlarını və mahnının ifaçısını alqışlayırlar.

Bu səhnə özümdən ixtiyarsız gözlərimin qarşısına sonu şanlı Zəfərlə bitən 44 günlük Vətən müharibəsi günlərində ölkəmizin hər yerində bir millətin, iki dövlətin bayraqlarının yan-yana dalğalandığını gətirdi...

Bu gün Türkiyə Cümhuriyyətinin konsert salonlarında Hüseyn Sözlünün dostluğu, qardaşlığı, birliyi tərənnüm edən mahnılarının səsləndirilməsi və sevilməsi möhtəşəm birliyimizin necə dərin mənəvi köklərdən gəldiyini dünyaya bir daha nümayiş etdirir...

... Şair bəzən başqalarının yanında üzə vura bilmədiyi, ürəyində gəzdirdiyi sirlərini, məhrəm hesab etdiyi duyğularını şeirdən gizləyə bilmir. Özünün həyat haqqında düşüncələrini, sevincini, kədərini, sevgisini, nifrətini şeirlə bölüşür. Bu mənada, Hüseyn Sözlünün "Şeirim" rədifli qoşması onun şeirə də, oxucuya da münasibətinin səmimiyyətini ifadə edir:

***Tənhalıqda öz-özümlə qalanda,***
***Keçmişləri bir-bir yada salanda,***
***Fikrə gedib xəyallara dalanda***
***Ürəyimdən keçən "eh"di şeirim...***
***Sözlüyəm, nə yazdım izimdə qaldı,***
***Misralarım dözdü, dözümdə qaldı,***
***Hələ yazılmamış sözüm də qaldı***
***Gələcəyə olan behdi şeirim...***

**İndiyə qədər yazdıqları ilə ədəbiyyatın və sənətin yaddaşında iz qoyduğunu, misralarının zamanın sınağına dözdüyünü, yazdıqlarının "beh" olduğunu əminliklə deməyə Hüseyn Dədənin haqqı var. İndi o, ömrünün zirvə dövrünü yaşayır və bu zirvədən keçmiş də, gələcək də daha aydın görünür...**

## *Yer üzündə həddən artıq insan var*

**Bəşəriyyətin sayı artıq Yer kürəsinin mövcud resurslardan istifadə şəraitində davamlı şəkildə təmin edə biləcəyi səviyyəni keçib.**

Adalet.az xarici mətbuata istinadən xəbər verir ki, bu nəticəyə iki əsrlik məlumatları təhlil edən tədqiqatçılar gəliblər. Nəticələr "Environmental Research Letters" jurnalında dərc edilib. Alimlər təbii resurslar tükənmədən Yer üzündə neçə insan yaşayaya biləcəyini açıqlayıblar. Onların fikrincə, hazırkı şəraitdə optimal əhali sayı təxminən 2,5 milyard nəfərdir. Halbuki Yer əhalisi artıq 8 milyardı keçib.

Tədqiqatda qeyd olunur ki, əhalinin sürətli artımı əsasən fosil yanacaqlar sayəsində mümkün olub. Bu resursların mövcudluğu müvəqqəti olaraq imkanları artırıb və yüksək istehlak səviyyəsini dəstəkləyib. Lakin bu effekt davamlı deyil: belə yanacaqlardan asılılıq iqlim dəyişikliyi də daxil olmaqla ekoloji problemləri daha da gücləndirir. Alimlərin fikrincə, yaxın onilliklərdə əhali artımı yavaşlayacaq, amma tam dayanmayacaq. XXI əsrin ikinci yarısında əhali sayının 11-12 milyarda çatacağı ehtimal edilir.

Enerji, su, torpaq və qida istifadəsində ciddi dəyişikliklər olmazsa, təbiətə olan təzyiq daha da artacaq və bu da qlobal qeyri-sabitliyə səbəb olacaq.

## *Suçiçəyi ilə bağlı narahatlıq*

**Hazırda ölkə ərazisində uşaq və böyüklər arasında suçiçəyi xəstəliyinin yayılması ilə bağlı xəbərlər yayılıb. Həkim və bəzi tibb ekspertləri əhali arasında xəstəliyin yenidən alovlandığını iddia edirlər.**

Adalet.az xəbər verir ki, mövzu ilə bağlı Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən Trend-ə bildirilib ki, suçiçəyi xəstəliyi mövsümi xarakter daşıyır və adətən payız-qış aylarında daha çox qeydə alınır. Məlumata görə, hazırda ölkə üzrə xəstəliyin kütləvi yayılması halları müşahidə edilmir: "Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən yoluxucu xəstəliklərin profilaktikası istiqamətində mütəmadi tədbirlər davam etdirilir və epidemioloji vəziyyət daim nəzarətdə saxlanılır. Yoluxma riskinin azaldılması məqsədilə vətəndaşlara xəstə şəxslərlə təmasdan çəkinmək, əlləri mütəmadi yumaq, şəxsi gigiyena qaydalarına riayət etmək, xəstəlik əlamətləri müşahidə olunduqda isə vaxtında tibb müəssisələrinə müraciət etmək tövsiyə olunur", - məlumatda qeyd olunub.

# SULTAN MƏCİD QƏNİZADƏNİN MAARİFÇİLİK İDEYALARI



*Göyərçin MUSTAFAYEVA*

**XIX əsrin sonu XX əsrin əvvəllərində yaşamış, xalqın maariflənməsi uğrunda böyük xidmətlər göstərmiş ziyalı, pedaqoq və yazıçı Sultan Məcid Qənizadə 1866-cı ildə Şamaxı şəhərində anadan olmuşdur. Ziyalı tacir ailəsində doğulan S.M.Qənizadə uşaq yaşlarında oxumağı atasından öyrənir. S.Ə.Şirvaninin isuli-cədid məktəbində oxuyub bir neçə dil öyrənən Qənizadə 1883- cü ildə Tiflisdəki Aleksandrovski Müəllimlər İnstitutuna daxil olur. Təhsil aldığı İnistitutun onun bir yazıçı və maarif xadimi kimi yetişməsində mühüm rolu olur. O, cəmiyyətin inkişafının yalnız elm və təhsil yolu ilə mümkün olduğuna inanırdı və bütün həyatını bu ideyaya həsr etmişdi.**

"Ziyayi-Qafqasiyyə" bağlanmamışdan qabaq Tiflisdə Səid Ünsizadənin kiçik qardaşı Cəlal Ünsizadənin redaktor-naşirliyi ilə " Kəşkül" məcmüəsi ( sonralar qəzet şəklində çıxmışdır) nəşrə başlandı. Maraqlıdır ki, XIX əsrdə Azərbaycan türk dilində intişar tapan bütün mətbuat orqanlarının ("Əkinçi", "Ziya", "Ziyayi Qafqasiyyə", Kəşkül") redaktor-naşiri Şamaxı ictimai-ədəbi mühitindən çıxmışdır. Təkcə bu fikrin özü XIX əsrin sonlarında Şamaxı ədəbi-ictimai mühitinin necə potensial imkanlara malik olduğundan xəbər verir. Bunun nəticəsi idi ki, XX əsrin əvvəllərində ədəbi-ictimai-mədəni mübarizə meydanına Şamaxıdan Ə. Sabir, M. Hadi, A. Səhhət, S. M. Qənizadə (XIX əsrin sonlarından), Mahmudbəy Mahmudbəyov və b. şəxsiyyətlər atılaraq geniş fəaliyyət göstərib Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində silinməz izlər qoydular".

O dövr Çar Maarif Nazirliyinin qərarına görə islam dininə mənsub olan tələbələr İnistutu bitirdikdən sonra şəhər məktəbində dərs deyə bilməzlər. Bu ədalətsiz qərar Sultan Məcid Qənizadə və tələbə yoldaşının kənd məktəbinə təyin olunmasına səbəb olur.

1887-ci ildə Qənizadə tələbə yoldaşı və gələcəkdə silahdaşı olacaq Həbibbəy Mahmudbəyovla (1864-1928) Bakıya qayıdaraq burada "Rus-Azərbaycan məktəbi" adlı yeni bir ibtidai məktəbin təməlini qoydular. Bu məktəbdə əsas ana dili öyrədilir və bu dillə yanaşı rus, fars, coğrafiya, tarix, fənlərində də təhsil verilirdi. Az bir müddətdə bu məktəbin şöhrəti hər yerə yayılır və belə məktəblər Azərbaycanın bir neçə rayonlarında da açılır.

S.M. Qənizadənin müəllimlik fəaliyyəti ilə yanaşı yaradıcılıq fəaliyyəti də inkişaf edir. O, ədəbi yaradıcılığa əsrin sonlarında başlayır. Uşaqlar üçün yazdığı "Tülkü və Çaq-çaq bəy" mənzum hekayəsi (1894), "Məktubati-Şeydabəy Şirvani" başlığı altında nəşr etdirdiyi "Müəllimlər iftixarı"(1898), "Gəlinlər həmayili", "Allah divanı" (1896) bu kimi əsərlər 1890-ci illərdən sonrakı dövrün məhsuludur. Bu illərdə Qənizadənin Azərbaycanın teatr sahəsindəki inkişafında da böyük xidmətləri olmuşdur. Onun Hüseyn Ərəblinskinin səhnəyə gəlməsində rolu olub və 1898-ci ildə ədibin rejissorluğu ilə "Sərgüzəşti-vəziri-xani-Lənkəran" komediyasının ilk tamaşasını səhnəyə hazırlayıb.

Sultan Məcid Qənizadə yaradıcılığında meydana çıxan yeni keyfiyyətlər XIX əsrin axırlarında ümumən Azərbaycan ədəbiyyatında maarifçilik ideyalarının getdikcə kamilləşdiyini göstərməkdədir. Ədibin "Gəlinlər həmayili"dilogiyası, "Allahın xofu", "Sərgüzəşt, yaxud Məşədi Qurbanın dəftərçəsindən bir nəbzə" və s. əsərlərində qabarıqlığı ilə üzə çıxan maarifçi baxışlara görə, məktəb və maarifi inkişaf etdirmək hər bir millətin inkişafı kimi başlıca vasitədir.

Sultan Məcid Qənizadənin fikrincə, "əqsayi-aləmdə baş qaldıran mədəniyyət trəqqisi görübən arzusun diləyən bir millətin o tərəqqinin tərtiblərin də bilmək borcudur Bu sözlərdən muradım tərəqqi tərtibiniz mülahizəsidir ki, tərəqqiyi-səlmiyyətin əvvəlinci pilləsi məktəbxana astanasından başlanır. Əsrimizin təqazası buna olduqda o, təqazaya müvafiq əməl lazımdır".

S.M. Qənizadəyə görə müəllimin öz soydaşlarına verdiyi nemətin qiyməti xalqın taleyində onun oynadığı rolla ölçülür. Ona görə də həmin nemətə bütün millətlər möhtacdır: " Bəradərin, bizim əqidəmizə sədəqə nə nəzir belə qaytarır və hər kəs öz kəsb və varından sədəqə verər. Müəllimin sədəqəsi zəmirindəki nicat kasasının şərbətidir ki, əbnayi-millət ona mustəhhəqdirlər".

"Gəlinlər həmayili" əsərində qeyd olunur ki, nümunəvi cəmiyyətin yarandığını o vaxt iddia etmək olar ki, xalq elmli olmaqla bərabər, insanlıq üçün tələb olunan digər mənəvi-əxlaqi keyfiyyətlərə də yiyələnmiş olsun.

"Allahın xofu" əsərində S. M. Qənizadə göstərir ki. "vicdanın hökmran oldugu yerdə insan öz nəfsinin əsiri olmayıb, agıl və xəmis əxlaqın, düzlük və halallığın, nəfs toxlugunun qanunları ilə hərəkət etsə arzuladığımız cəmiyyəti yaratdığımıza əmin olarıq".

Bütün ömrü boyu gözəl gələcək, işıqlı cəmiyyət uğrunda mübarizə aparmış S.M. Qənizadə, bu cəmiyyətin əlbəttə məktəbin və vətənpərvər müəllimlərin sayəsində qurulmalı olduğunu əsərlərində daima əks, etdirmişdir.

"Sərgüzəşt, yaxud Məşədi Qurbanın dəftərçəsindən bir nəbzə" əsərinin ideyasında müəllif milli mənlik duyğusundan məhrum olan, ətalət və kəsalət basmış Məşədi Qurban kimi şüurlu insan, "millətin tərəqqi" edə bilmədiyini qeyd edir. Müəllif əsərdə Məşədi Qurban kimi başqa millətlərə yaltaqlanıb öz millətinə qəddarlıq, ədalətsizliyi ilə milli-mənəvi keyfiyyətlərdən uzaq olan yalnız öz bogazını düşünən belə tipləri tənqid edərək, xalqı da belə sifətlərdən azad olmağa səsləyir.

XIX əsrin sonlarında S.M. Qənizadə yaradıcılığının cəmiyyətin tərəqqisi üçün məktəb və maarifin inkişafı yolunda çox böyük xidmətləri olmuşdur. Lakin XX əsrin əvvəllərindən başlayaraq ictimai-tarixi hadisələrin inkişafı Qənizadənin də dünyagörüşündə inqilabi ideyaların meydana gəlməsində və əsərlərində öz əksini tapmasında böyük rolu olur. Bu dövrdə Azərbaycanin ədəbi mühitində maarifçiliyə meyil daha da gücləndi.

S.M. Qənizadə Qori Müəllimlər Seminariyasının məzunlarından idi və bir maarifçi demokrat kimi ədəbiyyata meyli güclü idi. O, da öz qələmdaşları kimi daha çox epik əsərlər yazıb xalqını tərəqqiyə çağırırdı. Ədibin fikrincə "....Hərgah şeir yazmaqla bir nəfərin mənzur şöhrət olmuş olsa da, bisəkk ki, yenə öz əsrinə xidmət etməklə muradına nail ola bilər".

"O, həm şairdir ("Tülkü və Çaqqal bəy") həm mənzum hekayəçi, həm romançı ("Seydabəyin məktubları" və "Ədalət divanı"), həm tərcüməçi ("Əvvəlimci şərabçı"), həm də müxtəlif dilləri yaxşı bilən bir mütəxəssis ("İstilahi-Azərbaycan-türki" və "Lüğəti-rusi və türki"). Onun dili obrazlıdır, rəngarəngdir və müdrik Şərq təşbehləri ilə bəzənmişdir. Lakin onun dili bəzən o qədər də aydın və dəqiq olmur".

"Məktubati-Şeydabəy" sərlövhəsiylə yazdığı "Müəllimlər iftixarı" və "Gəlinlər həmayili" adlı kitabçalar Qənizadənin iqtidarçı bir ədib olduğunu bildirir. Bu əsərlərin hər birində təzə fikirlər, vüsətli xəyallar, dərin mənalar, nazik işarələr, gözəl əqidələr var ki, hər kəsə onları oxumağı tövsiyə edirik".

XX əsrin əvvəllərində Qənizadənin ədəbi-pedaqoji fəaliyyəti getdikcə daha da genişlənir. Bu dövrdə bir-birinin ardınca "Lüğəti-rusi və müsəlmani" (1902), "Samauçitel tatarskoqo yazika" (1902), "İstilahi-Azərbaycan" (1904), fars dilində yazdığı "Kəlidi-ədəbiyyat"(1901) kimi elmi-pedaqoji əsərləri millətin inkişafında, savadlanmasında, təlim-tərbiyəsində mühüm rol oynayır.

1905-1908-ci illərdə ədib Gürcüstanın Qori şəhərində yerləşən Zaqafkaziya Müəllimlər Seminariyasında çalışır.

S.M.Qənizadənin ilk və ən böyük romanı "Məktubatı-Şeydabəy Şirvani" əsəridirki, əsərdə o, əsərin əsas surəti olan Şeydabəyi zamanın elmli, gözüaçıq, xalqını sevən, onu mədəni və xoşbəxt görmək arzusu ilə çırpınan qabaqcıl ziyalı kimi. Şeydabəyə görə müəllimlik dünyanın ən şərəfli işidir. Romanda Şeydabəyin maarifçiliyə, elmə, mədəniyyətə qızğın çağırışları Azərbaycanda XX əsrin sonları üçün də mütərəqqi bir çağırış idi. Müəllif bu surəti yaratmaqla sanki "Qənizadə"nin fəaliyyətini, onun milləti üçün çəkdiyi fədakarlığı əks etdirir.

"Məktubati-Şeydabəy Şirvani"nin birinci hissəsində -"Müəllimlər iftixarı"nda əks etdirilmişdir. Romanın "Gəlinlər həmayili" adlanan ikinci hissəsində müəllif qəhrəmanı tədriclə inkişaf etdirib və ona yeni ictimai, əxlaqi keyfiyyətlər aşılamışdır. "Gəlinlər həmayili" üç xətt üzərində inkişaf etsə də, yenə də əhvalatların mərkəzində Şeydabəy dayanır. Bu xətlər inkişaf etdikcə Şeydabəy qarşımızda atəşim bir maarifçi, hümanist bir mütəfəkkir kimi canlanır".

Qənizadənin pedaqoji fəaliyyətini araşdıran F. Köçərlinin dediyi kimi "...öhdəsinə götürdüyü vəzifələri layiqi ilə yerinə yetirib, şöbənin və müsəlman şagirdlərinin haqlarını və ixtiyarlarını mühafizə etmək üçün səy və qeyrətlə çalışmışdır".

Bu dövrdə Qənizadə Azərbaycan maarifini çiyinlərində daşıyırdı və yüksək hörmətlə sayılıb secilirdi.

1965-ci ildə Abbas Zamanovun Sultan Məcid Qənizadənin "Seçilmiş əsərləri" kitabına yazdığı "Yazıçı, müəllim, maarif xadimi" başlıqlı ön sözdə, ədibin bu qədər fəaliyyətinin qaranlıq yönlərini açıqlayır:

"Qənizadənin ictimai, pedaqoji və ədəbi fəaliyyətinin kölgəli cəhətləri də vardır. Dünyəvi elmlər təhsil etməsinə baxmayaraq, o dini görüşlərdən yaxa qurtara bilməmiş, aşagıda görəcəyiniz kimi, bədii yaradıcılığında da dini motivlərə əl atmışdır. Həmçinin 1918-1919-cu illərdə S.Qənizadənin mürtəce ixtilat partiyasının sıralarına daxil olması, islamçılıq, müsəlmançılıq şuarlarına uyması, əlbəttə, onun tərəfindən böyük bir irtica idi.

Lakin hadisələrin sonrakı inkişafı göstərir ki, bu qocaman maarif xadiminin müvəqqəti aldanışları imiş. Belə ki, Azərbaycan Sovet hakimiyyəti qələbəsindən bir neçə gün sonra S. Qənizadə "Kommunist" qəzetinə göndərdiyi məktubda ("Kommunist" 6 may, 1920. №4) səhvlərini etiraf edib "kommunistlərlə işləməyə" hazır oldugunu bildirdi. Sovet hakimiyyəti qocaman maarif xadiminin səmimiyyətinə inanıb ona etimad göstərdi və Qənizadə də sonrakı fəaliyyəti ilə bu yüksək etimadı şərəflə doğrultdu" və sonra alim onu da qeyd edir ki, "S. Qənizadə 1937-ci ildə 72 yaşında ikən şəxsiyyətə pərəstiş dövründə hökm sürən qanunsuzluğun qurbanı olmuşdur".

Görkəmli ədəbiyyatşünas alim Abbas Zamanovun Qənizadə haqqında dediyi bu fikirlərin, dövrünün tələblərinə, Sovet hakimiyyətinin arzuolunmaz istəklərinə uyğun düşüncələr olduğu aşkardır. İstər-istəməz 1920-ci illərin şimal küləyi Qənizadə yaradıcılığına, onun milləti üçün etdiyi çabalara da öz təsirini göstərirdi.

Bunu Qənizadə özü də hiss etdiyindən belə bir məktubla müraciət edərək qarşıda Azərbaycan ziyalılarını gözləyən təmizləmə əməliyyatından qorunmaga çalışsa da, qorxunc 37 ədibdən yan keçmir. Lakin sevindirici hall odur ki, Allah Qənizadəyə yaradıcılıq fəaliyyətində, millətinin savadlanması yolunda uzun bir ömür nəsib etmişdir.

**Azadlıq, istiqlal yolunda bilik və bacarığını ömürlərinin sonuna qədər fəda edən, düşünən və düşündürən ziyalılarımızın məhv olması üçün ölümün ən qorxunc formalarından istifadə edən Sovet hakimiyyətinin xofunun, əsrin sonlarına qədər davam etməsi, bir çox tənqidçilərimizin araşdırmalarından öz təsirini açıq-askargöstərmişdir. Heç şübhəsiz ki, Abbas Zamanov və digər tənqidçi alimlərimiz müstəqillik dövründə yaşayıb yaratsaydılar, millətin, dövlətin inkişafı üçün hər bir fədakarlığa sinə gərən Qənizadə və digər yazarların yaradıcılığına bir də nəzərsalma imkanları olsaydı, yəqinki, onların fəaliyyətlərindəki "qaranlıq məqamları" başqa yöndən qiymətləndirərdilər. S.M.Qənizadə Azərbaycan tarixində maarifçilik hərəkatının önəmli simalarından biri olaraq gördüyü işlər bu gün də öz aktuallığını qoruyur və gəncləri elmə, təhsilə dəyər verməyi öyrədir.**

## "Bakcell" ilə ingilis dilini "Singit" tətbiqində öyrən




**İnnovasiya lideri "Bakcell" abunəçiləri üçün "Singit" xidmətinə çıxış imkanı yaradır. Xidmət ingilis dilini öyrənmə prosesini daha praktik və gündəlik vərdişə çevirərək, musiqi əsaslı yanaşma ilə istifadəçilərə dili daha rahat mənimsəməyə imkan verir.**

"Singit" tətbiqi istifadəçilərə sevdikləri mahnılar üzərindən dinləmə və tələffüz bacarıqlarını inkişaf etdirməyə şərait yaradır. Tətbiqdə təqdim olunan süni intellekt funksiyası isə danışıq bacarıqlarının praktik şəkildə inkişafına dəstək verir.

Bununla yanaşı, istifadəçilər sözlərin Azərbaycan dilinə tərcüməsini birbaşa tətbiq daxilində əldə edərək öyrənmə prosesini daha rahat və ardıcıl şəkildə davam etdirə bilirlər.

Xidməti "Bakcell" tətbiqi üzərindən və ya "singit" sözünü 4142 qısa nömrəsinə göndərməklə aktivləşdirmək mümkündür. Qeydiyyatdan sonra istifadəçiyə tətbiqi yükləmək üçün keçid təqdim olunur və abunəlik həmin andan etibarən aktivləşir. Ətraflı məlumat üçün *4142# yığmaq mümkündür.

"Singit" xidməti ilk 30 gün ərzində pulsuz təqdim olunur. Daha sonra xidmət aylıq 5 AZN (30 gün) abunə haqqı ilə davam edir və ödəniş istifadəçinin qoşulduğu tarixə uyğun olaraq hər ay avtomatik şəkildə balansdan çıxılır.

"Bakcell" tərəfdaşlıqlar çərçivəsində abunəçilərinə müxtəlif rəqəmsal xidmətlərə rahat çıxış imkanı təqdim edir.

**"Bakcell" haqqında**

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan "Bakcell" süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

"Bakcell" müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

## Sürücülərə və şagirdlərə müraciət

**"Məktəb ətrafı ərazilərdə hərəkət edən sürücülər və piyadalar xüsusi diqqətli olmalıdır. Sürücülər sürət həddini minimuma endirməli, piyada keçidlərinə yaxınlaşarkən daha ehtiyatlı olmalı və uşaqların qəfil yola çıxma ehtimalını nəzərə almalıdırlar".**

Adalet.az xəbər verir ki, bu barədə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin (MÜTDA) məlumatında deyilir.

"Piyadalar, xüsusilə şagirdlər, yolu yalnız müəyyən olunmuş keçidlərdən istifadə etməli, diqqəti yayındıran amillərdən uzaq durmalıdır.

Valideynlər isə uşaqlara yol hərəkəti qaydalarını mütəmadi izah etməli və onlara şəxsi nümunə göstərməlidirlər.

Unutmayaq ki, təhlükəsiz mühit yalnız qaydalara riayət etdikdə mümkündür. Qaydalara riayət etmək isə sürücülərin, piyadaların və digər yol iştirakçılarının təhlükəsizliyini təmin edir", - deyə qurumun müraciətində deyilir.

# OBRAZLI HEKAYƏLƏR TOPLUSU



**Gülnar QƏMBƏROVA,**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Müasir Azərbaycan ədəbiyyatında Coşqun Xəliloğlu daha çox şair kimi tanınsa da, onun nəsr yaradıcılığı da ideya-məzmun dərinliyi və bədii-estetik axtarışları ilə diqqəti cəlb edir. Bu yaxınlarda onun tanınmış və istedadlı yazıçı Beynəlxalq Andersen Şəref Diplomu və Azərbaycan Mədəniyyət Nazirliyinin "Qızıl Kəlmə" mükafatı laureatı, yazıçı Qəşəm İsabəylinin rəhbərlik etdiyi "Şirvannəşr"də "Avtoqraflı kitab" adlı hekayələr kitabı işıq üzü görmüşdür.**

Kitabda toplanmış nəsr əsərləri dövrün ictimai-mənəvi problemlərini, insanın daxili aləmini və zamanla münasibətlərini bədii müstəvidə əks etdirir. Bu baxımdan Coşqun Xəliloğlunun nəsri müasir insanın psixoloji durumunu, mənəvi sarsıntılarını və dəyərlər sistemində baş verən dəyişiklikləri anlamaq baxımından əhəmiyyətli mənbə kimi çıxış edir.

Yazıçının nəsrində əsas diqqət insan və zaman münasibətlərinə yönəlmişdir. Müəllif qəhrəmanlarını mürəkkəb ictimai proseslərin təsiri altında formalaşan fərdlər kimi təqdim edir və onların daxili dünyasında baş verən ziddiyyətləri ön plana çəkir. Yazıçının dil və üslub xüsusiyyətləri də onun nəsr yaradıcılığının əsas keyfiyyətlərindəndir.

Hekayələrdə zaman anlayışı xronoloji ardıcıllıqdan daha çox psixoloji və fəlsəfi müstəvidə təqdim olunur. Keçmiş xatirələr, uşaqlıq yaddaşı, itirilmiş dəyərlər və zamanın insan taleyində yaratdığı izlər əsərlərin bədii strukturunda mühüm yer tutur. Yaddaş yazıçının nəsrində yalnız fərdi təcrübənin ifadəsi deyil, həm də milli kimliyin və mənəvi dəyərlərin qorunması vasitəsi kimi çıxış edir.

Topludakı hekayələrin dil və üslub xüsusiyyətləri Coşqun Xəliloğlunun nəsr yaradıcılığının səciyyəvi cəhətlərini aydın şəkildə əks etdirir. Mətnlər sadə, aydın və anlaşılan dildə yazılmış, canlı danışıq üslubu ilə zənginləşdirilmişdir. Hekayələrdə ironiyanın və yumorun yerində, ölçülü istifadəsi hadisələrin dramatikliyini yumşaldır, eyni zamanda sosial reallıqlara tənqidi baxışı gücləndirir.

Coşqun Xəliloğlunun "Avtoqraflı kitab" toplusunda yer alan "Azman sənətkar" hekayəsi müəllifin yaradıcılığında yalançı şöhrət və saxta "istedad" problemini ən kəskin şəkildə ifadə edən bədii mətnlərdən biri kimi diqqəti cəlb edir. Hekayə kitabın ümumi ideya xətti ilə üzvi şəkildə səsləşərək müasir ədəbi-mədəni mühitdə mənəvi deformasiyaların satirik təhlilini təqdim edir. Müəllif bu mətndə istedadsızlığın pul, əlaqə və süni təbliğat vasitəsilə "şöhrətə" çevrilməsi mexanizmini açıq və təsirli bədii ümumiləşdirmə səviyyəsinə yüksəldir.

Müəllifin satirası açıq ittiham formasında deyil, incə bədii detallar və ironik situasiyalar vasitəsilə təqdim olunur. Bu isə hekayənin təsir gücünü artırır və oxucunu birbaşa hökm verməkdən daha çox düşünməyə vadar edir. "Azman sənətkar" hekayəsi "Avtoqraflı kitab" toplusunda təkcə fərdi mənəviyyatın deyil, həm də ədəbi-mədəni mühitin deformasiyasına yönəlmiş ciddi bədii xəbərdarlıq kimi çıxış edir.

Coşqun Xəliloğlunun "Avtoqraflı kitab" adlı nəsr toplusunda insan taleyi, səhv seçimlər və nicat yolu aparıcı ideya xətti kimi çıxış edir. Bu baxımdan kitabda yer alan "Qaryağdı əminin bəxşişi" hekayəsi həm emosional təsir gücü, həm də mənəvi-psixoloji yükü ilə xüsusi diqqət çəkir. Müəllif bu hekayədə müasir cəmiyyət üçün son dərəcə aktual olan problemləri - narkomaniya, gəncliyin yanlış həyat seçimləri və sosial laqeydliyi - dərin psixoloji təsvirlər vasitəsilə təqdim edir. Hadisələrin mərkəzində duran insan taleyi yalnız fərdi faciə kimi deyil, bütövlükdə cəmiyyətin mənəvi məsuliyyətsizliyinin nəticəsi kimi ümumiləşdirilir.




Hekayədə Qaryağdı əmi obrazı xüsusi ideya yükü daşıyır. O, klassik ədəbiyyatda rast gəlinən "xeyirxah ağsaqqal" tipinin müasir bədii variantı kimi təqdim olunur. Qaryağdı əmi nə müdrik filosofdur, nə də nəsihət verən müəllim. Onun gücü sadəliyində, əməli mərhəmətində və insani münasibətindədir.

"Avtoqraflı kitab" toplusunda vicdan, peşmanlıq və mənəvi məsuliyyət mövzuları "Peşmanlıq əzabı" hekayəsində daha dərin və fəlsəfi müstəvidə təqdim olunur. Bu əsərdə hadisə xəttindən daha çox qəhrəmanın daxili dünyası, onun xatirələri və vicdanla üz-üzə qalması ön plana çəkilir. Hekayənin strukturunda daxili monoloqlar əsas yer tutur və oxucu qəhrəmanın psixoloji sarsıntılarını birbaşa hiss etmək imkanı qazanır.

Coşqun Xəliloğlunun "Avtoqraflı kitab" toplusunda yer alan hekayələrdə məişət yumoru və sosial ironiya mühüm bədii ifadə vasitəsi kimi çıxış edir. Yazıçı "Quruçay" və "Orqan" kimi hekayələrində sovet dövrünə xas bürokratik absurdluğu, savadsızlığın və mənəvi kasadlığın özünü cəmiyyət içində "böyük adam" kimi təqdim etməsini incə yumor və satirik baxışla ifşa edir.

"Avtoqraflı kitab" toplusunda diqqət çəkən digər mühüm mövzulardan biri ikiüzlülük və şəxsiyyət problemidir. "Ekiz qardaşlar" hekayəsi bu baxımdan rəmzi məna daşıyan əsər kimi seçilir. Hekayədə ekiz qardaşlar eyni simaya malik olsalar da, mənəvi keyfiyyətləri və həyat mövqeləri baxımından tamamilə fərqli insan tiplərini təcəssüm etdirirlər. Bu qarşılaşdırma vasitəsilə müəllif cəmiyyətdə məsuliyyətli və məsuliyyətsiz insan modelini üz-üzə gətirir.

"Avtoqraflı kitab" toplusunda Coşqun Xəliloğlu məişət yumoru, sosial ironiya və rəmzi obrazlar vasitəsilə cəmiyyətin mənəvi problemlərini, insan xarakterindəki ziddiyyətləri və sosial ədalətsizlikləri ustalıqla bədii müstəviyə gətirir.

Coşqun Xəliloğlunun "Avtoqraflı kitab" toplusunda " Hər uşaq bir dünyadır" başlığı altında hekayələr yer almışdır. Əsərlər vahid bədii-estetik xətt üzərində qurulmuş və bütövlükdə müasir Azərbaycan uşaq nəsrinin xarakterik xüsusiyyətlərini əks etdirir. Bu mətnlərdə müəllif uşağın dünyanı dərk etmə prosesini, onun gündəlik həyatla bağlı müşahidələrini, anlaşıqlı və səmimi dil vasitəsilə təqdim edir. Əsərlərin əsas üstünlüyü ondadır ki, müəllif uşaqlara nəsihət vermir, onları mühakimə etmir, hadisələri olduğu kimi göstərir və nəticə çıxarmağı oxucunun ixtiyarına buraxır.

Topluda alleqorik düşüncə ilə yazılmış nağılvari mətnlər də mühüm yer tutur. Bu tip əsərlərdə xeyir və şər, təvazökarlıq və lovğalıq, dürüstlük və məsuliyyətsizlik kimi anlayışlar simvolik obrazlar vasitəsilə təqdim edilir.

"Avtoqraflı kitab"da toplanmış əsərlər həm bədii, həm də tərbiyəvi baxımdan bütöv və sistemli bir mətnlər silsiləsi təşkil edir. Coşqun Xəliloğlu uşaq ədəbiyyatının əsas prinsiplərinə sadiq qalaraq, uşağın dünyasını dərindən anlayan, onun psixologiyasına uyğun yazan və milli-mənəvi dəyərləri müasir bədii düşüncə ilə birləşdirən müəllif kimi çıxış edir.

Ümumilikdə "Avtoqraflı kitab" həyatın özündən doğan, gündəlik müşahidələrə əsaslanan, oxucunu silkələyən və düşündürən, məna baxımından dərin və obrazlı hekayələr toplusu kimi dəyərləndirilə bilər. Coşqun Xəliloğlunun nəsri burada səmimiliyi, müşahidəyə əsaslanan bədii yanaşması və cəmiyyətin çox vaxt diqqətdən kənarda qalan mənəvi-sosial problemlərinə toxunması ilə seçilir. Müəllif oxucunu bəzən güldürür, bəzən düşündürür, bəzən isə kövrəldir və bu emosional müxtəliflik əsərin əsas bədii keyfiyyətlərindən birinə çevrilir.

**"Avtoqraflı kitab" xüsusilə sosial nəsrə, psixoloji hekayələrə və realist ədəbiyyata maraq göstərən oxucular üçün dəyərli nümunədir. Kitab müasir Azərbaycan nəsrində insan və cəmiyyət münasibətlərinin səmimi, bəzəksiz, lakin təsirli bədii ifadəsi kimi diqqəti cəlb edir və müəllifin nəsr yaradıcılığının mühüm mərhələsini təmsil edir. İnanırıq ki, Coşqun Xəliloğlunun əvvəlki kitabları kimi bu kitabı da oxucular tərəfindən maraqla qarşılanacaq və sevilərək oxunacaqdır. Biz də öz növbəmizdə müəllifə yen-yeni yaradıcılıq uğurları arzulayırıq.**

# "İnsan ticarəti–Qəsdən ölüm" kitabı İstanbulda ictimaiyyətə təqdim edilib




**İstanbulda Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvü, şair-yazıçı Rafiq Ələkbərin Türkiyə türkcəsinə tərcümə edilən iki detektiv romanından ibarət "İnsan ticarəti-Qəsdən ölüm" adlı kitabının təqdimatı olub.**

Zəngin yayın evi (Zengin yayıncılık) tərəfindən tərcümə və çap edilən kitabın baş redaktoru Sevinc Fıratdır. Kitabın Türk Ədəbiyyat Vəqfində baş tutan təqdimat mərasimində yazıçı ilə yanaşı, Sevinc Fırat və "Çapar" nəşriyyatının baş redaktoru Dilqəm Əhməd çıxış ediblər.




Mərasimdə Rafiq Ələkbərin həyat və yaradıcılığı barədə danışılıb, onun müxtəlif illərdə işıq üzü görən kitabları, layiq görüldüyü təltif və mükafatlar, eləcə də tərcümə edilən yaradıcılıq nümunələri haqqında məlumat verilib.

Bildirilib ki, ötən əsrin 80-ci illərindən bədii fəaliyyətə başlayan Rafiq Ələkbər yaradıcılığının ana xəttini Türkçülük və Turançılıq, Vətənə və torpağa bağlılıq təşkil edib.

**Sonda müəllif kitabları imzalayaraq iştirakçılara təqdim edib.**

# Azərbaycan mədəniyyəti Belçikada təbliğ olunur

**Belçikada fəaliyyət göstərən BUTAM Azərbaycan Mədəniyyət Assosiasiyasının təşkilatçılığı və Azərbaycanın bu ölkədəki səfirliyinin dəstəyi ilə Belçikanın Valloniya bölgəsində yerləşən Verviers şəhər Konservatoriyasında Azərbaycan mədəniyyətinə həsr olunmuş tədbir keçirilib.**

Konservatoriyanın direktoru Bernard Lange belə mədəni təşəbbüslərin əhəmiyyətini vurğulayıb.

BUTAM-ın rəhbəri Yasəmən Abbasi təşkilatın fəaliyyətindən bəhs edib, Verviers Konservatoriyasının rəhbərliyinə əməkdaşlıq üçün təşəkkürünü çatdırıb.



Mədəniyyətlərarası əlaqələr üzrə belçikalı ekspert Mişel İvor Azərbaycan musiqisinin zəngin irsindən, onun beynəlxalq səviyyədə tanıdılmasının vacibliyindən danışıb.

Ölkəmizin Belçikadakı səfiri Vaqif Sadıqov Azərbaycan mədəniyyətinin Avropada təbliğinin önəmini qeyd edib, Azərbaycan və Belçika arasında inkişaf etməkdə olan ikitərəfli əlaqələr barədə məlumat verib.

Yüz əlli nəfərə yaxın belçikalı və əcnəbi qonağın iştirak etdiyi tədbirdə BUTAM təşkilatı tərəfindən Azərbaycan musiqisinin tarixi, bu sahədə tanınmış şəxsiyyətlər, muğam və milli musiqi alətləri haqqında geniş təqdimat edilib. Azərbaycanın milli musiqi alətləri - tar, kamança və qaval Verviers Konservatoriyasına hədiyyə edilib.

Daha sonra Niderlandda yaşayan azərbaycanlı musiqiçilər - Sadıx Ağamalıyevin, Emin Sadıxlının və Cavid Səlimovun iştirakı ilə musiqili proqram təqdim olunub.

Belçikada fəaliyyət göstərən digər Azərbaycan təşkilatı FireLand Azərbaycanlılar Birliyinin rəqs qrupu tərəfindən təqdim edilən milli rəqslər iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Tədbir Azərbaycan mədəniyyətinin Belçikada tanıdılması və mədəni əlaqələrin inkişafı baxımından əhəmiyyətli olub.




# BAYAT

№ 78 (938)







RAMİZ QUSARÇAYLI


## DƏN DAŞI

Gedəsən dünyanın axırınacan,
bir misra xətrinə ölüb gedəsən.
Qaçıb adamından naxırınacan
izini, tozunu silib gedəsən...

Səhərin zərində üzən lək kimi,
düzəsən sətrinə gül adlarını.
Tikana sancılan kəpənək kimi
meh döyə şeirinin qanadlarını.

Yemşan çiçəyində iynə gəzəsən,
tel-tel ləçəklənə arı köynəyi.
Buludlar içindən ayı süzəsən
yarpaqlar içindən sarıköynəyi...

Alasan könlünü şehli nərgizin,
bənövşə ovlaya hər kolda səni.
Coşa yamacların yovşan dənizi
yuyub dalğa-dalğa durulda səni.

... Üyütmə bu dərdi,
dən daşı çəkməz,
dərdini quzu tək qırpıb gedəsən.
Bu mizan-tərəzi mən daşı çəkməz
özünü daşlara çırpıb gedəsən...

Gedəsən, hər şeyi yarımçıq qoyub,
bir təbiət ola,
bir də bu ürək.
Dünyanın sonuna alaçıq qoyub
İşini qurasan qarışqalar tək...

## QUM ZƏMİSİ

Bu gün kitabımın birini satdım,
Bir kilo ət aldım balalarıma.
Bu gün də başımı şeirlə qatdım
Qafiyə tapmadım bəlalarıma ...

Seyr edib Qubanı Qız bənövşədən
Çırpdım ürəyimi qəm zəmisinə.
Çırpıldı kirayə çadırdan Vətən,-
Kirayə evimin zirzəmisinə.

Söz inad şumunda şişir dən kimi,
Dərddi misra-misra düzdüyüm mənim.
Yağış yaşıllığı çürüdən kimi
Çürüdür ömrümü düzlüyüm mənim.

Sığışmaz hər simə mən ötdüyüm səs,
Səs səsdən keçirər,
sim simdən məni.
Şahların şahı da ayıra bilməz
Gözəllər gözəli dərdimdən məni.

Doyub alın yazım alın tərimdən,
Qarası ağıyla qoşa tökülür.
Asmışam Vətəni kirpiklərimdən
Gözümdən Xocalı, Şuşa tökülür...

Hər giley oxunmaz üzümdən indi,
Yaşınmaz yaz ömrün qızıl günləri.
Boylanır şehlənən gözümdən indi
Kədərin Füzuli qızılgülləri!..

Bu gün kitabımın birini satdım,
Bir kilo ət aldım balalarıma.
Bu gün də başımı şeirlə qatdım
Qafiyə tapmadım bəlalarıma ...

## MƏN KƏNDDƏN ÇIXANDA GECƏ YARIYDI

Mən kənddən çıxanda gecə yarıydı,
Söyüdlər yol üstdə tellənirdilər.
Coşan ürəyimin duyğularıydı,
Sinəmdən süzülüb sellənirdilər.

Enib dərələrin, düzlərin üstə
Gecə öz diliylə layla deyirdi.
Baş qoyub dağların dizləri üstə
Yollar şirin-şirin mürgüləyirdi.

Mehlə sığallanıb nazilən otlar
Şehli nəvazişə bükülürdülər.
Ayağım altında əzilən otlar
Torpaqdan yapışıb dikəlirdilər.

Qönçələr çəmənə pıçıltı salıb
Yuxulu-yuxulu çiçəkləyirdi.
Yumru evlərini çiyninə alıb
İlbizlər izimlə iməkləyirdi.

Gedirdim, gecənin haysız-haraysız,
Həzin nəğməsindən doyammamışdım.
Qəlbimdə sübhədək oyaq qalan qız
Hələ yuxusundan oyanmamışdı...

Mən kənddən çıxanda gecə yarıydı,
Ay örpək çəkmişdi çöllərin üstə.
Heyrətim yolunu azan arıydı -
Uyuyub qalmışdı güllərin üstə ...

## ANAMA

Ürəyim üstündə şam bənövşəsi,
Ayrı nəyim var ki, yanası, anam.
Sənsən gülşənimin qəm bənövşəsi
Sənsən göz yaşımın sonası, anam.

Ovunmaz bu dərdim hər simin üstə,
Qar üstdən qar yağır səbrimin üstə,
Elə ağlayardım qəbrinin üstə,
Qorxdum ki, uçular binası, anam...

Bu zalım fələyin üzü ağ olsun,
Dağı düzdə qalsın, düzü dağ olsun,
Sevməyən kim varsa canı sağ olsun
Məni sevənlərin anası, anam...

## GECƏLƏR DAĞLARA BAXA BİLMİRƏM

Bu qışın qarını duman əritdi,
Əritdi, özü də yaman əritdi...
Bu qış da ürəyim güman əritdi,
Gecələr dağlara baxa bilmirəm...

Üstümə qayalar, dağlar sürüşür,
Dağları bağlayan tağlar sürüşür,
Bulaqlar sürüşür, -
ağlar sürüşür,
Gecələr dağlara baxa bilmirəm...

Bu Araz, bu da ki, Samur dağları,
Bürüyüb yamyaşıl mamır dağları,
Dağ çəkir sinəmə çadır dağları,
Gecələr dağlara baxa bilmirəm.

Üzülür ağrıdan Ağrının canı,
Gözümdən tökülür Murovun qanı,
Şuşanın dağları kəsir aranı,
Gecələr dağlara baxa bilmirəm.

Qaldırın üstümə uçan dağları,
Uçunur Kəlbəcər, Laçın dağları,
O mənfur buxovdan açın dağları,
Gecələr dağlara baxa bilmirəm.

Bir mehəm, Mehrinin mehrinə acam,
Dərbəndin dumanı dağılar haçan,
Şahəm Şah düzündən Şah dağınacan...
Gecələr dağlara baxa bilmirəm.

Dağdan da ağırdır daş tənhalığı,
Ürək tənhalığı, baş tənhalığı.
Asılıb zirvədən qış tənhalığı
Gecələr dağlara baxa bilmirəm...

Yaz qarı bir daşın donqarı üstə,
İzim yox bu yazın son qarı üstə,
Dərd yağır dərdimin yonqarı üstə,
Gecələr dağlara baxa bilmirəm...

## QAYTARIN YERİNƏ DAR AĞACINI

Qaytarın yerinə dar ağacını,
Çadır ağacından bezmişəm daha,
Abır ağacından bezmişəm daha,
Səbir ağacından bezmişəm daha...

Yaşı çoxdan ötüb bu çadırların,
Dirəyə söykənən daşı ağarıb.
Yaşı çoxdan ötüb bu abırların
Ayaqda, ətəkdə başı ağarıb.

Yaşdı bu torpağın çadır bələyi,
Ahıl yaşındadı çadırlar indi.
Ovutmur ruhumu abır küləyi
Boşuna ulayır abırlar indi...

Içində gizləyir qoca sirrləri,
Cavan gizləməkdən bezib çadırlar.
Döyüşdən, savaşdan kənar yerləri
Utana-utana gəzib çadırlar.

Silahlar çadırda gecələyirlər,
Günahlar çadırda gecələyirlər,
Sabahlar çadırda gecələyirlər,
Səbir ağasından bezmişəm daha...

Yolumda çadırla ölüb bu dünya,
Üzümə çadırla gülüb bu dünya,
Qədrimi çadırla bilib bu dünya
Qədir ağacından bezmişəm daha...

Üstümdə çadırla əsib bu dünya,
Yazımı çadırla yazıb bu dünya,
Qəbrimi çadırla qazıb bu dünya
Qəbir ağacından bezmişəm daha...

Səngər yox bu boyda səhmin içində,
Zəfər yox bu boyda zəhmin içində,
Fərəh yox bu boyda fəhmin içində,
Kəsər yox bu boyda rəhmin içində
Xətir ağacından bezmişəm daha...
Qaytarın yerinə dar ağacını,
Çadır ağacından bezmişəm daha...

Qaytarın yerinə dar ağacını
Abır ağacından bezmişəm daha...
İftira yuvası, yalan yuvası,
Əsarət yuvası, talan yuvası,
Bu ağ sarayların, boz sarayların,
Qotur ağacından bezmişəm daha...
Əyri harayların, düz harayların
Çopur ağacından bezmişəm daha...

... Dilimdə bir cahad şeiri oynayır,
Köksümdə bir güllə yeri oynayır,
Abır ağacından bezmişəm daha...
Səbir ağasından bezmişəm daha...
Çadır ağacından bezmişəm daha...
Qaytarın yerinə dar ağacını...

## SƏNİN İŞIĞINDAN KEÇİR BU YOLLAR

Sənin işığından keçir bu yollar,
Sənin işığından keçirəm mən də.
Səni işıq-işıq içir bu yollar,
Öz işıq payımı içirəm mən də.

Sənin işığına köklənib hər yer,
İşığa yüklənib əlim, ayağım.
İşıq dirəkləri saxlaya bilmir,
Bu qədər işığı necə saxlayım...

Gecəni şəhərdən yuyur işığın,
Gecəyə gözündən yol çəkəcəklər.
İşıqdan işığa qonur arılar
Arılar işıqdan bal çəkəcəklər...

Baxıb işıl-işıl işarır adam,
Hardandı bu qədər boya, bilmirəm.
İşığa bulaşır dilim, dodağım
Üzümdən işığı yuya bilmirəm.

Bu qədər işığı hardan yığmısan,
İşıqdan od tutub yanır bu şəhər.
Gözləri qamaşır göy üzünün də
Çıxmağa utanır Günəş bu səhər.

Yenə də keçirəm sizin şəhərdən,
Yenə də qarşıma işığın çıxır.
Qapını gizlicə döyür gözlərim,
Qapının ağzına uşağın çıxır...

## GEDİRSƏN

Sən indi gedirsən, üzügülər, şən,
Söylə, ötən günlər yada düşdümü.
Qaya ürəyimin zəlzələsindən,
Dərə ürəyinə səda düşdümü.

Gedirsən, bəmbəyaz duvaq başında,
Əllərin dizində nə titrək gedir.
Qışqıra-qışqıra gedən maşında
İkiyə bölünmüş bir ürək gedir.

Güman yox, təzədən sevilim, sevim,
Sinəm ağrıların dustağı olub.
Sənə bu sevginin ömrü bir sevim,
Mənə bir ömürlük göz dağı olub.

Gah yağış çiləyir, gah döyür külək,
Nədən yollarımın çəni ötməyir.
Ağacda tutmayan calaq yeri tək,
Gözümdən həsrətin izi getməyir.

Səsimə səs verər daş da, qaya da,
Bilirəm dilini çiçəklərin də.
Bir də sənli günlər çətin qayıdar,
Səmtini dəyişsəm küləklərin də.

Nisgilin könlümdə kök atıb dərin,
Göyərir hər sözün hər gileyimdə.
Çoxalıb qat kəsən xatirələrin
Çürüyür həsrətin nəmişliyində.

Əhdini itirib tapdılar səni,
Günəşdin, gedirsən Ay olmaq üçün.
Özgə təndirinə yapdılar səni,
Özgə süfrəsinə qoyulmaq üçün.

Boylanıb bu eşqin ötən yazına,
Daha payız-payız soyuyasıyam.
Yıxılıb kədərin çarpayısına
Sərxoş adam kimi uyuyasıyam.

## A BƏNÖVŞƏM MƏNİM

O nə boylanışdı, dolmusan yenə,
A bənövşəm mənim, süsənim mənim.
Özü bu dünyanı sevdirib mənə
Özü bu dünyadan küsənim mənim.

Gör bulaq dərəyə nə dil açdırıb,
Tənha daşlara da könül açdırıb,
Həsrəti gözümdə gül-gül açdırıb
Qönçə dodağını büzənim mənim.

Gecələr rənd alır qara telindən,
Qara mənsizliyi dara telindən.
Düşüb ürəyimə yara telindən
Tel-tel ürəyimi üzənim mənim.

Dərdə də tək dözür canım, can keçib,
Qüruba enirsən danımdan keçib,
Üz-üzə gələndə yanımdan keçib,
Məni yuxularda gəzənim mənim.

Eh bu da bir eşqin ayrı dağları,
Üşüyür kölgəsi aylı çağların.
Düzüb zülüm-zülüm ayrılıqları
Üstündə meh kimi əsənim mənim,
A bənövşəm mənim, süsənim mənim.

# Ekologiya və ətraf mühitin mühafizəsi

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

№ 13 (2485) 10 aprel 2026-cı il

**Bu gün təbiəti, ekologiyanı, havamızı, suyumuzu qorumaq təkcə aidiyyatı qurumların vəzifə borcu deyil. Bu, birmənalı olaraq cəmiyyətin, hər bir vətəndaşın əsas vəzifəsidir. Təəssüf ki, biz çox vaxt bunları unuduruq, təbiəti qorumaq əvəzinə, ekologiyamızı mühafizə etmək əvəzinə onu daha da yaman günə qoyuruq. Amma düşünmürük ki, yaman günə qoyduğumuz təbiət günlərin bir günündə bizdən qisas alacaq. Udduğumuz hava, içdiyimiz su, yediyimiz qida zəhərə dönüb canımızı alacaq.**

larla zərərli qazlar atılır. Bunun nə demək olduğunu bəlkə də çoxlarımız bilmir. Bu həm də o deməkdir ki, paytaxtın havası belə sürətlə zəhərlənirsə elə bu sürətlə də ağ ciyər xəstəlikləri artır. Yəni ağ ciyərdə xərçəng xəstəliyinin törəməsinin əsas səbəblərindən biri mütəxəssislərin dediyinə görə, Bakıda atmosferə normadan artıq atılan zərərli qazlardır.

Təbii ki, ekologiyamızı, eləcə də təmiz havamızı, suyumuzu qorumaq üçün Dövlət Proqramı mövcuddur. Və bu Dövlət Proqramına uyğun da aidiyyatı qurumlar böyük layihələr həyata keçirirlər. Həmin




# ATMOSFERƏ NORMADAN ARTIQ ZƏRƏRLİ QAZ ATILIR



Dənizə çirkab sular axıdan kimdir? Təbii ki, biz insanlar! Bəs, onda atmosferi zəhərləyən, içməli su hövzələrini pis günə qoyan və eyni zamanda hara gəldi əlindəki məişət tullantılarını atan yenə biz insanlarıq! Və biz insanlar Allahın Yer üzünə bəxş etdiyi bu sərvətləri, bu gözəllikləri bu zərifliklərı təəssüf ki, qoruya bilmirik. Və bu da bumeranq kimi nə vaxtsa gəlib özümüzə dəyir. Ancaq dəyməyə də bilər.

Bu yazımızda biz ölkəmizdə və ilk növbədə Bakıda atmosferi çirkləndirən səbəblərdən, amillərdən söhbət açmaq istəyirik. Ən azından ona görə ki, bu gün Bakıda milyonlarla insan yaşayır və atmosferə atılmış zərərli qazları udmağa məcburdur. Mütəxəssislər hesablayıb ki, hər il Bakıda atmosferə min ton-layihələrdən biri də ildə iki dəfə Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə DİN-in Baş Dövlət Yol Polisi İdarəsinin birgə keçirdiyi "Təmiz hava" aylığıdır. Təbii ki, bu "Təmiz hava" aylığının keçirilməsi atmosferin çirkləndirilməsinin qarşısının alınmasında önəmli rol oynayır. Və biz də "Ədalət" qəzeti olaraq hər iki qurumun keçirdiyi reyd və yoxlamalarda yaxından iştirak edirik. Bir qayda olaraq Baş Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayının bütün tağımlarında, eləcə də respublika ərazisində xidmət göstərən rayon dövlət yol polisi şöbələrində bu tədbirlər davamlı olaraq həyata keçirilir.

Heç şübhəsiz ki, bu cür tədbirlərin gerçəkləşdirilməsi atmosferə normadan artıq zərərli qazların atılmasının qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir. Heç də təsadüfi deyil ki, "Avro-5" və "Avro-6" standartlarına uyğun olaraq ölkəyə gətirilən nəqliyyat vasitələrinin sayı son vaxtlar daha da artıb. Bu isə o deməkdir ki, müasir texnologiya əsasında hazırlanmış bu avtomobillərdən atmosferə zərərli qazlar normaya uyğun xaric olunur. Və yaxın gələcəkdə isə elektriklə işləyən avtomobillərə dünyanın hər yerində olduğu kimi ölkəmizdə də böyük önəm veriləcək. Amma gəlin onunla razılaşaq ki, bu gün ölkəmizdə atmosferə normadan artıq zərərli qazlar atan minlərlə nəqliyyat vasitəsi var. Həmin nəqliyyat vasitələrinin əksəriyyəti 70-80-ci illərdə SSRİ və Rusiya istehsalı olan "VAZ" markalı avtomobillərdir.

Yol Patrul Xidməti Alayının Ekoloji Nəzarət bölüyündə keçirilən reydlər zamanı bu cür avtomobillərdən atmosferə normadan dəfələrlə artıq zərərli qazların atılması faktları aşkar edilib. Təkcə "Təmiz hava" aylığında ekoloji postda yüzlərlə belə Sovet və Rusiya istehsalı olan avtomobillər saxlanılıb və müayinədən keçirilib. Əlbəttə, bu nəqliyyat vasitələrinin köhnə olması, istismar müddətinin başa çatması mövcud problemlərin yaranmasının əsas səbəbidir. Düzdür, həmin nəqliyyat vasitələrinin sürücüləri İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə 50 manat miqdarında cərimə olunur. Elə hər il reydlər zamanı ən çox cərimə olunan nəqliyyat vasitələrinin sürücüləri də məhz həmin avtomobillərin sahibidir.

Baş Dövlət Yol Polisi İdarəsinin avtotexnikimüfəttişlik şöbəsinin rəisi, polis polkovniki Xalid Əzimov bizimlə söhbətində dedi ki, biz davamlı olaraq ildə iki dəfə "Təmiz hava" aylığının keçirilməsində yaxından iştirak edirik. Öncə ona çalışırıq ki, ayrı-ayrı təşkilatlar, qarajlar və idarələrdə insanlar arasında maarifləndirmə işləri aparaq. Yəni bu maarifləndirmə işləri onunla bağlı olur ki, hər bir fiziki, hüquqi və vəzifəli şəxsin diqqətinə çatdırılır ki, ekologiyanı qorumaq, təmiz havamızı, atmosferimizi mühafizə etmək hamının borcudur. Aydındır ki, bu təbliğat işləri öz müsbət nəticəsini də verir. Yəni müəssisələrdə aparılan yoxlamalar nəticəsində aydınlaşır ki, bir çox təşkilat və qurumlar bizim tövsiyyələrimizə əməl edib atmosferə normadan artıq zərərli qazların atılmaması üçün ciddi işlər görüblər.

Onu da qeyd edim ki, atmosferə ən çox zərərli qazların atılması faktları Sovet və Rusiya istehsalı olan nəqliyyat vasitələrində mövcuddur. Bununla yanaşı, "KAMAZ", "KRAZ", "Şadman" markalı yük maşınlarında da reydlər zamanı bu cür faktlara rast gəlinib. Hələ bu da hamısı deyil. Reydlər zamanı o da aşkarlanıb ki, bir çox mikroavtobus və avtobuslarda texniki nasazlıq üzündən atmosferə normadan artıq zərərli qazlar atılır. Bu isə birmənalı olaraq qanuna ziddir və həmin sürücülər inzibati məsuliyyət daşıyırlar. Elə sürücülər var ki, reydlər zamanı texniki qüsurları cərimə olunduqlarına baxmayaraq aradan qaldırmayıb və nəticədə ikinci dəfə onlar inzibati məsuliyyətə cəlb olunublar.

**Göründüyü kimi, ölkəmizdə və eləcə də Bakı şəhərində atmosferə normadan artıq zərərli qazların atılması bu gün də mövcuddur. Sevindirici haldır ki, aidiyyatı qurumlar bu problemin həll olunması üçün davamlı olaraq böyük layihələr və tədbirlər həyata keçirir. Amma bununla yanaşı təmiz havamızın və atmosferimizin qorunması üçün bütün cəmiyyət, insanlar və o cümlədən hər bir vətəndaş öz töhfəsini verməlidir. Yəni bu işdə hər şeyi aidiyyatı qurumların üstünə atmaq böyük məsuliyyətsizlik olar.**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



Adilə Səfərova

# "Hamlet" – Lənətlənmiş taxt-tac

**Naxçıvan Dövlət Milli Dram Teatrında U.Şekspirin dünya dramaturgiyasının misilsiz nümunəsi hesab olunan "Hamlet" əsəri teatrsevərlərə təqdim olunub. Bu möhtəşəm sənət nümunəsinin səhnə təcəssümü Naxçıvan teatrında mühüm ədəbi hadisə kimi təqdirəlayiqdir.**

Təbiətdə yeni dönəmin başlanğıc çağında, ana torpağın oyanış vədəsində, Baharın gəlişi, Yaz bayramı ərəfəsində bu ədəbi sənət hadisəsi teatrsevənlərə də əsil bayram sovqatıdır desək, yanılmarıq. Çünki, dahi ingilis dramaturqu Uilyam Şekspirin qələmə aldığı bu əsər bəşər düşüncəsinin ən mürəkkəb suallarını gündəmə gətirən, insan ruhunun dərin qatlarını açan nadir sənət incilərindən biridir və əsrlərdir öz aktuallığını qoruyub saxlayır. Bəli,yaradıcılığında humanizm,xəlqilik kimi bəşəri ideyaları önə çəkən, insan xarakterinin mürəkkəbliyini böyük sənətkarlıqla təsvir edən Şekspirin "Hamlet" faciəsi də bu baxımdan spesifik xüsusuyyətləri ilə seçiyələnir.Və əsər insanın daxili dünyasını, vicdan əzabını, ədalət və intiqam arasında gedən ağır mənəvi mübarizəni əks etdirən qüdrətli bir dram nümunəsi kimi dünyanı fəth edir. Təbii ki, dünya teatr səhnələrindən düşməyən, yarandığı dövrdən günümüzəcən dahi, şedevr rejissorlar tərəfindən səhnələşdirilən, ekranlaşdırılan belə bir əsərə müraciət etmək böyük cəsarət nümunəsidir və bu iş yüksək peşəkarlıq, mahir ustalıq tələb edir. Və inamla deyə bilərik ki, Naxçıvan teatrında tamaşanın yaradıcı turuppası özünə inam, cəsarət ilə bu məsul işin öhdəsindən məharətlə gəlib, möhtəşəm tamaşanı ərsəyə gətiriblər. Buna görə tamaşaya teatrın ən peşəkar, ən ustad sənətkarları, istedadlı aparıcı aktyorları cəlb olunub. Ugurlu seçimsə demək olar ki, öz bəhrəsini verib. Dörd xalq artisti və dörd əməkdar artistin rol aldığı səhnə əsərində obrazların daxili aləminin açılması əsas yaradıcı məqsədlərdən biri kimi uğurla həyata keçirilib. Tamaşada baş və əsas rolları xalq artisti Rza Xudiyev (Klavdi), əməkdar artist Nazlı Hüseynquliyeva (Kraliça Gertruda), Mir Qabil Əkbərov (Hamlet), xalq artisti Həsən Ağasoy (Poloni) və Şəbnəm Qaybalıyeva (Ofeliya) ustalıqla canlandırırlar. Xalq artistləri Rövşən Hüseynov, Şirzad Abutalıbov , aktyorlardan əməkdar artist Behruz Haxverdiyev, Məmməd Mehdiyev,Uğur Nəsirov, Əlizamin Abbasov, Saynur Babayev, Ələsgər Quliyev,Xəlil Hüseynov və digərləri də ,öz oyun tərzləri ilə diqqət çəkirlər. Onlar da obrazların psixoloji dərinliyini açmaqla, cərəyan edən hadisələrin dramatik gərginliyinə çalışır, tamaşaçılara həyəcan dolu anlar yaşadırlar. Bu mənada, tamaşaya rejissorluq etməklə baş rolu ifa etmək məsuliyyətini üzərinə götürən Mir Qabil Əkbərovun məharətli oyun üslubu xüsusi vurğulanmalıdır. Gənc olmasına rəğmən səhnə əsərinin mərkəzində olan Danimarka şahzadəsi Hamletin mürəkkəb və ziddiyyətli xarakterini dolğunluğu ilə yaradır.



Tamaşanın baş qəhrəmanı Hamlet dövrünün qabaqcıl düşüncəli ziyalı gənclərinin ümumiləşdirilmiş simasıdır. Zorakılığın və siyasi intriqaların hökm sürdüyü saray mühitində o, vicdan, həqiqət və ədalət uğrunda mübarizə aparan bir şəxsiyyət kimi təqdim olunur. Lakin... hakimiyyət hərisliyi, taxt-tac uğrunda çirkin mübarizə naminə törədilən cinayətlər baş qəhrəmanı dərin pisixoloji sarsıntılara məruz qoyur, faciəvi sonluğuna səbəb olur.



Hadisələrin inkişaf dinamikliyi Hamletin kral atasının ölümündən az sonra sarayda eyş-işrət, əyləncə məclisləri,anası ilə kral taxtına oturan əmisinin sevgi macərası fonunda yaranan şübhələrilə başlayır. Atasının kölgə ruhundan öyrəndikləri ilə vəziyyət daha da dərinləşir, şübhələrinin gerçəkliyi onun qisas almaq istəyini alovlandırır. Lakin qisas almaq niyyəti ilə bu yöndə tərəddüdləri Hamleti dərin labrint girdabına salır. Bütün bunlar-- baş rolun xarakteri, ədalət uğrunda mübarizəsi, amalı, bu yonda çəkdiyi iztirab və məşəqqətlər tipik çalarlarla, dolğunluğu ilə aktyor məharəti ilə tamaşaçıya yansıyır, onlarda həyəcan yaradır. İnamla demək olar ki, tamaşanın uğurlu alınması səbəblərindən biri baş rol və digər obrazların dolğun ifaçılığından qaynaqlanır.

Təbii ki, əsərin ideya məzmun dəyəri, mövzu aktuallığı, hadisələrin kulminasiya məqamına doğru tragik dramatikliyi də maraq doğurur. Bütün zamanlarda hakimiyyət hərisliyi, taxt-tac səltənətinə sahib olmaq naminə döğma qardaşa qəsd etmək ən böyük faciələrə zəmin yaradır.

Bu əsərdə də hadisələrin inkişaf məcrasında məlum olur ki, Hamletin atası - Danimarka kralı məhz qardaşı Klavdi tərəfindən zəhərlənərək öldürülmüşdür. Taxtı ələ keçirən Klavdi Hamletin anası Gertruda ilə evlənərək hakimiyyətinə sahib olub onu möhkəmləndirməyə çalışır.

Lakin bu hakimiyyət ona rahatlıq gətirmir; əksinə, vicdan əzabı və daimi qorxu onun da həyatını məhrumiyyətlərə sürükləyir. Və diktə edir ki, qan tökməklə, ədalətsiz yolla əldə edilən hakimiyyətin dayağı çürük olur, mənəvi iflasla nəticələnər.

Tamaşada atasının öldürüldüyünü öyrənən Hamlet də qisas almaqla yanaşı ədalətin bərpa olunmasını davacib amal bilir.O, Klavdinin

günahını sübut etmək məqsədilə saraya gələn teatr truppasına kralın qətlini əks etdirən "Siçan tələsi" tamaşasını hazırladır. Tamaşa zamanı Klavdinin narahatlığı və təşvişi onun cinayətinin ifşa olunduğunu göstərən mühüm dramaturji məqam kimi təqdim olunur.

Xalq artisti Rza Xudiyev obrazın daxili aləmini açmaqla tamaşanı daha baxımlı edir. Əməkdar artist Nazlı Hüseynquliyeva da yüksək peşəkarlıqla Gertruda obrazı ilə tamaşaçıları təsirləndirməyi bacarır. Hadisələrin sonrakı gedişi faciəvi məcraya yönəlir. Hamlet Ofeliyanın atası Polonini öldürür. Bu hadisə Ofeliyanın ağır psixoloji sarsıntı keçirməsinə və sonda həyatını itirməsinə səbəb olur. Ofeliyanın qardaşı Laert isə atasının və bacısının qisasını almaq üçün Hamletlə duelə çıxır.Duel zamanı nizənin ucuna Klavdi tərəfindən zəhər sürtüldüyü məlum olur. Hər iki gənc ağır zədə alır. Ölüm ayağında olan Hamlet həmin nizə ilə Klavdini öldürərək atasının qisasını alır. Lakin bu qələbə faciəvi sonluqla nəticələnir: həm Laert, həm də Hamlet həyatını itirir.

Faciənin finalı bir daha göstərir ki, hakimiyyət uğrunda amansız mübarizə, intriqa və zorakılıq nəhayətdə insan talelərini məhvə aparır. Hamlet fiziki olaraq məğlub olsa da, onun uğrunda mübarizə apardığı ədalət, həqiqət və mənəvi dəyərlər ideyası yaşayır və insanlığı düşünməyə sövq edir. Tamaşanın uğurlu alınmasında rejissoru Mir Qabil Əkbərovun özünəməxsus səhnə yozumu, quruluşçu rejissoru əməkdar artist Səməd Canbaxşıyevin quruluş mizanları müstəsna amildir.

**Tamaşada birinci və ikinci məzarçıların - Səməd Canbaxşıyev və Rövşən Hüseynovun yüksək səhnə performansı tamaşaçıların marağına səbəb olur. Bu sırada rejissor assistenti Leyla Yaqubovanın da payı az deyil. Eləcə də, Əfsanə Şirəliyevanın musiqi tərtibatı da hadisələrin cərəyanına emosional təsir göstərib, dramatik situasiyaların gərginliyini daha da artırır. Səhnə tərtibatı, quruluşu isə gənc rəssam Araz Xudiyev tərəfindən hazırlanıb. Dekorasiya və səhnə detalları tamaşanın ümumi bədii həllinə uyğun şəkildə qurulub və Şekspir dövrünün ab-havasını tamaşaçıya hiss etdirməyə xidmət edir.**

## *Cavan Zeynallı: "Siz kimsiniz ki, cazı bəyənmirsiniz?!"*



**"Mən heç kəsə deyə bilmərəm ki, sən yaxşı piano çalmırsan, yaxşı oxumursan. Bunu desəm arvadlar üstümə töküləcək. Sevmirəm kimisə müzakirə etməyi. Heç kəslə işim yoxdur. Ancaq eşidirəm ki, haqqımda danışırlar. Deyirlər ki, Cavan Zeynallı az- az efirlərə çıxır. Haqqımda hər cür şayələr danışırlar. Bunları hardan düzüb-qoşurlar heç birindən xəbərim olmur". Bu sözləri Adalet.az-a açıqlamasında Xalq artisti Cavan Zeynallı söyləyib:**

"Deyirlər ki, guya mənim qızım var. Mən onu evimə buraxmıram. Bunların hamısı ağ yalandır. O qız hardadır ki, mənim ondan xəbərim yoxdur. Bir xalq artisti üçün belə yalanları uydurmaq nə dərəcədə doğrudur? Mənim ömrümün yarıdan çoxu qostrollarda keçirdi. Şəxsi həyatımla bağlı, sənətimlə bağlı xoşagəlməz sözlər eşidirdim. Bir arvad deyirdi ki, Cavan Zeynallı kimdir ki? O nə oxuyandır ki? Mən xalq artistiyəm, sənətimi sevirəm. Və peşəmdən kifayət qədər anlayışım var. Heç bu sözləri demək olarmı? O arvadın adını bilmirəm və bilmək də istəmirəm. Belə xəstə adamlar çoxdur. Bəziləri deyir ki, bu caz nədir, gərəksizdir. Axı mən cazmenəm. Mən gözəl Azərbaycan mahnıları çalıram, gözəl mahnılar oxuyuram. Elə deyənlərə həmişə deyirəm ki, siz kimsiniz ki, cazı bəyənmirsiniz?! Cazın tarixi var".

## *Tarix Əliyev: "Bu hal özəl televiziyaların marketinqinə böyük zərbə vurub"*



**Müstəqil televiziyaların müstəqil mövqeyi var. Audiovizual Şura byan etdi ki, biz heç kəsin verilişini bağlaya bilmərik. Bu, ancaq müstəqil televiziyaların öz qərarı ola bilər. Audiovizual Şura televiziyaların qayda- qanunu pozmayan efirlərin yayımına qadağa qoymursa, kim deyə bilər ki, mən 20-25 müğənninin efirə çıxmasına qadağa qoyuram? Biz müstəqil ölkədə yaşayırıq. Bu müğənnilərin hər birinin özünəməxsus kütləsi var".**

Bu sözləri Adalet.az-a açıqlamasında prodüser, aparıcı Tarix Əliyev deyib:

"İnsanlar bayağı adlandırdıqları müğənnilərə qulaq asırlar. Onlar niyə bayağı olsun ki? Vaxtilə Məmmədbağır Bağırzadə, Baloğlan Əşrəfov , Ağadadaş Ağayev də AzTV-yə çıxmaq üçün başqa bəstəkar mahnıları ifa edirdilər. Onların da ifası bayağı adlandırılırdı. Bu müğənnilərə toyxana ifaçıları deyirdilər. Amma onlar efirdə gözəl bəstəkar mahnıları ifa edirdilər. Demək istəyirəm ki, bu qədər müğənnilərə efir qadağası qoymaq mümkünsüzdür.

Heç bir rəsmi qurum bu qadağa haqda bir söz deməyib. Heç bir rəsmi orqan bu "siyahı"nı tətbiq etməyib. Azərbaycan televiziyalarının reytinq cədvəlinə nəzər salsaq 1-ci "Xəzər TV", 2-ci "ATV", 3-cü yeri isə "ARB" və "Space TV" bölüşürdü. Bu gün isə ATV ilə ARB reytinq cədvəlində Space TV-dən də aşağıda dayanır. Bu hal özəl televiziyaların marketinqinə böyük bir zərbə vurub.

İnsanların və televiziyaların bayağı adlandırdığı müğənnilərin adları "İctimai.TV-də "Maska şou"da hallanır. Orada Nigar Camal Ofelya Şabanovaya " Ərinin orasını- burasını yuyan" dedi. Və bütün sosial şəbəkənin gündəmi bu mövzu oldu.

Əgər Ofelya Şabanova, Nəfəs, Şəbnəm Tovuzlu v.s bunlar bayağı müğənnilərdirsə, təxminən bir milyon iki yüz min dəyəri olan layihədə onun adını çəkməyə niyə icazə verirlər? Axı bayağı dediyin müğənni bu vasitəilə təbliğ olunur.

Tam 10 il aparıcılıq etmişəm. Heç vaxt efirlərdə rəsmi qadağa olmayıb. Bu gün heç bir dövlət qurumu zəng edib özəl televiziyalara bildirmirlər ki, filankəsi efirə çağırma. Belə bir anlayış yoxdur.

Sadəcə görünür ki, gündəm olaraq bu müğənnilər çox müzakirə olunur. Şəxsi həyatları çox diqqət çəkir. Aparıcılar öz aralarında həmrəylik bildirib, həmin müğənniləri bir müddət efirə çağırmamağı məlehət bilirlər.

Nəzarət hər yerdə var, nəzarət başqa anlamdır, qadağa başqa. Əlbəttə, insan evində heyvanı da nəzarətsiz qoya bilmir.

Ola bilər ki, efirlərdə maraqlı verilişlə olur. Ancaq televiziyalar istədiyi reytinqi ala bilmir. Bu da onu sübut edir ki, bizim cammat, bu toplum həmin bayağı dedikləri müğənnilərə daha çox baxırlar.

Efirdə səviyyədən danışanların bir çoxu ömür boyu cammata maraqsız olub. Elə maraqsız olduqları üçün də onları efirlərə dəvət etmirlər".

Əntiqə KƏRİMZADƏ

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Zeynalova Almaz Mütəllim qızının adına verilmiş **Şəhid Ailəsi vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 273
Çapa imzalanmışdır: 09.04.2026